**“JURNALİSTLİK QEYRİ-ADİ, BÖYÜK ZƏHMƏT, XÜSUSİ BİLİK TƏLƏB EDƏN BİR SƏNƏTDİR. AZƏRBAYCAN DÖVLƏTİ JURNALİSTLƏRİN ƏMƏYİNİ DAİM YÜKSƏK QİYMƏTLƏNDİRİR”.**

*Heydər Əliyev*

## REDAKSİYA FƏALİYYƏTDƏ



*Yeni nömrəyə baxış*




### 40 İLDƏ JURNALIN FƏALİYYƏTİ HAQQINDA

40 ildə jurnalın 180 nömrəsi çap olunub.
850 çap vərəqi həcmində 2400 məqalə dərc edilib.

**RUBRİKALAR ÜZRƏ MƏQALƏLƏRİN SAYI:**

Nəzəri məqalələr....................75
Yeni pedaqoji texnologiyalar....................49
Məktəbəqədər təhsil....................435
Fənlərin tədrisi və qabaqcıl təcrübə........929
Tərbiyə məsələləri....................311
Psixologiya və defektologiya məsələləri ....94
Məsləhət....................129
Uşaqlar üçün yazılmışdır....................48
Görkəmli sənətkarlar haqqında....................36
Tənqid və biblioqrafiya....................45
Digər rubrikalarla əlaqədar....................249






*Növbəti nömrə çapa hazırlanır*

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Jurnal 1970-ci ildən çap olunur.

2011, № 1 (194)

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

(Elmi - metodik jurnal)

1

2011

**Redaksiya heyəti:**
Baş redaktor: **prof. Y.Ş.Kərimov**

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərslik və nəşriyyat şöbəsinin müdiri* |
| **Arif Muradov** | *Azərbaycan Respublikası Təhsil Muzeyinin direktor müavini* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər təhsil sektorunun müdiri* |
| **Asəf Zamanov** | *Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, fiologiya elmləri doktoru, professor* |
| **Vaqif Əmraslanov** | Bakı *Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun məktəbəqədər və ibtidai təhsil şöbəsinin müdiri, pedaqoji elmlər doktoru, professor* |
| **Ramiz Əliyev** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun psixologiya və yaş fiziologiyası şöbəsinin müdiri, psixologiya elmləri doktoru, professor* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Müəllimlər İnstitutu məktəbəqədər və ibtidai təhsilin metodikası kafedrasının müdiri, professor, pedaqogika üzrə fəlsəfə doktoru* |
| **AzadxanAdıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, pedaqoji elmlər doktoru* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, biologiya üzrə fəlsəfə doktoru* |
| **Zemfira Əsədova** | *Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini* |
| **Bibixanım İbadova** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun ibtidai təhsil kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru* |
| **Könül Həsənova** | *Nəsimi rayonu, 111 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi* |
| **Xalidə Talıbova** (məhsul katib) | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru.* |


---

Yığılmağa verilmiş 02.III.2011. Çapa imzalanmış 15.III.2011.
Kağız formatı 70x100 1/16. Şərti çap vərəqi 7,5.
Sifariş № 04. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: Az 1010. Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 40.
Tel. 493-84-41, mob. (050) 370-60-11.

---

"RS Poliqraf" MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı şəhəri, A. Məmmədov küçəsi 113.

---

# BU NÖMRƏDƏ

Azərbaycan Respublikasının təhsil naziri prof. M.C. Mərdanovun giriş sözü....5
Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının qərarı....7
Nazir yubilyarları təbrik edir....8
**Y.Kərimov.** «Məktəbəqədər və ibtidai təhsil» jurnalı 40 ildə....9
Təbriklər....13
**M.C.Mərdanov.** «Məktəbəqədər və ibtidai təhsil» jurnalının redaksiya heyətinə....13
**A.O.Mehrabov, A.N.Abbasov.** Yeni-yeni uğurlar....14
**Ə.Ə.Ağayev.** Təbrik edirəm....15
**N.Nəcəfov.** «Məktəbəqədər və ibtidai təhsil» jurnalının redaksiyasına....16
**H.Əhmədov.** Hörmətli redaksiya....17
**Ə.Əlizadə.** İşıqlı illərin fərəhi....18
**M.Baharlı.** Sevinirəm, təbrik edirəm....19
**F.Rüstəmov.** «Məktəbəqədər və ibtidai təhsil» jurnalının redaksiyasına....19
**N.Əliyeva.** Çox hörmətli, Yəhya müəllim....20
**V.Xəlilov.** 40 ilin məsləhətdaşı və yol göstərəni....21
**S.Quluyeva.** «Məktəbəqədər və ibtidai təhsil» jurnalının baş redaktoru Yəhya Kərimova....22
**F. Ələkbərova.** Уважаемый коллектив журнала «Məktəbəqədər və ibtidai təhsil»....23
**Z.Əliyeva.** 40 yaşın mübarək....24
**Z.Məhərrəmli.** 40 yaşın işığında....25

## YENİ PEDAQOJİ TEXNOLOGİYALAR

**B.İbadova.** 2009-2010-cu dərs ilində II sinifdə fənn kurikulumlarının tətbiqi vəziyyəti....29

## MƏKTƏBƏQƏDƏR TƏHSİL

**L.Cəfərova.** Məktəbə hazrlığın metodoloji, psixoloji və didaktik əsasları...32
**Ə.Bədəlova.** Müasir şəraitdə mənəvi tərbiyəni aktuallaşdıran amillər....37
**T.Sadıqova. A.Məmmədova.** Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsi üzrə işin təşkili....40
**K.Gülməmmədova.** Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində nağıllardan istifadə....44
**K. Məmmədova.** Oyun uşaq şəxsiyyətinin inkişafının vasitəsi kimi....48

## FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ

**A.Adıgözəlov.** Kiçik yaşlı məktəblilərdə həndəsi anlayışların formalaşması.52
**Б.Нуриева.** Применение ИКТ в начальной школе. ........................................57
**Ş.Cəlilzadə.** Şagirdlərin nitqinin inkişaf etdirilməsi prosesində inteqrasiyadan istifadə.......................................................................................63
**B.Quluyev.** Fiziki tərbiyə üzrə tədrisin nəticələrinin reallaşdırılmasının mühüm meyarları..............................................................................68
Uşaqlar üçün faydalı suallar...............................................................71

## PSİXOLOGİYA VƏ DEFEKTOLOGİYA MƏSƏLƏLƏRİ

**R.Əliyev.** Kiçikyaşlı məktəblilərin psixoloji xüsusiyyətləri və onlarla psixoloji xidmətin təşkili. ...............................................................73
**L.Əmrahlı.** Uşaqlara psixoloji xidmətin aktual məsələləri. ..........................79

## TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**Ş.Əliyeva.** Uşaqlara vətənpərvərlik hissinin aşılanmasında musiqi məşğələlərinin rolu. ...............................................................85

## TƏHSİLİMİZİN TARİXİ

**H.Əhmədov.** Azərbaycanda ibtidai təhsil müəssisələrinin meydana gəlməsi və inkişaf yolları. .............................................................91
**Ю. Муханова, Ф.Алекберова.** Традиции и современность.........................97
**Hikmətli sözlər** ...............................................................103

## PEDAQOGİKANIN NƏZƏRİ MƏSƏLƏLƏRİ

**A.Həsənov.** Təlimin mahiyyəti və qanunauyğunluqları. ............................104

## SİZİN KİTAB RƏFİNİZ

**A.Əsgərova.** «Hərflərin söz çələngi» ...........................................110
**K.Məmmədova** Yeni nəşrlər. ...............................................................112

## YUBİLYARLAR

***LÜTFİ ZADƏ-90***

**Ş.Şahbazova.** Dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadənin 90 yaşı tamam olur. ...............................................................113

***OQTAY RƏCƏBOV-70***

**V.Xəlilov.** Tanınmış bəstəkar, görkəmli pedaqoq. .....................................118

## AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRİ PROF. M.C. MƏRDANOVUN GİRİŞ SÖZÜ

Hörmətli yubiley iştirakçıları!

Ümummilli liderimiz Heydər Əliyevin başladığı və möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin tərkib hissəsi olan Azərbaycan təhsil siyasəti də inamla irəliləyir. Bu siyasətin reallaşmasında bütün cəmiyyətin rolu olduğu kimi, pedaqoji mətbuatın da xidməti əvəzsizdir. Təhsil sisteminə xidmət edən mətbu orqanlardan biri də "Məktəbəqədər və ibtidai təhsil" jurnalıdır. Bu gün biz təhsil sistemimizin bünövrəsi hesab olunan məktəbəqədər və ibtidai təhsilin elmi əsaslar üzrə inkişafına xidmət göstərmiş «Məktəbəqədər və ibtidai təhsil» jurnalının 40 illik yubileyini qeyd etmək üçün toplaşmışıq.

Jurnalın yaranması 40 il bundan əvvəl – 1970-ci ildə təhsil sahəsində islahatların həyata keçirilməsi, üçillik ibtidai təhsil üzrə eksperimentə başlanması ilə əlaqədar ibtidai sinif müəllimlərinin elmi – metodik cəhətdən ciddi köməyə ehtiyacı olduğu dövrə təsadüf edir.

Keçən əsrin 70-ci illərində «Azərbaycan məktəbi» jurnalının nəzdində belə bir məcmuənin işıq üzü görməsi böyük hadisə idi. O dövrdə məktəbəqədər müəssisələrin tərbiyəçilərinin, sinif müəllimlərinin elmi – metodik hazırlığını yüksəltmək, onları istiqamətləndirmək, düşünməyə, araşdırmağa, yaratmağa səfərbər etmək, inkişaf etdirmək, bir sözlə, yeni nəsil pedaqoji kadrlar yetişdirmək həyatın təxirəsalınmaz tələbi idi.

Hörmətli yubiley iştirakçıları, o zaman məcmuənin yaranması, formalaşması, geniş pedaqoji ictimaiyyət tərəfindən razılıq hissi ilə qəbul olunmasında xüsusi xidmətləri olmuş, artıq dünyasını dəyişmiş proffessor Mehdi Mehdizadə, proffessor Mərdan Muradxanov, proffessor Ağamməd Abdullayev, proffessor Əziz Əfəndizadə, dosent Mirzə Məmmədov və başqalarının xatirəsini hörmətlə yad edək.

Məcmuənin fəaliyyətində proffessor Əbdül Əlizadə, proffessor Əjdər Ağayev, proffessor Oqtay Rəcəbov, proffessor Vidadi Xəlilov, Məhəmməd Baharlı və başqalarının da əməyi çox olmuşdur.

Bu gün jurnalın ətrafında məktəbəqədər müəssisələrin tərbiyəçiləri, sinif müəllimləri, təhsil işçiləri, pedaqogika və psixologiya sahəsinin görkəmli alimlərindən ibarət böyük təhsil işçiləri ordusu toplaşmışdır. Burada əyləşənlərin tərkibi fikrimizi təsdiq etməyə əsas verir.

Bu jurnalın 2001-ci ildə 30 illik, indi 40 illik yubileyini təşkil etmək bir nazir kimi mənə qismət olmuşdur. Mən bununla qürur hissi duyuram.

Məcmuə müstəqil jurnal statusu aldıqdan (2001-ci ildən) sonra fəaliyyət dairəsini daha da genişləndirdi. Əvvəllər, əsasən, metodik planda fəaliyyət göstərən məcmuə indi pedaqogikanın nəzəriyyəsi, psixologiya, defektologiya, yeni pedaqoji texnologiyalar, təhsilimizin tarixi və başqa sahələri əhatə edən elmi – metodik jurnal kimi tanınır.

Jurnal, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş məktəb islahatının təbliği və tətbiqi sahəsində böyük işlər görmüşdür. Təhsil standartlarının müəllimlərə çatdırılması, ibtidai siniflərdə fənn kurikulumlarının tətbiqi, onun nəzəri məsələlərinin tədqiqi, qabaqcıl müəllimlərin praktik fəaliyyətini əks etdirən dərs nümunələrinin verilməsi, bacarıqlı təhsil işçilərinin yaradıcı fəaliyyətinin oxuculara çatdırılması sahəsində jurnalın xidməti təqdirə layiqdir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi, ölkəmizin təhsil işçiləri adından jurnalın baş redaktoru Yəhya Kərimovu və redaksiya heyətini, redaksiyanın əməkdaşlarını təbrik edirəm. Şübhə etmirəm ki, jurnal gələcək fəaliyyətində də özünün parlaq ənənələrinə sadiq qalacaq, məktəbəqədər və ibtidai təhsilin yeni problemlərinin aradan qaldırılması, inkişafı, nəticə etibarilə, milli təhsilimizin çiçəklənməsi sahəsində daha böyük fəaliyyət göstərəckdir.

Sizə uğurlar arzulayıram!

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI**

**Təltif barədə**

«Məktəbəqədər və ibtidai təhsil» jurnalının adları aşağıda göstərilən əməkdaşları məktəbəqədər və ümumi təhsil müəssisələrinin informasiya və metodiki təminatı sahəsindəki xidmətlərinə görə və jurnalın fəaliyyətinin 40 illiyi münasibətilə Təhsil Nazirliyi tərəfindən təltif edilsinlər:

**«Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi» döş nişanı ilə:**

Abbasova Sevda İslam qızı - məsul katib

**«Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı» ilə:**

İsgəndərov İlqar Mahir oğlu - jurnalın əməkdaşı

Məmmədova Adilə Məcid qızı - jurnalın əməkdaşı

**Kollegiyanın sədri** **Misir Mərdanov**









***Nazir jurnalın baş redaktorunu və təltif olunmuş əməkdaşlarını təbrik edir.***

# “MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL” JURNALI 40 İLDƏ

Respublikamızda təhsil sisteminin inkişafı çox mühüm təşkilati və idarəetmə amilləri ilə yanaşı, həm də onun pedaqoji təminatından asılıdır. Məlumdur ki, istər təlimin, istər tərbiyənin, istərsə də inkişafın mütəşəkkil təşkilinin ilk addımları, məktəbəqədər müəssisələrdə, xüsusilə ibtidai siniflərdə atılır. Fəaliyyətinin normal təşkil olunmasında onun pedaqoji təminatı xüsusi əhəmiyyət kəsb edir. Bunu nəzərə alaraq 1970-ci ildə – ibtidai təhsilin ilk dəfə ciddi eksperimental axtarışlara məruz qaldığı bir dövrdə maarif naziri, akademik Mehdi Mehdizadənin təşəbbüsü ilə «Azərbaycan məktəbi» jurnalının nəzdində «İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsinin yaradılması qərara alındı.

İldə 6 dəfə 28 min tirajla çap olunan bu məcmuə təhsilin aşağı pilləsini elmi əsaslarla idarə edən, yeni uğurlara yönəldən yeganə mətbu orqan idi. 30 illik yubileyindən sonra məcmuəyə müstəqil jurnal statusu verildi. 2009-cu ildən jurnal təhsil qanununa uyğun olaraq «Məktəbəqədər və ibtidai təhsil» adlandı.

40 il əvvəl belə bir məcmuənin meydana çıxması həyatın tələbi, qaçılmaz zərurət idi. Məcmuənin 1-ci nömrəsində oxuculara belə müraciət edilmişdi: “Mövcud çətinlikləri aradan qaldırmaq üçün hər bir müəllim yorulmaq bilmədən oxumalı, yeni proqramların tələblərini həyata keçirmək üçün öz ixtisasını artırmalı, metodik ustalığını təkmilləşdirməlidir. Bu işdə məcmuə Sizə yaxından kömək edəcəkdir. Onun səhifələrində Sizi maraqlandıran metodik məsələlərə dair məqalələr oxuya biləcəksiniz.

Məcmuədə sinif müəllimlərinin, uşaq bağçası tərbiyəçilərinin qabaqcıl iş təcrübəsini əks etdirən materiallar, proqramın çətin və mürəkkəb bölmələrinin tədrisinə kömək edəcək metodik göstərişlər, uşaqlarla aparılan tərbiyə işlərinə dair məqalələr dərc olunacaqdır.”

Beləliklə, məcmuə oxucuları istiqamətləndirdi, onların faydalanacaqlarına təminat verdi.

Məcmuə yarandığı gündən, əsasən, iki istiqamətdə fəaliyyətə başladı: a)pedaqoji kadrların elmi-nəzəri səviyyələrinin yüksəldilməsi; b) məktəbəqədər tərbiyə və ibtidai təhsil müəssisələrinin təcrübəsinin öyrənilməsi, ümumiləşdirilməsi və yayılması.

Məcmuənin fəaliyyətinin düz 20 ili Sovet hakimiyyəti dövrünə təsadüf edir. Həmin illərdə məcmuə SSRİ Pedaqoji Elmlər Akademiyası tərəfindən işlənmiş təhsil sistemi dairəsində fəaliyyət göstərmişdir. Təhsilin həyatla əlaqələndirilməsi, ikiilliksiz təlim, təlimin intensivləşdirilməsi, təlim prosesində fərdiləşdirmə, təlimin texniki vasitələrindən istifadə, proqramlaşdırılmış təlim, təlim prosesinin optimallaşdırılması, problemli təlim və s. məsələlərlə əlaqədar yazılar, pedaqoji eksperimentlər təhsilimizə yeni nəfəs gətirmişdi.

Məcmuə sadalanan yenilikləri təsvir etmək deyil, onların mahiyyətini açmaq, yerli şəraitə uyğunlaşdırmaq, müəllimləri şüurlu fəaliyyətə qoşmaq istiqamətində

xeyli iş görmüş, təşkilatçı rolunu oynamışdır. Akademik L.V.Zankovun məqalələri müəllimləri yaradıcı axtarışlara, tədqiqatçılığa qoşdu. Yeni problemlərlə əlaqədar görkəmli rus alimlərinin məqalələrindən müəllimlər xeyli bəhrələndilər. Az müddət ərzində məcmuə ətrafına onlarla pərəstişkar toplaya bildi.

Üçillik ibtidai təhsil sisteminə keçilməsi, 6 yaşdan təlimə başlanması, təlimin beşgünlük tədris həftəsi üzrə fəaliyyət göstərməsi ilə əlaqədar eksperimental tədqiqatların mahiyyətinin müəllimlərə, təhsil işçilərinə çatdırılması məcmuənin ilk 20 ilinin əlamətdar hadisələridir.

Təhsilin nəzəri səviyyənin yüksəldiyi, hesab fənninin riyaziyyatla əvəz edildiyi, təbiətşünaslığın tədrisinə I sinifdən başlandığı, yalnız yaddaşa deyil, həm də, əsasən, təfəkkürə əsaslanmağın zəruriliyinin qarşıya çıxdığı dövrdə müəllimləri silahlandırmaq tələb olunurdu. Akademik L.V. Zankovun «Şagirdlərə gücləri çatan ən yüksək çətinlik səviyyəsində biliklərin verilməsi» ideyası eksperimentin məzmununu və yollarını müəllimlərə çatdırmaq vəzifəsini irəli sürürdü. Məcmuə üçillik təlimin müvəffəqiyyətlə həyata keçirilməsində mühüm rol oynadı.

70-ci illərin əvvəlləri̇ndən məcmuə azsaylı xalqların uşaqlarının məktəbdə, azərbaycanlıların isə uşaq bağçalarında məktəbə hazırlanmaları üçün proqramların, metodik göstərişlərin müəllimlərə təqdim olunmasına, müəllimlərin fəaliyyətinin düzgün istiqamətləndirilməsinə təkan verdi. Bir-iki ildən sonra həmin problem başqa aspektdə inkişaf etdi: 6 yaşdan təlimə başlamaq ideyası qarşıya çıxdı. Problemlə əlaqədar məcmuədə sanballı məqalələr dərc olundu. 6 yaşdan təlimin sistemi, məzmunu, eksperimentin gedişi yolları işlənib müəllimlərə çatdırıldı. Uşaq bağçalarının məktəbə hazırlıq qrupları və məktəblərdə təşkil olunmuş hazırlıq siniflərində alınan müsbət nəticələr məktəb təliminə bir il tez başlamaq fikrini reallaşdırdı. 1992-ci ildə 6 yaşdan kütləvi təhsilə keçildi.

Axtarışlarla dolu olan bu dövrdə (1981-1984-cü illər) beşgünlük tədris həftəsi üzrə işin təşkili 10 uşaq bağçası və 40 məktəbdə sınaqdan keçirildi, jurnal onun da gedişini şərh etdi və nəticəsi oxuculara çatdırıldı. Bütün bunlar müəllimlərin ixtisasının artırılmasına, təhsil quruculuğuna faydalı xidmət olmaqla jurnalın təşkilatçılıq və təbliğatçılıq bacarığını necə yerinə yetirdiyini göstərdi.

Belə anlaşılmamalıdır ki, məcmuə yalnız kütləvi eksperimentlərin təbliği və tətbiqinə xidmət etmişdir. Bunlarla yanaşı, məcmuənin səhifələrində elm, təhsil və tərbiyənin müxtəlif sahələri də əhatə olunmuşdur.

Jurnal, hər şeydən əvvəl, dövlətimizin ideologiyasına, təhsil siyasətinə, məktəb quruculuğuna, Respublika Təhsil Nazirliyinin həyata keçirdiyi tədbirlərin dəstəklənməsinə və təbliğinə sədaqətlə xidmət etmişdir. Bu gün jurnal dövlətimizin təhsil siyasətinin, müstəqil respublikamızın təhsil islahatından irəli gələn vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi istiqamətində yorulmadan fəaliyyət göstərir. Bu prosesdə o, Təhsil Nazirliyinin qərar və göstərişlərini əldə rəhbər tutur.

Məcmuənin ərsəyə gəlməsində və formalaşmasında onun redaksiya heyətinin üzvləri, elmlər namizədləri Muxtar Həmzəyev, Əfşan Qədimbəyova, Məcid İsmixanov, Nüsrət Sadıqov, Əliağa Şükürov, Ziyad Osmanov, Paşa Hacıyev, Məmmədhənifə Musayev, Sosialist Əməyi Qəhrəmanı Məsmə Atakişiyeva, əməkdar müəllim Lətifə Qoşqarlı, qabaqcıl müəllim Roza Mehdiyeva, Məhərrəm Səfərlinin əməyi böyük olmuşdur. Nağı Günəşli, Əjdər Ağayev, Məhəmməd Baharlı baş redaktorun müavini kimi xüsusi xidmət göstərmişlər.

Məcmuənin ilk nömrələrindən pedaqogika və psixologiya üzrə görkəmli professorlar M.Muradxanov, A.Abdullayev, N.Kazımov, Ə.Həşimov, Ə.Əfəndizadə, C.Əhmədov, B.Əhmədov, Ə.Əlizadə, Ə.Ağayev, V.Xəlilov və başqaları öz məqalələri ilə oxucuları düzgün istiqamətləndirmişlər.

Onlarla elmlər doktoru, elmlər namizədləri tədqiqata başlayarkən öz ideyalarını məcmuənin «meydanında» sınaqdan keçirmiş, qələmlərini «itiləmiş», alim kimi formalaşmışdır. Beləliklə, nəzəriyyə ilə təcrübə arasında üzvi əlaqə təmin edilmişdir. Yarandığı gündən məcmuə dissertant, aspirant, tərbiyəçi, müəllim, təhsilə rəhbərlik edən şəxsləri öz ətrafına topladı.

Qabaqcıl müəllim və tərbiyəçilərdən Qəmər Tağıyeva (291 nömrəli Araz Ekologiya Liseyinin müəllimi), Səmagül Əliyeva (102 nömrəli məktəbin müəllimi), Aygün İbrahimova (Bakı şəhər Müasir Təhsil Kompleksinin müəllimi), Afaq Əliyeva (Gəncə təhsil şöbəsinin metodkabinetinin müdiri), Fəridə Babayeva (Qax rayon təhsil şöbəsinin metodkabinetinin metodisti), Lətifə Balakişiyeva (Qusar 3 nömrəli məktəbin müəllimi), Cavanşir Abbasov (Lənkəran Dövlət Universitetinin müəllimi), Sədaqət Rəhimova (240 nömrəli uşaq bağçasının müdiri), Zemfira Əsədova (175 nömrəli körpələr evi – uşaq bağçasının müdiri) və başqaları fəal iştirak edirlər.

Gənc nəslin tərbiyəsi problemi jurnalın fəaliyyətində aparıcı yer tutur. Jurnalda alim və müəllimlərin mənəvi tərbiyə, vətənpərvərlik, ekoloji tərbiyə, estetik tərbiyə, milli adət və ənənələr, düzlük və doğruçuluq, əməyə, əmək adamlarına münasibət, qənaətcillik, mədəni davranış qaydaları, müəllim-şagird münasibətləri, ailə tərbiyəsi, özünütərbiyə və s. haqqında məqalələr dərc olunur.

Bu gün jurnalda pedaqoji kadrların peşə hazırlığının artırılmasına xüsusi diqqət yetirilir. Müəllimin pedaqoji hazırlığının zənginləşdirilməsinə, onların yeniliklərlə tanışlığına, ayrı-ayrı fənlər üzrə nəzəri hazırlığına, təhsil müəssisəsində psixoloji xidmətin elmi əsaslar üzrə təşkilinə dair məqalələr diqqəti cəlb edir.

Uşaqların sağlamlığının mühafizəsi daim diqqət mərkəzində olmuş, gün rejiminin fizioloji əsasları, şəxsi gigiyena, bədənin fiziki cəhətdən möhkəmləndirilməsi, yoluxucu xəstəliklərin profilaktikası məsələləri əhatə edilmişdir. Xüsusi məktəblərin problemləri də jurnalın nəzərindən kənarda qalmır. Jurnalın səhifələrindəki surdo, tiflo, oliqofren pedaqogika ilə əlaqədar məqalələr inklüziv təhsilin elmi əsaslar üzrə təşkilinə yaxından kömək göstərir.

Jurnalın səhifələrində görkəmli maarifpərvər, elm və incəsənət xadimləri Nəsirəddin Tusi, Mahmud Kaşğari, Tağı Şahbazi Simurq, Ömər Faiq

Nemanzadə, Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Hüseyn Cavid, Süleyman Sani Axundov, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Abdulla Şaiq, Üzeyir Hacıbəyov, Səməd Vurğun, Mir Cəlal, Mehdi Mehdizadə və başqaları haqqında yazılar müəllim və tərbiyəçilərimizi təhsilimizin, məktəbimizin, elmimizin, incəsənətimizin tarixi ilə tanış edir.

Jurnal oxucularını xarici ölkələrin pedaqoji fikir tarixinə dair məlumatlarla da tanış edir. «Yaponiyada məktəbəqədər tərbiyə", "Almaniya Demokratik Respublikasının məktəblərində", "Hollandiya və İngiltərədə təhsil", Lev Tolstoy, K.D.Uşinski, Y.A.Korçak və başqalarının pedaqoji fikirləri haqqında yazılar buna misal ola bilər.

40 il ərzində jurnalın 180 nömrəsi çap olunub. Bu dövrdə 850 çap vərəqi həcmində 2400 məqalə dərc edilmişdir. Məqalələr müxtəlif sahələri əhatə etmişdir: nəzəri məsələlərə dair 75, yeni pedaqoji texnologiyalara aid 49, məktəbəqədər təhsillə əlaqədar 435, fənlərin tədrisi və qabaqcıl təcrübə haqqında 929, tərbiyə məsələləri üzrə 311, psixologiya və defektologiya ilə əlaqədar 94, məsləhət - 129, uşaqlar üçün - 48, görkəmli sənətkarlar haqqında 36, tənqid və biblioqrafiyaya dair 45, digər məsələlər haqqında 249 məqalə.

Jurnalın rubrikaları vaxtaşırı dəyişmişdir. İndi daimi rubrikalar aşağıdakılardır: "Yeni pedaqoji texnologiyalar", "Məktəbəqədər təhsil", "Fənlərin tədrisi və qabaqcıl təcrübə", "Tərbiyə məsələləri", "Psixologiya və defektologiya", "Sizin kitab rəfiniz", "Bizim iş yoldaşlarımız", "Tənqid və biblioqrafiya", "Müdriklər demişlər". Bundan əlavə, vaxtaşırı "Nəzəri məsələlər", "Pedaqoji fikir tariximiz", "Müəllimin şəxsi təhsili", "Xaricdə təhsil", "Məsləhət", "Suallara cavab", "Sağlamlıq və gigiyena", "Mahnı töhfələri", "Gənc istedadlar", "Valideynlərin maarifi", "Dərslik problemi" rubrikalarına müraciət olunur.

Son illərdə jurnalda təlim rus dilində olan məktəblərin müəllimləri üçün də məqalələr dərc olunur.

Gələcəkdə jurnalda tərbiyəçi və müəllimlərin şəxsi təhsilinə, təlim məşğələlərinin, dərslərin, fakültativ kursların təşkilinə, müəllimlərin ilin müəllimi müsabiqəsinə hazırlanmalarına, dərsliklər və dərs vəsaitlərinin təhlilinə həsr olunmuş məqalələrə geniş yer veriləcəkdir.

Jurnalın ayrı-ayrı nömrələrinin təhsil müəssisələrində geniş müzakirəsinin keçirilməsi, irəli sürülən tənqidi qeydlər və təkliflər əsasında onun keyfiyyətinin yaxşılaşdırılması təxirəsalınmaz vəzifədir. Redaksiya heyəti çalışacaq ki, jurnal təhsil islahatının müvəffəqiyyətlə həyata keçirilməsi, Respublika Təhsil Nazirliyinin əmr və sərəncamlarına əməl olunması, məktəbəqədər və ibtidai təhsil sahəsində arzuların reallaşması, bütövlükdə təhsil sistemimizin çiçəklənməsi sahəsində ləyaqətlə fəaliyyət göstərsin. Bu, bizim amalımızdır.

**Y.Ş.Kərimov,**
jurnalın baş redaktoru

## «MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL» JURNALININ REDAKSİYA HEYƏTİNƏ

Hörmətli həmkarlar!

40 illik yubileyini qeyd etdiyimiz «Məktəbəqədər və ibtidai təhsil» jurnalı təhsil sisteminin ilkin pillələrində gənc nəslin təlim - tərbiyəsini dövlətin təhsil siyasətinin tələblərinə uyğun istiqamətləndirən, təhsilin təşkilini elmi əsaslar üzrə qurmağa xidmət göstərən dəyərli mətbu orqandır.

Keçən əsrin 70-ci illərində təhsil sistemində baş verən ciddi yeniliklərin həyata keçirilməsinə xidmət göstərmək, məktəbəqədər tərbiyə müəssisələri və ibtidai məktəbin fəaliyyətini elmi-nəzəri cəhətdən düzgün istiqamətləndirmək məqsədilə yaradılmış və «Azərbaycan məktəbi» jurnalının əlavəsi kimi fəaliyyətə başlamış bu mətbu orqan çox keçmədən gözlənilən missiyanı ləyaqətlə yerinə yetirdiyini sübut etdi.

Məktəbəqədər və ibtidai təhsil sahəsində irəli sürülmüş yeniliklər bu məcmuənin fəal işi ilə optimal həllini tapmışdır. Məcmuə yarandığı gündən ölkənin təhsil sistemində gedən islahatların elmi əsaslarla həllinə səfərbər olundu. Üçillik ibtidai təhsil sisteminə keçilməsi, altıyaşlıların məktəbə cəlb olunması, bu sahədə eksperimental tədqiqatın genişləndirilməsi, başdan başa altı yaşdan təlimə keçilməsi, beşgünlük tədris həftəsi üzrə təlimin təşkili və başqa problemlərin həllində məcmuə mühüm rol oynamışdır. On minlərlə təhsil işçisi bu məcmuədən bəhrələnərək məktəbəqədər yaşlı uşaqların və kiçikyaşlı məktəblilərin təlim-tərbiyəsini yüksək səviyyədə qura bilmişdir.

30 illik xidmətlərindən sonra məcməyə müstəqil jurnal statusu verildi.

Sonralar da məktəbəqədər və ibtidai təhsil sahəsində tez-tez baş verən islahatlar, təkmilləşmələr bu jurnalın fəal köməyi ilə təşkil olunmuş, optimal həllini tapmışdır. On minlərlə tərbiyəçi və müəllim bu jurnaldan bəhrələnərək məktəbəqədər yaşlı uşaqların, kiçikyaşlı məktəblilərin təlim-tərbiyəsini yüksək səviyyədə qura bilmişdir.

Bu gün jurnal tərbiyəçi və müəllimlərin hazırlığını artırmaq məqsədilə onları didaktikanın nəzəri problemləri, psixologiya, fiziologiya, sosiologiya, defektologiya, incəsənət, gigiyena ilə əlaqədar qiymətli biliklərlə silahlandırır. Bu prosesdə təhsil işçilərinin ümumi inkişafı təmin olunur.

Qabaqcıl təcrübənin öyrənilib ümumiləşdirilməsi, yayılması və yeni təcrübənin yaradılması sahəsində də jurnalın xidməti təqdirə layiqdir.

Bu gün jurnalın ən böyük xidməti bünövrəsi ümummilli liderimiz H.Əliyev tərəfindən qoyulmuş təhsil islahatının həyata keçirilməsində fəal iştirak etməsidir. Son illərdə jurnal təhsil standartlarının, ayrı-ayrı fənlərin kurikulumlarının mahiyyətinin açılması, yeni pedaqoji texnologiyaların, interaktiv təlim metodlarının, digər innovasiyaların həyata keçirilməsində xüsusi fəallıq göstərir.

Jurnalda dərc olunan elmi-nəzəri məqalələr təhsil işçilərinin yolunu işıqlandırdığı kimi, dərs və məşğələ nümunələri şəklində praktik yazılar onları düşünməyə, daha səmərəli vasitə və yollar araşdırmağa, yeni texnologiyaların həyata keçirilməsinə xidmət göstərən interaktiv metodlardan istifadə etməyə yönəldir

Hesab edirəm ki, möhkəm mənəvi-əxlaqi dəyərlərə söykənən, elmi-metodik ənənələrə əsaslanan və bacarıqlı redaksiya heyəti olan «Məktəbəqədər və ibtidai təhsil» jurnalı öz keçmişi ilə iftixar hissi keçirməklə yanaşı, bundan sonrakı fəaliyyətində də dövlətin təhsil siyasətinin uğurla həyata keçirilməsində və millətimizin, gələcək nəsillərin inkişafında öz imkanlarından daha səmərəli istifadə edəcəkdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollektivi və şəxsən öz adımdan jurnalın baş redaktoru, professor Yəhya Kərimovu, onun yaradıcı əməkdaşlarını təbrik edir, gələcək fəaliyyətlərində daha böyük uğurlar arzulayıram.

**Prof.Misir Mərdanov,**
təhsil naziri

## YENİ-YENİ UĞURLAR

«Məktəbəqədər və ibtidai təhsil» jurnalı respublikada nəşr olunan jurnallar arasında, xüsusən pedaqoji mətbuatda özünəməxsus yer tutmaqla mötəbər mövqeyə malikdir. Jurnalın öz səhifələrində işıqlandırdığı, dövrün tələbləri ilə səsləşən, elmi-metodik və praktik əhəmiyyətli, eyni zamanda nəzəri materialların yüksək səviyyəsinə, məktəbəqədər müəssisələrə, ibtidai sinif müəllimlərinə, məktəb rəhbərlərinə faydalılığına əsasən belə bir qənaətə gəlirik. Üstəlik jurnalın başında pedaqoji aləmdə öz dəsti-xətti və adı-sanı ilə tanınan əməkdar müəllim, Prezident təqaüdçüsü, Şöhrət ordenli, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor Yəhya Şəfi oğlu Kərimov durur. Onun dərin məntiqi, iti ağlı və təfəkkürü sayəsində redaksiyaya daxil olan məqalələr cilalandıqdan, necə deyərlər, ətə-qana dolduqdan sonra uşaq bağçasına, məktəbə, elmi-tədqiqat institutlarına, ali və orta ixtisas məktəblərinə ayaq açır.

Jurnalın təsis edilməsindən 40 il ötür. Qırxillik yol uğurlu olmuş, neçə-neçə məktəbəqədər müəssisə tərbiyəçisi, sinif müəllimi, təhsil işçilərinin fəaliyyətini istiqamətləndirməsində, işini dövrün tələbləri, məktəb islahatının qarşıya qoyduğu vəzifələr baxımından qurmasında, valideynin öz övladlarının təlim və tərbiyəsi ilə yaxından məşğul olmasında, tədqiqatçıların elmi araşdırmalarının təhsil ocaqlarına, uşaq bağçalarına çatdırılmasında rolu böyük olmuşdur.

«Məktəbəqədər və ibtidai təhsil» jurnalı «İbtidai məktəb və məktəbəqədər tərbiyə» adı altında «Azərbaycan məktəbi» jurnalına əlavə olaraq məcmuə kimi nəşrə başlamış, onun səhifələrində ibtidai təhsilin məzmununun təkmilləşdirilməsi, onun təşkili, üçillik ibtidai təhsilə keçilməsi, günüuzadılmış qruplarla iş, beşgünlük iş həftəsi şəraitində təlim, azkomplektli məktəblərdə işin təşkili, inkişafetdirici təlim, interaktiv metodlardan istifadə etməklə təlim prosesinin intensivləşdirilməsi, şagirdlərin idrak fəallığının və müstəqilliyinin artırılması, ümumtəhsil məktəbinin və uşaq bağçalarının idarə olunması, təlimin keyfiyyətinə nəzarət, pedaqoji diaqnostika və pedaqoji ekspertiza, şagird nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi, beşyaşlıların təhsilə cəlb edilməsi və s. kimi məsələlərə geniş yer verilmişdir.

Jurnalda tarixən ibtidai siniflərdə riyaziyyat, ana dili, musiqi, bədən tərbiyəsi, təsviri incəsənət, ətraf aləmlə tanışlıq fənlərinin proqramları, həmin fənlər üzrə dərslərin planlaşdırılması, ibtidai siniflərdə sinifdənxaric və məktəbdənkənar işlər,

kiçikyaşlı məktəblilərin təlim və tərbiyəsində məktəb və ailənin əlbir işi və s. kimi məsələlərə geniş yer ayrılmışdır. Bu problemlər indi də diqqət mərkəzində saxlanılır.

«Yeni pedaqoji texnologiyalar», «Məktəbəqədər tərbiyə», «Fənlərin tədrisi və qabaqcıl təcrübə», «Tərbiyə məsələləri», «Psixologiya və defektologiya məsələləri», «Müəllimlərin şəxsi təhsili», «Tənqid və biblioqrafiya», «Proqram materaillarının planlaşdırılması», «Bizim iş yoldaşlarımız», «Pedaqoji təhsil ocaqlarımız», «Məktəbşünaslıq», «Rəsmi şöbə», «Sinifdənxaric oxu materialları» və s. rubrikalar altında verilən materiallar oxucuların maraq dairəsini əhatə edir.

«Məktəbəqədər və ibtidai təhsil» jurnalının yaradıcı kollektivini və baş redaktoru professor Yəhya Kərimovu jurnalın 40 illik yubileyi münasibətilə təbrik edir, onlara öz fəaliyyətlərində yeni-yeni uğurlar arzulayırıq! İnanırıq ki, jurnal gələcəkdə də, məktəbəqədər müəssisələri tərbiyəçilərinin, sinif müəllimlərinin, təhsil işçilərinin və tədqiqatçıların, sevimli jurnalı olacaqdır!

**Abdulla Mehrabov,**

Azərbaycan Respulikası Təhsil Problemləri İnstitutunun direktoru, Rusiya Dövlət Təhsil Akademiyasının həqiqi üzvü, professor;

**Akif Abbasov,**

Azərbaycan Respulikası Təhsil Problemləri İnstitutunun elmi katibi, Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, professor

## TƏBRİK EDİRƏM

"Məktəbəqədər və ibtidai təhsil" jurnalı nəşrə başladığı 1970-ci ildən bu günə qədər öz faydalı fəaliyyəti ilə şərəfli yol keçmişdir. Jurnalın bundan sonra da ibtidai sinif müəllimlərinin pedaqoji-metodik köməkçisi funksiyasını əzmlə daşıyacağına inanıram.

"Məktəbəqədər və ibtidai təhsil"in "Azərbaycan məktəbi" jurnalına əlavə olaraq məcmuə kimi nəşrə başlamasının şahidlərindən biri də mənəm. 1974-1981-ci illər arası "Azərbaycan məktəbi" jurnalının baş redaktoru olarkən məcmuənin məzmunu, tərtibatı, müəllimlər (oxucular) arasında yayılması ilə daha yaxından maraqlanmalı oldum. Uşaq bağçalarında çalışanlar, ibtidai məktəbdə işləyənlər məcmuənin hər sayını intizarla gözləyirdilər. Məcmuə ildə 6 dəfə nəşr olunurdu, hər buraxılışının sayı azı 25 min nüsxə olurdu.

Uşaq bağçalarında çalışanlar ibtidai məktəbdə işləyənlər məcmuənin hər sayını intizarla gözləyirdilər. Tərbiyəçilər, müəllimlər, təhsil rəhbərləri və tədqiqatçı alimlər bu avanqard pedaqoji mətbuatın müntəzm oxucuları idilər, çünki pedaqoji mətbuatda elmi-texniki tərəqqinin, cəmiyyətin tələblərinə uyğun, təlim-tərbiyə işinin yüksəldilməsinə kömək edən, o vaxtın yeniliklərini təhsil işçilərinə çatdıran məqalələr çap edilirdi. Çox təəssüf ki, hazırda müəllimlərin, təhsil işçilərinin mütaliəsi aşağı səviyyədədir. Ona görə də istər digər pedaqoji jurnalların, istərsə də artıq müstəqil orqan olan "Məktəbəqədər və ibtidai təhsil" jurnalının tirajı çox azdır.

Bu jurnalın təşəkkülü, 40 illik ömrü, inkişafı, formalaşması professor Yəhya Kərimovun adı ilə bağlıdır. Bu, onun məktəbəqədər və ibtidai təhsilə, kiçikyaşlı uşaqların tərbiyəsinə və inkişafına məhəbbətinin təzahürüdür.

"Məktəbəqədər və ibtidai təhsil" jurnalının 40 illik fəaliyyəti məktəbəqədər və ibtidai təhsilin inkişaf tarixini əks etdirir.

Fəaliyyətinin 40 illiyi münasibətilə "Məktəbəqədər və ibtidai təhsil" jurnalının yaradıcı heyətini, oxucularını, onun baş redaktoru professor Yəhya Şəfi oğlu Kərimovu səmimiyyətlə təbrik edir, fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıram.

**Əjdər Ağayev,**
Azərbaycan Təhsil Şurasının sədri,
pedaqoji elmlər doktoru, professor

## « MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL» JURNALININ REDAKSİYASINA

Hörmətli həmkarlar!

XX əsrin dörddə biri qədər müddətdə «Azərbaycan məktəbi» jurnalının çeşməsindən su içərək, qidalanmış və qol-qanad açıb onun qoynundan pərvazlanmış «İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsi müstəqil fəaliyyətə başladığı vaxtdan mətbuat aləmində layiqli yerini tutmuş, zaman keçdikcə elmi-nəzəri, pedaqoji-metodik məqalələri ilə nüfuzlu jurnala çevrilmişdir.

Yaxşı xatırlayırıq... Ötən əsrin 70-80-cı illərində ibtidai sinif müəllimləri, tərbiyəçilər, həmçinin digər təhsil işçiləri bu jurnalın hər bir nömrəsini səbirsizliklə gözləyir, onda yaradıcı meyillər, yeniliklər axtarırdılar. «Azərbaycan məktəbi»nin qaranquşlarından biri olan bu jurnalın fəaliyyəti ilk növbədə onun redaktoru, pedaqoji elmlər doktoru, professor Yəhya Kərimovun adı ilə bağlıdır. Onun bilavasitə rəhbərlik etdiyi ibtidai təhsilin üçillik və ya dördillik olmasına, təhsilə 7, yoxsa 6 yaşdan başlanmasına dair mübahisəli müzakirələrdə ən düzgün, etibarlı, orijinal fikirlər, əsasən, bu məcmuənin səhifələrindən eşidilirdi. İllər keçdikcə məcmuə öz tarixi yerini daha da möhkəmləndirmiş, sələflərinin durduğu səviyyəyə qalxmış, onun haqqında məqalələr dərc olunmuş tədqiqat aparılaraq dissertasiya yazılmışdır. Jurnalın yaxşı işi hələ o zamanlar dəfələrlə nazirliyin kollegiyasında qeyd edilmişdir.

«Azərbaycan məktəbi» bu gün sizin jurnalın yubileyinə ən çox sevinən mətbuat orqanıdır. Jurnalınızın səhifələrində bizim sələflərimiz olan «Əkinci», «Məktəb», «Rəhbər», «Yeni məktəb», «Xalq maarifi» jurnallarındakı milli-mənəvi dəyərləri tez-tez yada salınmışdır. Əlbəttə, bunlar jurnalın baş redaktorunun, redaksiya heyətinin çox böyük zəhməti sayəsində mümkün olmuşdur.

O da əhyəmiyyətlidir ki, müstəqillik illərində jurnal öz mövqeyini əldən vermədi. Dövlətimizin təhsil siyasətinə sədaqətlə xidmət edən jurnal öz simasını qoruyub saxladı. Milli kurikulumun tətbiq edildiyi hazırkı dövrdə təhsil islahatının bütün mərhələlərində o, həmişə olduğu kimi, müəllimlərin ən yaxın köməkçisi mövqeyindən çıxış edir.

İllər keçir, ənənələr xatırlanır, yeni pedaqoji innovasiyalar meydana çıxır,

jurnal isə bu tələblərlə ayaqlaşmaq üçün əzmlə çalışır. Bu da bir həqiqətdir ki, bu pedaqoji jurnalın uzunömürlülüyü təhsilimizin rəmzi kimi qalacaqdır.

Hörmətli redaksiya!

Təhsil Nazirliyinin qayğısı ilə pedaqoji mətbuatımız öz mətinləşmə, püxtələşmə prosesini yaşayır. Cərgəmizə yeni jurnallar da qoşulur. Təhsilimizin aynası olan mətbuatımız yeni keyfiyyətlər kəsb edir, zamanın nəbzi ilə döyünür. Bu isə daha səylə çalışmaq üçün qarşıya yeni vəzifələr qoyur, yaradıcılıq ənənələrinin inkişafına geniş imkanlar açır. Beləliklə, ali məqsədimiz olan təhsilimizin inkişafı, onun parlaq gələcəyinin sarsılmaz amalı kimi həyatımızın mənasını təşkil edir.

Sizə bu məsul və şərəfli işdə uğurlar arzulayırıq. Təhsilimizin dünyaya yol açan naliyyətlərini işıqlandırmaq üçün mövcud imkanlardan səmərəli istifadə etməyinizi diləyirik.

Hörmətlə!

**Nəcəf Nəcəfov,**
"Azərbaycan məktəbi" jurnalının baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru,əməkdar müəllim, AJB-nin üzvü, akad. M.Mehdizadə adınamükafatın laureatı

## HÖRMƏTLİ REDAKSİYA!

İlk nömrəsinin çapdan çıxmasının 40 ili tamam olan «Məktəbəqədər və ibtidai təhsil» jurnalının redaksiya heyətini və bütün oxucularını təbrik etməkdən məmnunam. Keçən 40 il ərzində bu jurnal neçə-neçə nəsillərin stolüstü mətbu orqanı olmuş, yüzlərlə, minlərlə deyil, milyonlarla uşağın təlim-tərbiyəsinə düzgün istiqamət verən bir mənbəyə çevrilmişdir.

Məktəbəqədər tərbiyə müəssisələrinin tərbiyəçiləri və sinif müəllimlərini maarifləndirən, təhsilin ilk pillələrinin fəaliyyətinə istiqamət verən bu jurnal hansı köklər üzərində baş qaldırmışdır?

Keçən əsrin əvvəllərində, 1911-ci il, noyabr ayının 29-da «Məktəb» jurnalının ilk nömrəsinin çapdan çıxması ilə Azərbaycan pedaqoji mətbuatı tarixinə ilk elmi-pedaqoji, ədəbi-bədii, demokratik istiqamətli bir jurnal kimi daxil olmuş, pedaqoji ictimaiyyəti sevindirmişdir.

«Məktəb» jurnalının tarixi bir xidməti də ondadır ki, bu jurnal sonralar respublikamızda milyonların tribunası olan pedaqoji istiqamətli yeni-yeni qəzet və jurnalların nəşrində ana rolunu oynadı. Jurnalın naşiri və ilk redaktoru tanınmış maarifçi, Azərbaycan coğrafiyaşünası Qafur Rəşad (1834-1943) idi. Sonralar jurnal Ə.Əfəndizadənin redaktorluğu ilə nəşr edilmişdir. Jurnalın ətrafına dövrün tanınmış şəxsiyyətləri, o cümlədən H.Zərdabi, M.Ə.Sabir, S.S.Axundov, Ü.Hacıbəyov, A.Şaiq, A.Səhhət, C.Cabbarlı və b. maarifçilər, şair və yazıçılar toplaşmışdı.

Çox xarakterikdir ki, jurnalın ilk nömrəsi dövrünün məşhur müəllim və yazıçısı, həkim və publisisti Nəriman Nərimanovun «Əziz balalar» adlı məqaləsi ilə oxucuların görüşünə gəlmişdir. Həmin məqalədə deyilirdi: «Əziz balalar! Biz gedən yol, ... daşlı,

torpaqlı, iri tikanlar ilə səpilmiş olarkən, Sizin həyatınızın yolu işıqlı, təmiz, yumşaq görünür».

N.Nərimanovun 100 il bundan əvvəl söylədiyi bu fikir bu gün təkzibolunmaz bir həqiqətə çevrilmiş, milyonlarla uşaq təhsillə əhatə edilmişdir. «Məktəbəqədər və ibtidai təhsil» jurnalı məhz bu balaların təhsili ilə əlaqədar pedaqoji ictimaiyyat arasında təbliğat aparmış, tərbiyəçi və sinif müəllimlərinin biliklərinin, elmə, təhsilə, marağın artmasında, dünyagörüşünün formalaşmasında və genişlənməsində, həmçinin uşaqlarda müsbət əxlaqi keyfiyyətlərin tərbiyə edilməsində böyük rol oynamışdır.

40 illik yubileyi ərəfəsində «Məktəbəqədər və ibtidai təhsil» jurnalının yaradıcı heyətinə və onun səriştəli redaktoruna, - dövrümüzün tanınmış jurnalisti, elmlər doktoru, professor, akademik, əməkdar müəllim, saçını-saqqalını bu işdə ağardan qələm dostumuz Yəhya Kərimova fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

Hörmətlə!

**Hüseyn Əhmədov,**
akademik

## İŞIQLI İLLƏRİN FƏRƏHİ

«Məktəbəqədər və ibtidai təhsil» jurnalı həmişə özünün praktik effektləri ilə seçilir. Əsrin istər məktəbəqədər, istərsə də ibtidai təhsil təcrübəsinin uğurları ilə tərbiyəçi və müəllimlərin böyük bir nəsli məhz bu nüfuzlu jurnalın səhifələrində tanış olmuşlar. Jurnal özünün 40 illik şərəfli ömründə respublikamızda məktəbəqədər və kiçikyaşlı məktəbli dövrünün aktual pedaqoji və psixoloji məsələlərini sistemli açıqlamış, əhəmiyyətli psixoloji və pedaqoji axtarışların fundamental salnaməsi olmuşdur.

Bu gün jurnalın səhifələrində onun 40 illik tarixinin yeni problemi -Azərbaycan təhsil təcrübəsinin kurikulum problemi məharətlə işıqlandırılır. Taksonomiya konsepsiyasının təhlili də jurnalın əhəmiyyətli axtarışları çərçivəsində diqqəti cəlb edir. Jurnalın səhifələrində defektologiya problemlərinin işıqlandırılması sevindirici haldır. Jurnalda istedadlı uşaqlar problemi əsrin aktual problemi kimi dəyərləndirilir. Jurnalın ekoloji tərbiyə sahəsində axtarışları da maraqlıdır.

Jurnalın 2010- cu il 23- cü nömrəsi dövrün əzəmətli insan problemi konsepsiyası olan «Hər bir şagird diqqət mərkəzində olmalıdır» özünəməxsus pisixoloji və pedaqoji konsepsiya ilə başlanır. Jurnal özünün 40 illik təcrübəsində formalaşmış fundemental psixoloji və pedaqoji konsepsiyasını bu gün uğurla həyata keçirir.

Mən 40 yaşlı jurnalın redaksiya heyətini və oxucularını, onun XX əsr Azərbaycan təhsilinin əzəmətli «Əlifba» salnaməsini qızıl hərflərlə yazmış baş redaktoru professor Y.Ş.Kərimovu ürəkdən təbrik edir, respublikanın təhsil quruculuğunda xüsusi yeri olan qiymətli elmi-metodik jurnalın yaradıcı heyətinə böyük uğurlar arzulayıram.

Hörmətlə!

**Ə.Ə.Əlizadə,**
psixologiya elmləri doktoru, professor.

## SEVİNİRƏM, TƏBRİK EDİRƏM!

Pedaqoji mətbuat tariximizdə özünəməxsus yeri olan jurnallardan biri də "Məktəbəqədər və ibtidai təhsil"dir. Bu jurnal uzun illər "İbtidai məktəb və məktəbəqədər tərbiyə"adı ilə işıq üzü görmüş, müəllimlərin, tərbiyəçilərin, təhsil təşkilatçılarının stolüstü vəsaiti olmuşdur. Onun nəşrə başlamasından nə az, nə çox, düz 40 il keçir. Sevinirəm ki, mən bir zamanlar 15-ilə yaxın jurnalın redaktor müavini olmuşam. Bu, o zamanlar idi ki, "Azərbaycan məktəbi" jurnalında məsul katib vəzifəsinin icraçısı idim: "İbtidai məktəb və məktəbəqədər tərbiyə" də onun 8 əlavəsindən biri idi. Onu çox hörmətli professor Yəhya Kərimovla birlikdə nəşrə hazırlayırdıq. Getdikcə tirajı 28 mini keçən bu jurnal nüfuzlu mətbuat orqanına çevrilirdi.

"İbtidai məktəb və məktəbəqədər tərbiyə" metodik məcmuə statusu daşısa da, o, oxucuların nəzərində əsl jurnal səviyyəsində idi, çünki onun səhifələrində çoxsaylı rubrikalar altında rəngarəng materiallar verilirdi. Təbii ki, əhatə dairəsi təhsil sahəsi olmaqla, jurnalistikanın oçerk, müsahibə, reportaj, tənqid kimi fəal janrlarından da istifadə edilir, şeirlər, hekayələr, yumorlar və s. verilirdi. Bunun da bir neçə səbəbi var: Y. Kərimovun redaktor kimi yüksək səriştəliliyi, hərtərəfli hazırlığı, yaradıcı qabiliyyətə malik olması, elmi-tədqiqat institutunun şöbə müdiri, az sonra direktor müavini olmasına baxmayaraq bu işə məsuliyyətlə yanaşması, mənim də ixtisasca jurnalist olmağım, bədii yaradıcılığa maraq göstərməyim.

Yəhya müəllimlə mənim, necə deyərlər, əməkdaşlıq, dostluq etməyi bacarmağımız da əsas səbəblərdən sayılmalıdır. Biz ikilikdə bu qədər ağır bir jurnalı yorulmadan ildə 6 dəfə çapa hazırlayırdıq. Bunun müqabilində biz əmək haqqı yox, qonorar alırdıq ki, bu da gördüyümüz işin müqabilində cüzi bir şey idi. Bizi maraqlandıran iş idi ki, ona da böyük həvəsimiz və tükənməz enerjimiz vardı. Jurnalın təhsilimizin qarşısındakı əvəzsiz xidmətlərini dərk etdikcə ona məhəbbətimiz daha da artır, yorulmaq nədir, bilmirdik.

Bəli, mən yubileylə əlaqədar ürəkdən sevinir, əməyimi onun oxucularına halal edirəm. Sağ olsun dövlətimiz ki, onu dəyərləndirir və qoruyur. Sağ olsun Yəhya müəllim ki, ona əvvəlki məhəbbətlə həyat verir!

**Məhəmməd Baharlı,**
"Azərbaycan dili və ədəbiyyatı tədrisi"jurnalının baş redaktoru

## "MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL" JURNALININ REDAKSİYASINA

Hörmətli Yəhya müəllim!

1970-ci ildən "Azərbaycan məktəbi" jurnalına əlavə kimi nəşr olunan "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsi Sizin rəhbərliyinizlə öz ətrafına pedaqoji ictimaiyyətin qabaqcıl nümayəndələrini, tanınmış pedaqoq-alimləri, praktik müəllimləri toplamış, məktəblərdə və məktəbəqədər tərbiyə müəssisələrində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinə güclü təsir göstərmiş, maraqlı təşəbbüslərin müdafiəsinə, təhsil sistemində novatorluğun, yeni ideyaların təbliğinə xidmət etmişdir. Məcmuə böyüməkdə olan nəslin etik-estetik, əxlaqi-mənəvi, fiziki və əmək tərbiyəsinin yaxşılaşdırılması,

təkmilləşdirilməsi istiqamətində mühüm işlər görmüşdür. Böyük zəhmət və əziyyət hesabına nəşrinə nail olduğunuz bu məcmuə məktəbə nəzəri və praktik kömək göstərməsəydi, tərbiyə işində yüksək təşkilatçılıq və təbliğatçılıq rolu oynamasaydı gənc nəslin təlimi və tərbiyəsini lazımi səviyyədə qurmaq, təkmilləşdirmək çətin olardı.

İndi "Məktəbəqədər və ibtidai təhsil" adı ilə nəşr olunan jurnalda 40 il tanınmış görkəmli pedaqoq-alimlər, məktəb direktorları, pedaqoji əməyin ustaları olan müəllimlər, metodistlər, təhsil işçiləri çıxış etmiş, pedaqogika elmini zənginləşdirən maraqlı ideyalar, nəzəri fikirlər irəli sürmüş, məktəbin yenidən qurulmasının mühüm problemlərini müzakirə etmiş, elmi diskussiyalar açmışlar. Məcmuədə məktəb rəhbərlərinin işinin xüsusiyyətləri, şagird özünüidarəsinin inkişafı, məktəb həyatının demokratikləşdirilməsi kimi problemlər də geniş işıqlandırılmışdır. Müasir dövrümüzdə qabaqcıl təcrübənin öyrənilməsində, ölkədə uğurla həyata keçirilən təhsil islahatlarının əsas ideyalarının pedaqoji ictimaiyyətə çatdırılmasında, jurnalın mühüm xidmətləri vardır.

Hörmətli Yəhya müəllim, etiraf edək ki, baş redaktoru olduğunuz jurnalın nəşri və inkişafı birbaşa Sizin adınız və çoxsahəli fəaliyyətinizlə bağlıdır. Bu istiqamətdə fəaliyyətinizdə Sizə uğurlar və nailiyyətlər arzulayıram.

Hörmətlə!

**Fərrux Rüstəmov,**
ADPU-nun pedaqoji fakültəsinin dekanı,
Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor

## ÇOX HÖRMƏTLİ YƏHYA MÜƏLLİM!

Sizi «Məktəbəqədər və ibtidai təhsil» jurnalının 40 illik yubileyi münasibətilə təbrik edir, Sizə fəaliyyətinizdə uğurlar, elmi-metodik jurnalınıza uzun ömürlülük və nailiyyətlər arzulayıram.

Sizin rəhbərliyiniz ilə nəşr olunan bu jurnal uzun illərdir ki, təhsilimizin bünövrəsi sayılan məktəbəqədər və ibtidai təhsil işçilərinin elmi-metodik və pedaqoji səviyyəsinin yüksəldilməsi istiqamətində böyük praktik iş görür. Jurnalın səhifələrində öz əksini tapmış dəyərli yazılarda təhsilimizin keçmişi,bu günü və gələcəyi,mövcud problemlərimizin həlli yolları,qabaqcıl təcrübənin öyrənilib yayılması diqqət mərkəzində saxlanılır.

Jurnalın səmərəli fəaliyyəti bir daha onu sübut edir ki,müstəqil Azərbaycanımızın sosial-mədəni həyatının bütün sahələrində olduğu kimi, təhsil sahəsində də müvəffəqiyyətlə həyata keçirilən islahatlar nəticəsində əsaslı keyfiyyət dəyişiklikləri üçün zəmin yaranmışdır. Təhsil sistemində aparılan köklü dəyişikliklər, zəncirvari problemlərə kompleks yanaşmalar, onların aradan qaldırılması üçün yeni iş formaları, demokratik cəmiyyətin tələblərinə müvafiq iş metodlarından istifadə olunması diqqət mərkəzində saxlanılmışdır.

Sizin bu jurnalda xüsusi əhəmiyyət verdiyiniz pedaqoji yanaşmalardan bir daha aydın olur ki,təhsildə yaradıcı düşünən,müstəqil mühakimə yürüdə bilən, demokratik dünyagörüşə malik şəxsiyyət formalaşdırmaqda yeni təlim

texnologiyalarından istifadə mühüm rol oynayır. Təhsildə innovasiyalara, metodik yeniliklərə fəal yanaşan kollektivimizin müəllim və tələbə heyəti jurnalınızı sevə-sevə oxuyur,qabaqcıl təcrübənin öyrənilib yayılmasına maraq göstərir.

İnanırıq ki, təhsilimizin görkəmli siması kimi Sizin rəhbərliyiniz altında jurnalınızın kollektivi ölkənin məktəbəqədər və ibtidai təhsil müəssisələri üçün gənc mütəxəssislərin hazırlanmasında inamla fəaliyyət göstərəcək, uğurlu nailiyyətlər əldə edəcəkdir.

Bu yolda şəxsən Sizə və jurnalın kollektivinə Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllim və tələbə heyəti adından böyük uğurlar diləyir, 40 illik yubileyinizi təbrik edir, bundan sonra da üzün illər, səmərəli fəaliyyət arzulayırıq.

Dərin ehtiram və səmimiyyətlə!

**Nurlana Əliyeva,**
Azərbaycan Dövlət Pedaqoji Kollecinin
direktoru, YAP QadınlarŞurasının sədri,
filologiya elmləri doktoru, professor

## 40 İLİN MƏSLƏHƏTDAŞI VƏ YOL GÖSTƏRƏNİ

Bəli, sinif müəllimlərinin, habelə ümumtəhsil məktəblərində və məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçilərin məsləhətdaşı, yol göstərəni sayılan «İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcuməsinin nəşrə başlamasının 40 ili tamam oldu. Məcmuə məktəb və təhsil tariximizin müxtəlif islahatlarla əlamətdar olan mərhələlərində şərəfli ömür yolu keçib, gəldi bu günümüzə.

1970-ci ildə «Azərbaycan məktəbi» jurnalına əlavə kimi nəşrə başlayan məcmuəyə, məktəbəqədər və ibtidai təhsil sisteminin nəzəri əsaslarının mahir bilicisi professor Yəhya Kərimov redaktor təyin olundu. Məcmuənin sonrakı nailiyyətləri göstərdi ki, seçim düzgün müəyyən edilmişdir. Məcmuə elə ilk nömrələrindən müxtəlif kateqoriyadan olan təhsil işçilərinin, bütövlükdə pedaqoji ictimaiyyətin rəğbətini qazandı. Hər nömrəsi əl-əl gəzdi, oxundu, sevildi.

Təhsil tariximizdə şərəfli yer tutan, 2000-ci ildən müstəqil jurnal kimi fəaliyyətini davam etdirən və hazırda «Məktəbəqədər və ibtidai təhsil» adı ilə çoxsaylı oxucularının görüşünə gələn mətbu orqanın ilk müəlliflərindən biri kimi bu gün sevincimin həddi-hüdudu yoxdur. İbtidai sinif şagirdlərinin musiqi-estetik tərbiyəsinin inkişafına istiqamətlənən məqaləm düz 40 il bundan əvvəl dərc olundu. Həmin dövrdə jurnal üçillik ibtidai təhsil sisteminə keçilməsi ilə əlaqədar böyük işlər görürdü. Az vaxt içərisində əli qələm tutan, dəyərli fikir və mülahizələrini məktəbəqədər tərbiyə ilə məşğul olan tərbiyəçilərə, həmçinin sinif müəllimlərinə çatdırmaq istəyən təcrübəli mütəxəssislər, tanınmış alimlər, gənc aspirant və dissertantlardan ibarət redaksiya və müəlliflər heyəti formalaşdı.

Bu gün məcmuənin ötən illərdə buraxılan və təhsil tariximizin salnaməsinə çevrilən nömrələrinə diqqət yetirdikdə görürük ki, o, zəngin ənənələrə əsaslanan, şərəfli yol keçilmişdir. Rəngarəng rubrikalarla çap olunan məcmuə

respublikamızda məktəbəqədər təlim və ibtidai təhsilin elmi-pedaqoji əsaslarda inkişafına, müasir tələblər səviyyəsində formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Bunun nəticəsi idi ki,o vaxtlar məcmuənin müəllimləri, tərbiyəçiləri, məktəb rəhbərlərini əhatə edən 28 min nəfərədən artıq abunəçisi olub.

Ötən əsrin 70-80-cı illərində məcmuədə nəşr edilən məqalələrdən bəhrələnən tərbiyəçilər, sinif müəllimləri, təhsil sisteminin rəhbər işçiləri yaradıcılığa meyl etməklə, öz yazıları ilə jurnalın hər nömrəsinin daha məzmunlu, günün tələblərinə cavab verən bir səviyyədə nəşrinə zəmin yaratmışlar.

Yurnalın keçdiyi 40 illik şərəfli jola nəzər saldıqda görürük ki, bu mötəbər mətbu orqanı respublikamızda elmi-pedaqoji kadrların hazırlanmasına da güclü təsir göstərmişdir. Bu gün respublikamızda və keçmiş SSRİ məkanında tanınan neçə-neçə pedaqoq-psixoloq, metodist alimin yetişməsində jurnalın çox böyük rolu olmuşdur.

Jurnalın redaksiya heyətinin üzvü, 40 illik staja malik olan müəllifi kimi etiraf edirəm ki, ibtidai təhsilin elmə əsaslanan sirlərini öyrənməyimdə, pedaqoq alim kimi formalaşmağımda jurnalın güclü təsiri olmuşdur. Jurnalda 50-dən artıq elmi-metodik məqaləmin nəşrinə görə də baş redaktor, professor Y.Ş.Kərimova və jurnalın redaksiya heyətinə minnətdarlığımı bildirirəm.

Respublikamızda məktəbəqədər və ibtidai təhsil sisteminin inkişafında, formalaşmasında mötəbər mənbəyə çevrilən yubilyar jurnalımızın mövqeyi çox böyükdür. Təsadüfi deyildir ki, tanınmış jurnalist Zemfira Məhərrəmli 2003-cü ildə «İbtidai məktəb və məktəbəqədər tərbiyə məcmuəsində tərbiyə problemi» mövzusunda namizədlik dissertasiyası yazaraq pedaqoji elmlər namizədi alimlik dərəcəsi aldı. Ədalət naminə deyək ki, məktəbəqədər və ibtidai təhsilin, habelə bu kontekstdə təlim-tərbiyə məsələlərinin tədqiqinə həsr olunan namizədlik, doktorluq dissertasiyaları müdafiə edən alimlər doğma jurnalın yaradıcı heyətinə və onun baş redaktoru, pedaqoji elmlər doktoru professor, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü Yəhya Şəfi oğlu Kərimova dərin minnətdarlıqlarını bildirirlər. Mən də onlarla həmrəyəm.

Qəlbimdən bir arzu keçir: kaş möcüzə baş verəydi, jurnalda imzası olan müəlliflər sıraya düzlənəydi, onda doğma jurnalımızın nəyə qadir olduğu bir daha parlaq şəkildə nəzərə çarpardı.

50 illik yubileyində görüşənədək, əziz, doğma jurnalımız!...

**Vidadi Xəlilov,**
ARTPİ məktəbəqədər və ibtidai təhsil
şöbəsinin müdiri, əməkdar müəllim,
pedaqoji elmlər doktoru, professor

## "MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL" JURNALININ BAŞ REDAKTORU YƏHYA KƏRİMOVA

Hörmətli Yəhya müəllim!

Rəhbərlik etdiyiniz "Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalının 40 illik yubleyi respublikamızın pedaqoji ictimaiyyəti tərəfindən geniş miqyasda qeyd

olunduğu kimi, Elitar Gimnaziyanın pedaqoji kollektivi tərəfindən də rəğbətlə qarşılanır. 40 illik fəaliyyətində bu elmi-pedaqoji jurnal təhsilin məktəbəqədər və ibtidai təhsil pillələrində təhsil sisteminin yeniləşməsində, təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsində mütərəqi metodları təbliğ etmiş, yetişməkdə olan gənc nəslin milli adət-ənənələr ruhunda tərbiyə olunmasında, bütövlükdə təhsilin milli zəmin və bəşəri dəyərlər üzərində qurulmasında əldə edilən qabaqcıl təcrübənin yayılmasına lazımi səviyyədə kömək göstərmiş, müəllimlərə istiqamət vermişdir.

Respublikamızda ibtidai təhsil üzrə eksperimental tədqiqatların, xüsusilə, ilk dəfə bizim məktəbimizdə sınaqdan keçirilmiş beşyaşlılarla təlimin gedişi və nəticələri haqqında məqalələr məktəbimizdə böyük rezonans yaratmışdır. Bir qayda olaraq, yeni tipli uşaq bağçaları və körpələr evlərinin tərbiyəçilərinin, ibtidai təhsil sahəsində yenilikçi müəllimlərin yaradıcı təcrübəsini müntəzəm öz səhifələrində işıqlandıran "Məktəbəqədər və ibtidai təhsil" jurnalı pedaqogika, psixologiya elmlərinin naliyyətlərinin praktikada tətbiqi, klassik pedaqoji fikir və məktəb tariximizin tədqiqi və öyrədilməsi məsələlərinə dair nəzəri-pedaqoji yazıların dərc olunmasına daim qayğı göstərməklə Azərbaycan məktəbinə xidmət vəzifəsini ləyaqətlə yerinə yetirmişdir.

Hörmətli Yəhya müəllim!

Elitar Gimnaziyanın rəhbərliyi pedaqoji kollektivi baş redaktoru olduğunuz "Məktəbəqədər və ibtidai təhsil" jurnalının 40 illik yubleyi münasibətilə Sizi və onun yaradıcı heyətini ürəkdən təbrik edir və gələcək fəaliyyətində uğurlar arzulayır.

Hörmətlə!

**S.Q.Quliyeva,**
İ.Əfəndiyev adına Elitar Gimnaziyanın direktoru

## УВАЖАЕМЫЙ КОЛЛЕКТИВ ЖУРНАЛА «MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL»

Коллектив Классической Гимназии №160 Сабаильского района г.Баку от души поздравляет Вас с 40-летним юбилеем журнала!

На протяжении 40 лет Ваш журнал по крупинкам собирает и распространяет лучший и передовой опыт учителей начальных классов и воспитателей детских садов нашей страны, являясь их надежным помощником, проводником новых идей, большим подспорьем в их таком нужном и таком нелегком труде.

40 лет журнал верно и честно служит делу национального просвещения. Десятки тысяч азербайджанских воспитателей и учителей всегда ждут с огромным нетерпением и большим интересом Ваши публикации.

Особо нам хочется поздравить большого друга нашей гимназии, главного редактора журнала, доктора педагогических наук, профессора, незаменимого и неповторимого Керимова Яхья муаллима – автора многочисленных изданий национальной «Азбуки», по которой учились читать десятки поколений граждан нашей Республики, а в последние 20 лет - граждан независимого Азербайджана. Ведь именно он, образно говоря, душа журнала-юбиляра!

В нынешнее время, когда наша страна развивается высокими устойчивыми темпами и в Азербайджане огромное внимание уделяется образованию, празднование 40-летнего юбилея журнала «Məktəbəqədər və ibtidai təhsil» приобретает особый смысл, ведь именно дошкольное образование и начальная школа – это фундамент, база, на которой строится все дальнейшее образование и развитие новой личности – гражданина независимого Азербайджанского государства.

**Фаина Алекперова,**
Директор Классической Гимназии
№160, заслуженный учитель

## 40 YAŞIN MÜBARƏK

Artıq 40 ildir ki, «Məktəbəqədər və ibtidai təhsil» jurnalı Azərbaycan təhsilinin xidmətindədir. Onun səhifələrində nəşr olunan yüksək səviyyəli elmi-metodik məqalələr və təcrübi ümumiləşdirmələr istər məktəbəqədər tərbiyə işçilərinin, istərsə də ibtidai sinif müəllimlərinin nəzəri hazırlığının yüksəldilməsində, peşə bacarıqlarının günün tələblərinə uyğun şəkildə formalaşmasında mütəsna rol oynayır.

Azərbaycan pedaqoji fikrinin zənginləşməsində ayrıca mərhələ təşkil edən məcmuənin fəaliyyəti yüzlərlə tərbiyəçinin, sinif müəlliminin, gənc alimin, metodistin, tanınmasına imkan yaratmış, adını şöhrətləndirmişdir.

Amalı, yönümü təhsilimizin daha da rövnəqlənməsinə istiqamətlənmiş jurnal həm də körpə fidanlarımızın sağlamlığını və intellektual hazırlığını təmin etmək məqsədilə müasir pedaqoji-psixoloji baxışların geniş yayılmasına diqqət yetirir, məktəbəqədər təhsil müəssisələrinin işinin düzgün qurulmasına əvəzsiz töhfəsini verir.

Ən dəyərli fakt odur ki, bu elmi-metodik jurnalda uşaq bağçalarında təlim və tərbiyə işi ilə bağlı olduqca maraqlı, düşündürücü və faydalı məqalələr müntəzəm dərc edilir.

Bir əməkdar müəllim kimi mən və rəhbərlik etdiyim uşaq bağçasının pedaqoji kollektivi jurnalda çıxan elmi-metodik məqalələri müntəzəm izləyir və iş təcrübəmizdə yeri gəldikcə tətbiq edirik. Jurnal mənim bir rəhbər kimi fəaliyyətimə istiqamət verir. Həmkarlarımızla qazandığımız təcrübəni bölüşmək məqsədilə jurnalda çıxış edirik.

Jurnalın baş redaktoru və redaksiyasının əməkdaşlarına möhkəm can sağlığı, təhsilimizin çiçəklənməsi uğrunda xidmətlərində yeni nailiyyətlər arzulayıram.

Hörmətlə!

**Zöhrə Əliyeva,**
Bakı şəhəri, 111 nömrəli körpələr evi-uşaq bağçasının müdiri, əməkdar müəllim

# 40 YAŞIN İŞIĞINDA

**Zemfira Məhərrəmli,**
pedaqoji elmlər namizədi, yazıçı-publisist



Müasir yeniləşmə və sivilizasiya dövründə təhsil sistemi əsaslı şəkildə dəyişməkdədir. Respublikamızın müstəqilliyə qovuşduğu hazırkı dövrdə gənc nəslin düzgün tərbiyəsi xüsusi əhəmiyyət kəsb edir. Yeniləşən tarix təhsilin məzmunu və quruluşunun modernləşdirilməsi vəzifəsini irəli sürür.

Uşaqları soy-kökümüz, tarixi keçmişimiz, xalqımızın milli azadlıq uğrunda mübarizəsi, zəngin adət-ənənələrimiz, təbii sərvətlərimiz ilə tanış etmədən onlarda Vətənə məhəbbət oyatmaq mümkün deyil. Bu gün geniş mənada tərbiyənin məqsədi və vəzifələri sırasında Azərbaycan Respublikasının dövlətçilik ideologiyasına yiyələnmiş, müstəqil yaradıcı düşüncəyə, işgüzarlıq bacarığına, intellektual və mənəvi hazırlığa, milli mənlik şüuruna malik vətəndaşların formalaşdırılması mühüm yer tutur.

Təhsil sistemimizin salnaməsinə çevrilmiş müxtəlif qəzet və jurnallarda, xüsusilə pedaqoji mətbuatda təlim-tərbiyə məsələlərinə geniş yer verilir. Mətbuatın məktəbə nəzəri və praktik köməyi olmadan gənc nəslin təlimi və tərbiyə prosesini tələb olunan səviyyədə qurmaq, təkmilləşdirmək çətinləşərdi. Müasir dövrdə təhsil ocaqlarında tərbiyə işi təlim prosesinin tərkib hissəsinə çevrilməlidir. Bu vəzifəni yerinə yetirmək üçün pedaqoji mətbuatın üzərinə təbliğatcılıq və təşkilatçılıq vəzifələri düşür.

Ötən əsrin 60-cı illərinin ortalarınadək maarif işçiləri, pedaqoq alimlər təhsil sahəsindəki bütün nailiyyətləri yuxarı sinif şagirdlərinin göstəriciləri ilə qiymətləndirirdilər. İbtidai siniflərə hər şeyin sadə, bəsit, proqmatik şəkildə olduğu zənn edilir, ona yalnız propedavtik mərhələ kimi baxılırdı. İbtidai sinif şagirdlərinin təlim fəaliyyəti oxumaq, yazmaq və hesablamaq vərdişləri ilə məhdudlaşdırılırdı. Nəticədə şagirdlər dörd il ərzində ilkin bacarıqlara, qırıq-sökük biliklərə malik olur, düşünmək, araşdırmaq, ümumiləşdirmə aparmaq, öyrəndiklərinə münasibət bildirmək qabiliyyətinə, demək olar ki, yiyələnmirdilər.

Bütün bunlar görkəmli rus pedaqoq, psixoloq və metodistlərini narahat etməyə başlamışdı. 4 il ərzində uşaqlara, əsasən, yaddaşa istinadən cüzi bilik və bacarıqlar verən ibtidai təhsil sistemini 3 ilə endirmək, şagirdlərin daha çox təfəkkürə əsaslanan fəaliyyət göstərmələrini həyata keçirmək akademik L.V.Zankovun diqqətini cəlb etdi. Onun ətrafına toplaşan pedaqoq, psixoloq və metodistlər ibtidai təlim sistemində ciddi dəyişikliklər aparmağa çalışdılar.

60-cı illərin ortalarından respublikamızın ümumtəhsil məktəblərində də tədrisin səviyyəsini yüksəltmək, müəllimlərin peşə hazırlığını təkmilləşdirmək, xüsusilə, ibtidai təlimi kökündən yaxşılaşdırmaq istiqamətində axtarışlar start götürmüşdü. L.V.Zankovun göstərişi və köməyi, Yəhya Kərimovun rəhbərliyi altında üçillik ibtidai təlim üzrə eksperimental axtarışlar aparıldı. Təlim prosesində yalnız şagirdlərin yaddaşına deyil, həm də təfəkkürünə əsaslanmaq, onların axtarıcılıq

qabiliyyətini inkişaf etdirmək tədqiqatın mahiyyətini təşkil edirdi. Nəticədə üçillik ibtidai təlim prosesində şagirdlər əvvəlki dörd ildə əldə edilən biliklərdən daha çox və sistemli nəzəri məlumata yiyələnirdilər.

Belə bir vaxtda ibtidai sinif müəllimlərini pedaqoji yeniliklərlə tanış edən, onları metodik biliklərlə silahlandıran, yeni tədris proqramlarının mahiyyətini açıqlayan və məhz ibtidai təlimlə bağlı məsələləri əks etdirən xüsusi mətbu orqanın nəşrinə ehtiyac duyulurdu.

Respublikamızın tanınmış pedaqoq, psixoloq, qabaqcıl müəllimlərinin belə bir pedaqoji mətbu nəşrin yaradılması zərurəti barədə fikirləri səslənirdi. Bununla əlaqədar Y.Kərimovun məqalələri xüsusi təsir qüvvəsinə malik idi. Beləliklə, 1970-ci ildə ibtidai sinif müəllimlərinin yaxın köməkçisi olan «İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsi nəşrə başladı. Y.Ş.Kərimov onun redaktoru oldu. «Azərbaycan məktəbi» jurnalının «bətnindən ayrılmış» bu məcmuə fəaliyyətini jurnalın ənənələrinə sadiq bir övladtək qururdu. O, ilk nömrələrdən ətrafına pedaqoji ictimaiyyətin qabaqcıl dəstəsini toplamış, məktəblərdə və məktəbəqədər müəssisələrdə təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinə fəal təsir göstərmiş, maraqlı təşəbbüslərin müdafiəçisi kimi, maarif sistemindəki novatorluğun təbliğinə nail olmuşdur.

İlk addımlarından geniş müəllim kütləsi, pedaqoji ictimaiyyət tərəfindən rəğbət hissi ilə qarşılanan məcmuənin birinci nömrəsində oxuculara müraciətlə deyilirdi: «Müəllimlərimizin, uşaq bağçası tərbiyəçilərinin çoxdan arzuladıqları bu məcmuənin nəşrinə başlanması... xalq maarifinə, doğma balalarımızın təliminə və tərbiyəsinə göstərilən qayğının təzahürüdür».

Həmin baş məqalədə cari dərs ilindən I siniflərdə yeni proqramların tətbiq olunduğu bildirilir, yeni tələblərin yerinə yetirilməsi və yeddiyaşlıların təhsilin başlanğıc mərhələsinə yaxşı hazırlanması üçün müəllimdən pedaqoji ustalıq, məharət tələb olunurdu.

«İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsinin nəşrə başladığı ilk illərdə ibtidai məktəbdə üçillik təhsil sisteminə keçidin başa çatdırılması nəzərdə tutulurdu. Zahirən sadə görünən bu proses əslində çox mürəkkəb idi. Bu çətinlikləri aradan qaldırmaq üçün məcmuənin ilk nömrələrindən üçillik təlim sisteminin mahiyyətinin açıqlanmasına xidmət edən məqalələr dərc olunurdu. Həmin yazılarda müəllimlərin diqqəti yeni sistemin məzmunca dəyişilməsinə, nəzəri materialların artırılmasına, təlimin şagirdlərin qüvvələrinə müvafiq ən yüksək çətinlik səviyyəsində qurulmasına, biliklərin verilmə sürətinin artırılmasına, təlim metodlarının təkmilləşdirilməsi və kiçikyaşlı məktəblilərin tərbiyəsinin yeni şəraitdə təşkili məsələlərinə yönəldilirdi.

Yeni proqram və dərsliklərin müəllimlər arasında geniş müzakirəsinin təşkili və hər il təlim-tərbiyə prosesinin yekunlarının ümumiləşdirilib dərc edilməsi üçillik təlim sisteminin çatışmazlıqlarını vaxtında müəyyənləşdirməyə və müvəffəqiyyətlə aradan qaldırmağa imkan yaradırdı.

Üçillik təlim sisteminin gerçəkləşməsində görkəmli pedaqoq və psixoloqların məqalələri müəllimlərə yardımçı olmuş, məktəbdə fənlərin tədrisi keyfiyyətinin yüksəldilməsinə, habelə məktəbəqədər ictimai tərbiyənin inkişafına müsbət təsir göstərmişdir. Məcmuə ibtidai məktəbin yaşadığı yeni mərhələnin müxtəlif sahələrini işıqlandırırdı. Bütün bunların təsiri bir neçə ildən sonra öz bəhrəsini verdi.

Məcmuənin qarşısında, əsasən, təlimin keyfiyyətinin yüksəldilməsi probleminin

durması heç də tərbiyə məsələlərinin üzərinə kölgə salmırdı, çünki məcmuədə məktəbəqədər tərbiyə kiçikyaşlı məktəblilərin tərbiyəsi problemləri də əhatə olunurdu.

Məcmuə bütün fəaliyyəti boyu dövlətin ideologiyasına, təhsil siyasətinə, yeni məktəb quruculuğuna xidmət etmişdir. Bununla da məcmuədə tərbiyə problemi yüksək səviyyədə həll olunmuşdur.

Yarandığı 40 il ərzində məcmuə böyüməkdə olan nəslin mənəvi tərbiyəsi, (vətənpərvərlik, humanizim, tolerantlıq və s.) əmək tərbiyəsi, estetik tərbiyə, fiziki tərbiyə həmçinin, tərbiyənin digər sahələrinin daha da yaxşılaşdırılması və mükəmməlləşdirilməsi istiqamətində mühüm işlər görmüşdü.

Bundan əlavə, lap başlanğıcdan məcmuədə sırf tərbiyə məsələlərinə həsr olunmuş çox dəyərli yazılar dərc edilirdi. Məcmuənin 1970-ci ildə çap olunmuş nömrələrində tərbiyəyə dair 10-dan artıq məqaləyə rast gəlmək mümkündür: «Təlimin tərbiyələndirici xarakteri», «Təmkinlilik nədir və onu uşaqlarda necə tərbiyə etməli?», «Uşaqlarda əxlaqi saflığın bəzi məsələləri», «Musiqi təhsilinə diqqəti artırmalı», «Məktəbəqədər yaşlı uşaqlarda düzlük və doğruçuluq tərbiyəsi haqqında», «Uşaq bağçasında intizam tərbiyəsi», «Böyük bağça yaşlı uşaqlarda beynəlmiləlçilik tərbiyəsi» və s.

Məcmuənin ilk nömrələri bu nəşrin yarandığı şərait, pedaqoji mətbuat nümunəsi kimi onun qarşısında duran məqsəd və vəzifələri daha aydın dərk etməkdə mühüm mənbələrdir. Doğrudan da, məcmuədə həmin illərdə təhsilimizdəki əsas istiqamətləri, məqamları şərh və xarakterizə edən məqalələr dərc olunmuşdur.

1972-ci ildən məcmuədə «Tərbiyə problemləri» adlı daimi rubrika açılmış, həmin rubrikada tərbiyənin müxtəlif sahələri əhatə olunmuşdur. Bundan əlavə, baş məqalələrdə, həmçinin «Psixoloji məsələlər», «Məktəbəqədər tərbiyə», «Qabaqcıl təcrübənin ünvanı» rubrikalarında, qismən də «Fənlərin tədrisi» rubrikasında tərbiyə problemləri öz həllini tapmışdır. İldən-ilə güclənən, daha çox diqqəti cəlb edən bu problem gənc nəslin tərbiyəsində, şəxsiyyət kimi formalaşmasında mühüm rol oynamışdır.

Göründüyü kimi, bir pedaqoji mətbuat nümunəsi olmaqla, «İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsi birinci nömrəsində verdiyi vədə sadiq qalmış, qarşıya qoyduğu məqsəd və vəzifələri məharətlə yerinə yetirmiş, həm də bundan ötrü müxtəlif səpkili materiallardan, maraqlı təqdimat formalarından, bənzərsiz rubrikalardan istifadə etmişdir.

Təhsil sisteminin ilkin pilləsi olan məktəbəqədər müəssisə uşağın tərbiyə edilməsində və təhsilin təşkilində ailəyə kömək göstərir, şəxsiyyətin formalaşmasının əsasını qoyur, kiçikyaşlıların məktəbə hazırlanmasını həyata keçirir.

Psixoloq və pedaqoqların, tibb işçilərinin məcmuədə dərc olunmuş məqalələri göstərir ki, məktəbəqədər yaş dövrü intensiv psixi və fiziki inkişaf dövrüdür. Məhz bu yaş dövründə tərbiyə işi düzgün qoyulduqda uşaqda əqli qabiliyyət inkişaf edir, xarakterin ilkin əlamətləri təşəkkül tapır, əxlaqi keyfiyyətlər formalaşır. Məcmuədə müxtəlif vaxtlarda «Məktəbəqədər tərbiyə» rubrikası ilə dərc olunmuş çoxsaylı məqalələrdə bu fikirlərlə tez-tez qarşılaşırıq. Adətən, məcmuədə «Müzakirələr və təkliflər» rubrikası ilə dərc olunan belə yazılarda müəlliflər uşaq bağçasına dair proqramların çatışmayan cəhətlərini göstərir, faydalı təkliflər irəli sürürlər.

«İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsinin son illərdə milli ruhda tərbiyə məsələlərinə dair dərc etdiyi elmi-nəzəri məqalələr də ideya istiqamətinə,

mənə və əhəmiyyətinə görə təqdirə layiqdir. Halallıq, həya hissi, ailə tərbiyəsi, müəllim-şagird münasibətləri, özünütərbiyə və s. Mövzularda da məqalələr diqqəti cəlb edir.

Estetik tərbiyə uşağın hisslərinə çox güclü təsir göstərir. Uşaq bağçasında həyatdakı və incəsənətdəki gözəlliyə məhəbbət, yaramazlıqlara qarşı mənfi münasibət tərbiyə edilir. İncəsənətin müxtəlif növlərindən istifadə etməklə tərbiyəçi uşaqlarda bütün xeyirxah və gözəl işlərə həssaslıq, qayğıkeşlik hissi formalaşdırır, onların mənəvi aləmini zənginləşdirir, təsəvvür və hisslərini inkişaf etdirir. Şübhəsiz, bütün bunlar məcmuəyə məktəbəqədər tərbiyə dövründə uşaqların estetik tərbiyəsi problemi üzrə məqalə yazan mütəxəssisləri ciddi düşündürmüşdür.

Altı yaşdan təlim sisteminin işlənməsi və bu sistemə keçilməsi üzrə eksperimental tədqiqatın, mütərəqqi nəzəriyyələrin müntəzəm işıqlandırılmasında da məcmuə öz sözünü demiş, altıyaşlılarla bağlı bu eksperiment 20 ildən sonra respublikamızın bütün təhsil ocaqlarında həyata keçirilmişdir. Təhsil işçilərinin yaxın məsləhətçisi, köməkçisi olan «İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsi bu yolu da müvəffəqiyyətlə keçmiş, axtarışlar axınında özü də formalaşmışdır.

Məcmuə ibtidai təlimdə islahatın həyata keçirilməsi, şagirdlərin biliklərinin 9 bal sistemi üzrə qiymətləndirilməsi normalarının müəllimlərə çatdırılması istiqamətində də faydalı işlər görmüşdür.

Müəllimin, tərbiyə edənin nəzəri səviyyəsini yüksəltməyi qarşısına məqsəd qoyan məcmuə mühüm pedaqoji, psixoloji məsələlərin, digər elmi problemlərin, yeniliklərin daha yaxşı dərk edilməsi üçün öz səhifələrində pedaqogika nəzəriyyəsi, habelə psixologiya, fiziologiya, sosiologiya, məktəb gigiyenası, tədris fənlərinin nəzəriyyəsi üzrə məqalələrə geniş yer vermişdir.

«Məktəbəqədər və ibtidai təhsil» jurnalı zaman-zaman maarifçilik ideyalarının təbliğatçısı olmuş, aydın, səlis üslublu materialları ilə Azərbaycan dilinin daha da saflaşdırılmasına kömək göstərərək, müəllimlər üçün faydalı bir metodik vəsait rolunu yerinə yetirmişdir. Bu pedaqoji mətbu nəşr 40 il tərbiyəçilərin və müəllimlərin ixtisaslaşmalarında, nəzəri materiallarla silahlanmalarında, ideya-siyasi cəhətdən kamilləşmələrində mühüm rol oynamışdır.

Son illərdə jurnal təhsil islahatının həyata keçirilməsinə xidmət etmişdir. Təhsil standartlarının mahiyyətinin açılması, kurikulumların məzmununun şüurlu mənimsənilməsi, onlarla işin təşkili jurnalın əsas məqsədi olmuşdur. Yeni pedaqoji texnologiyalar, interaktiv təlim metodları, təlimin prinsipləri, xüsusilə inteqrativ təlimlə əlaqədar məqalələr diqqəti cəlb edir. Ayrı-ayrı fənlərin tədrisi ilə əlaqədar dərs nümunələri müəllimlərin praktik fəaliyyətinə yaxından kömək göstərir.

Keçən əsrin axırlarında jurnalda gənc nəslin tərbiyəsi probleminin qoyuluşu üzrə axtarışlar aparmış və namizədlik dissertasiyası müdafiə etmiş bir şəxs kimi belə hesab edirəm ki, bu gün jurnalın fəaliyyətini müxtəlif aspektlərdə araşdırmaq və geniş oxucu kütləsinə çatdırmaq faydalı olar.

# 2009-2010-CU DƏRS İLİNDƏ II SİNİFDƏ FƏNN KURİKULUMLARININ TƏTBİQİ VƏZİYYƏTİ

**Bibixanım İbadova,**
ibtidai təhsil kurikulumu şöbəsinin müdiri
pedaqogika üzrə fəlsəfə doktoru, dosent



2011-ci ilin fevral ayında Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu təhsil kurikulumu mərkəzinin ibtidai təhsilin kurikulumu şöbəsinin əməkdaşları II siniflərdə fənn kurikulumlarının tətbiqi vəziyyətini yoxlamış, təlimin keyfiyyətini öyrənib təhlil etmiş və onun təkmilləşdirilməsi imkanlarını müəyyənləşdirmişlər.

Tədqiqat Bakının 37 məktəbində aparılmışdır. Tədqiqat zamanı 130 saat dərs dinlənilmiş, 600 nəfər II sinif müəllimi 1300 nəfər valideynlə şifahi sorğu keçirilmişir. 875 şagird Azərbaycan dili, riyaziyyat, həyat bilgisi fənləri üzrə testlər yerinə yetirmişdir.

Tədqiqat zamanı müəyyən naliyyətlər aşkar edilmişdir.

Araşdırmalar göstərmişdir ki, müəllimlərin dərslərdə məzmun standartlarına uyğun təlim məqsədinin seçmələri, məqsədin reallaşmasına xidmət edən fəal təlim metodlarından, müxtəlif təlim fəaliyyətləri, rəngarəng resurslardan istifadə etmələri onların peşəkarlığının artmasını göstərən əlamət kimi çıxış edir və təlimin keyfiyyətinin yüksəlməsində həlledici rol oynayır.

Dərslərdə müşahidə prosesində müasir texnologiya İKT vasitələrindən istifadə olunmasının təlim keyfiyyətinə ciddi təsir göstərdiyi, interaktivlik şəraitində təlimə marağın yüksəldiyi aşkar olunmuşdur. Tədqiqatlara əsasən belə bir qənaətə gəlmək olar ki, artıq ölkə üzrə 1000-ə yaxın məktəbdə elektron dərslərdən istifadə imkanı var.

Ənənəvi kurikulumlardan fərqli olaraq yeni fənn kurikulumlarının tələblərinə əsasən aparılan dərslərdə şagirdlərin öyrənmə marağı, bilik və bacarıqlarının səviyyəsi, təlim prosesində fəallığı, yaradıcı işlərə meyilliliyi daha yüksəkdir;

Fənn kurikulumlarının tətbiqi şagirdlərin yaradıcı qabiliyyətlərini müəyyən etməyə, onların təhliletmə, fəal öyrənmə bacarıqlarını və məntiqi təfəkkürünü inkişaf etdirməyə imkan verir.

Valideynlərlə aparılan sorğunun nəticələrinin təhlili göstərir ki, onların əksəriyyəti fənn kurikulumlarından razı qaldıqlarını müasir tələblərə müvafiq keçilən dərslərin təlimin keyfiyyətində dönüş yaratdığını, uşaqların fəallaşdığını, təlimə maraqlarının artdığını bildirirlər.

Axtarışlar kurikulumlarin tətbiqinin uğurları ilə yanaşı, müyyən çatışmazlıqların olmasını da müəyyən etdi. Məlum oldu ki, hələ də bəzi müəllimlər interaktiv təlim metodları ilə dərs aparmaqda, mövcud resurslardan istifadə etməkdə çətinlik çəkirlər. Onların bu sahədə peşəkarlığı formalaşmamışdır.

Araşdırmalar zamanı dərslərdə şagirdlərin açıq, deklarativ xarakterli suallara cavab verməyə meyilli olmaları müşahidə edilmişdir. Məlum olmuşdur ki, bəzi müəllimlər interaktiv təlimin forma və metodlarından gündəlik dərslərdə deyil, sadəcə olaraq açıq dərslərdə -"nümunəvi" dərslərdə istifadə edirlər. Belə yanaşma tərzi təhsilin yeni məzmununa uyğun olmadığından təlim prosesinə mənfi təsir göstərir və şagirdlərin öyrənmə marağının aşağı düşməsi ilə nəticələnir.

Müəllimlərlə aparılan fərdi söhbətlər, müşahidələr zamanı müəyyən edilmişdir ki, onlar dərsə hazırlaşarkən müəllim üçün metodik vəsaitdəki nümunəvi dərs planlarına üstünlük verir, dərslərini istər-istəməz verilmiş nümunəyə uyğun qurmağa çalışır, ona yaradıcı yanaşmırlar.

Tədqiqat zamanı müəyyən edildi ki, müəllimlər formativ qiymətləndirməyə dair qeydlərin aparılma metodikasını aydın təsəvvür etmədiklərindən qiymətləndirmə zamanı çətinlik çəkirlər. Belə bir vəziyyət formativ qiymətləndirmə ilə bağlı tövsiyələrin kifayət qədər olmamasından irəli gəlir.

Bəzi valideynlər kurikulum islahatı, xüsusilə yeni qiymətləndirmə mexanizmi haqqında səthi və dolaşıq məlumata malik olduqlarından müəllimin fəaliyyətinə etirazlarını bildirir, övladlarına kömək göstərə bilmirlər. Bu, valideynlərlə ardıcıl və sistemli şəkildə maarifləndirmə işinin aparılmasını zəruri edir.

Əksər məktəblərdə dərs prosesində tələb edilən resursların (ana dilindən yazı işlərinin yoxlanılmasına dair yeni qiymətləndirmə normativlərinin; məktəblinin izahlı lüğəti, məlumat kitablarının; əyani və texniki vasitələrin) olmaması müəllimlərin tədris fəaliyyətinin təşkilində çətinliklər yaradır.

Xarici dil, informatika və təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dili fənnini tədris edən müəllimlər kurslara cəlb olunmadıqlarından standartın seçilməsində, təlim məqsədinin müəyyənləşdirilməsində, məzmunun şagirdlərə mənimsədilməsində və qiymətləndirilməsində çətinliklərlə üzləşirlər.

II sinif üçün ayrı-ayrı fənlər üzrə tədris komplektinin təhlili xüsusi tədqiqat obyekti oldu. İşçi qruplarının iclaslarında dərslik komplektləri təhlil edilmiş, eyni zamanda dəyirmi masalarda müəllimlərlə fərdi görüşlərdə onlara münasibət öyrənilmişdir. Müəllimlərin rəyləri ümumiləşdirilmiş və aşağıdakı nəticələr əldə edilmişdir:

a) Dərsliklərin çəkisi və formatı həddindən artıq böyükdür. Dərsliklər şagirdlərin çantalarına zorla yerləşir və onları ağırlaşdırır;

b) II siniflər üçün "Azərbaycan dili" dərslik komplektinin təhlili göstərir ki, məzmun standartında tələb olunmadığı halda dərslikdə qrammatik qayda (təlim materialı) verilmişdir. məsələn, fənn kurikulumunda - "Bədii mətnləri janrlara görə (şeir, hekayə, təmsil, nağıl) fərqləndirir" (standart 2.2.2.) dörd janr nəzərdə tutulduğu halda, dərslik müəllifləri digər janrları da (tapmacalar, sanamalar, oyunlar, atalar sözləri, laylalar, bayatılar, yanıltmaclar) dərsliyə daxil etmişlər.

c) II sinif üçün "Riyaziyyat" dərsliyinə şagirdlərin yaş səviyyələrinə uyğun olmayan mövzular salınmışdır, məsələn, simmetriya, kub, düzbucaqlı, prizma, konus, silindr və s.

ç) Azərbaycan dili və riyaziyyat dərsliklərində standartların reallaşması ilə bağlı çoxlu tapşırıqlar verildiyi halda, analoji tapşırıqlar iş dəftərlərində də verilir. Bu, dərslik komplektinin yüklənməsinə gətirib çıxarır.

d) II sinif üçün həyat bilgisi dərslik komplektinin təhlili göstərir ki, bəzi mətnlərin həcmi, məzmunu, onlara çəkilmiş illüstrasiyalar şagirdlərin yaş səviyyəsinə uyğun deyil. Şagirdlər üçün iş dəftərində, eləcə də müəllim üçün metodik vəsaitdə verilmiş dərs nümunələrindəki tapşırıqların əksəriyyəti yaradıcı və tənqidi təfəkkürün inkişaf etdirilməsinə deyil, yaddaşın formalaşmasına xidmət edir.

e) Musiqi fənnindən dərslik, eləcə də müəllim üçün vəsaitdə verilmiş mahnıların CD forması olmadığından müəllimlər həmin fənni tədris etməkdə çətinlik çəkirlər. Mahnıların CD variantının müəllimlərə çatdırılması təklif edilir.

Sadalanan problemlər gələcəkdə dərslik komplektlərinin təkmilləşdirilməsi, fənn kurikulumlarının tətbiqinin daha səmərəli təşkili üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini irəli sürür.

- Müəllimlərin peşəkarlığını artırmaq üçün müntəzəm olaraq müxtəlif aspektlərdə təlim kursları təşkil edilsin.
- Xarici dil, informatika və təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dili fənnini tədris edən müəllimlər üçün yeni fənn kurikulumları ilə əlaqədar kurslar təşkil olunsun.
- Dərsliklər yenidən nəşr olunarkən həcmi, çəkisi və sistemi ilə bağlı göstərilən iradlar nəzərə alınsın.
- Müəllimlər tərəfindən reallaşdırılması çətin hesab edilən məzmun standartları sadələşdirilsin, təkmilləşdirilsin.
- Valideynlərlə ardıcıl və sistemli şəkildə maarifləndirmə işləri aparısın.
- Ana dilindən yazı işlərinin yoxlanılmasına dair yeni qiymətləndirmə normativləri, formativ qiymətləndirmə ilə bağlı tövsiyələr, məktəblinin izahlı lüğəti, məlumat kitabları, əyani vəsait, musiqi fənnindən mahnıların CD variantı hazırlansın.

# MƏKTƏBƏ HAZIRLIĞIN METODOLOJİ, PSİXOLOJİ VƏ DİDAKTİK ƏSASLARI

**Laləzar Cəfərova,**
ARTPİ-nin məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri,pedaqogika üzrə fəlsəfə doktoru, dosent



*Açar sözlər:* Məktəbəqədər yaşlı uşaq, məktəbəhazırlıq, tərbiyəçi və valideynlər.
*Ключевые слова:* дошкольник, подготовка к школе, воспитатели и родители.
*Key word:* The preschool child, preparation for school, teacher and parents.

Respublikamızın məktəbəqədər təhsil müəssisələrində təhsil islahatının müvəffəqiyyətlə həyata keçirildiyi hazırki dövrdə demokratik, humanıst prinsiplərə əsaslanan məktəbəqədər təhsil müəssisəsinin məzmunu işlənib hazırlanır. Bu sahədə aparılan axtarışlar yaxın gələcəkdə məktəbəqədər təhsil müəssisələrinin böyük uğurlarından xəbər verir. Məktəbəqədər təhsil sahəsində aparılan araşdırmaların əsas məqsədi təhsilin bu pilləsinin şəbəkəsini genişləndirmək, keyfiyyətini yüksəltmək, inkişafını təmin etməkdir. Bununla əlaqədar məktəbəqədər təhsilin keyfiyyətini şərtləndirən amillərə, ilk növbədə, məktəbəqədər təhsilin məzmununa yenidən baxılması zərurəti varanıb.

Respublikamızda uşaqların məktəbəqədər müəssisələrə cəlbi təxminən 16,4 faiz təşkil edir. Məktəbə gedən uşaqların hamısı məktəbə hazırlıq pilləsini keçmədiyindən 2010-cu il, yanvarın 10-da Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən "Məktəbə hazırlığın təşkili Qaydaları"nın təsdiqi haqqında qərar qəbul edilib. Bu sənəddə məktəbə hazırlığın məqsəd və vəzifələri, onun təşkilinə verilən tələblər və məktəbə hazırlıq məsələləri öz əksini tapıb.

Məktəbəqədər yaşlı uşağın təhsili - inkişafın süni şəkildə sürətləndirilməsinə (akselerasiyaya) deyil, zənginləşdirilməsinə (amplifikasiyaya) yönəldirilməlidir. Uşağın psixi inkişafı onun imkanlarının maksimum həyata keçirilməsini nəzərdə tutur (A.V.Zaporojes). O, inkişafın süni şəkildə sürətləndirilməsindən fərqli olaraq, uşağın fiziki və psixoloji sağlamlığının qorunmasını, normal, ahəngdar inkişafını təmin edir, uşaqlıq sevinclərini qoruyub saxlayır.

Uşağa təlimedici təsir uşağın özünün real fəaliyyəti olmadan həyata keçirilə bilməz. Bu fəaliyyətin məzmun və yolları onun psixi inkişaf prosesini müəyyən edir (L.S.Vqotskiy, A.N. Leontyev və b.).Uşağın fəaliyyəti onun psixikasını

qurur ("inşa edir"). Bu, hər şeydən əvvəl, psixoloji yaş dövrlərində aparılan fəaliyyətə (ünsiyyət, oyun) aiddir.

Uşağın fəaliyyəti müəyyən əşya mühitində həyata keçirilir. Uşaqlığın əşya aləmi- yalnız oyun mühiti deyil, daha geniş olub, onun bütün fəaliyyət növlərinin spesifik inkişaf mühitidir. Onlardan heç biri əşya mühitindən kənarda, tam verbal səviyyədə bütövlükdə inkişaf edə bilməz. Fəaliyyət uşağın yalnız uyğun obyekt və vasitələrinin olduğu, fəaliyyətin lazımı yollarının formalaşdığı şərtlər daxilində həyata keçirilə bilir.

5-6 yaşlı uşağın məktəb təliminə hazırlığına, hər şeydən əvvəl, onun fiziki, sosial və intellektual hazırlığı kimi baxılmalıdır.

***Fiziki hazırlıq.*** Bu, uşağın sağlamlıq vəziyyəti, onun orqanizminin morfo-funksional kamilliyinin müəyyən səviyyəsi, hərəki bacarıq və keyfiyyətlərinin lazımı inkişaf səviyyəsi, xüsusən də böyük və kiçik, hissi motor hərəkətlərinin koordinasiyası, fiziki və əqli iş bacarığıdır.

***Sosial hazırlıq.*** Bu, davranışın iradiliyinin müəyyən səviyyəsi, ünsiyyətin formalaşdırılması, təlimin motivasiyası və özünüqiymətləndirmə; fəallıq, müstəqillik, məsuliyyət, başqasını dinləmə bacarığı və onunla öz hərəkətlərini uyğunlaşdırmaq, qoyulmuş qaydaları rəhbər tutmaq, qrupda işləmək bacarığıdır.

***İntellektual hazırlıq.*** Bu, obrazlı düşünmə, təxəyyül və yaradıcılıq, həmçinin, sözlü-məntiqi düşüncənin əsasının inkişafı, idraki fəaliyyət vasitələrinə (müqayisə, təhlil, tərkib, qruplaşdırmaq, təsnifetmə, ümumiləşdirmə, mücərrədləşdirmə) malik olmaqdır.İntellektual hazırlığa həmçinin situasiyanın təhlili zamanı başqasının mövqeyini nəzərə almaq, ana dili və nitq formalarının (dioloq, monoloq) əsaslarını bilmək, digər spesifik uşaq fəaliyyət növləri (quraşdırma, rəsm çəkmək, yapma, müxtəlif oyunlar) daxilində tədris fəaliyyəti elementlərinə yiyələnmək, tapşırığı ümumi fəaliyyət kontekstindən ayırma, onu yerinə yetirmə yollarını ümumiləşdirmək, planlaşdırmaq, insanlar, əşyalar aləmi, təbiət haqqında ilkin təsəvvürləri dərk etməkdir.

Məktəb təliminə hazırlğın bütün bu cəhətləri uşaqda bir neçə il ərzində uşaq bağçası və ailədə paradiqma fəaliyyətinə əsaslanan təlim və tərbiyə zamanı formalaşır.

İbtidai sinifdə uğurlu təhsilin vacib şərti uşaqda tədris motivinin olmasıdır. Bu motivin meydana çıxmasına bir tərəfdən məktəbəqədər yaş dövrünün sonunda uşaqda məktəbə getmək arzusunun baş qaldırması, digər tərəfdən isə maraq və əqli fəallığın inkişafı təkan verir.

Təlimin uğurunun heç də az vacib olmayan şərti təlim motivinin həyata keçirilməsini təmin edən, davranışın kifayət qədər sərbəstliyi, idarəedilə bilən olmasıdır. Davranışın iradiliyi, hər şeydən əvvəl, böyüklərin və uşağın özünün tələbatlarına əsasən oyunda öz əksini tapır. Uşaq oyunda müəyyən qaydalara riayət etməyi, bununla yanaşı, tərəfdaşları ilə öz münasibətini qurmağı, onun sosiallaşmasına imkan verən davranış qaydalarını mədəniyyət çərçivəsində həyata keçirməyi öyrənir.

İbtidai təhsil uşağa bir çox formal tələblər irəli sürür. Əgər onda iradi davranış mexanizmi formalaşmayıbsa, bu tələblərin yerinə yetirilməsi çətin olmaqla məktəbə nifrət hissi oyada bilər.

Məktəb uşağa ümumiləşdirilmiş biliklər sistemini təqdim edir. Bu o zaman qavranır ki, uşağın dərketməsi müvafiq ümumiləşdirmə səviyyəsinə çatsın.

Böyük məktəbəqədər yaşda baş verən bütün psixoloji dəyişikliklər uşağın inkişaf yolunun nəticələridir. Bu dövrün nailiyyətlərindən daha vacibi davranışın yeni motivlərinin meydana çıxması, motivlər iyerarxiyasının formalaşmasıdır. Bu, uşağın əsas fəaliyyət növü olan oyunda öz əksini tapır.

Oyunun mənbəyində təlim motivi yaranır. Oyunda uşaq gerçəkliyin yeni tərəflərini dərk edir. Oyun və idrakı motivlər daim bir –birini əvəz etməklə qarşılıqlı əlaqədədir: yeni biliklər oyunda təşəbbüskarlıq, oyunun inkişafı isə yeni biliklər tələb edir. Biliyə tələbat təlim motivasiyasının əsas hissəsidir.

Oyunda, məktəbdə uğurlu təhsil üçün vacib olan fəaliyyətin daxili planı, yəni əqli fəaliyyət bacarığı formalaşır. Uşağın oyunda əldə etdiyi situasiyanın praktik dəyişdirilməsi onun sonrakı nəzəri dəyişikliyinə gətirib çıxarır ki, bu da nəzəri düşünmənin inkişafına əsas yaradır (A.V. Zaporojes). Məlum olduğu kimi, təlim fəaliyyətinin məqsədi nəzəri biliklər sisteminin ictimai təcrübə forması kimi mənimsənilməsidir.

Böyük məktəbəqədər yaşlı uşaqların imkanları uşaq bağçasının ümumi rejimi çərçivəsində təlimin həyata keçirilməsinə zəmin yaradır, lakin bu təlim özünün məqsədi və həyata keçirilməsi metodları ilə məktəb təlimindən əsaslı surətdə fərqlənir. Burada məqsəd müəyyən bilik və bacarıqların mənimsənilməsi ilə yanaşı, həm də uşaqların məktəb təliminə psixoloji hazırlığıdır. İstifadə olunan təlim metodları məktəbəqədər yaşlı uşaqlar üçün xarakterik təfəkkürün formalarına və fəaliyyət növlərinə istinad edir.

Bütün bu fundamental metodoloji və psixoloji qaydalar məktəbə keçid dövründə uşaqların start bacarıqlarının düzləndirilməsinə istiqamətlənmiş təlim prosesinin proqram- metodik təminatının yaradılmasını tələb edir. Hər şeydən əvvəl, 5-6 yaşlı uşaqların təlim və tərbiyəsinin bazis məzmununu əks etdirən vahid tələblər işlənib hazırlanmalıdır. Bunlar böyük məktəbəqədər yaşlı uşaqların təlim prosesinin əsasını təşkil etməlidir. Bazis məzmunu uşağın tam ümumi inkişafının vacibliyi prinsipinə görə qurulmalı və özündə növbəti təlim istiqamətlərini (fiziki inkişaf və sağlamlığın möhkəmləndirilməsi, sosial – mənəvi, estetik, idraki və nitq inkişafı kimi fəaliyyət) cəmləməlidir. Fəaliyyət istiqamətləri gerçəkliyin müxtəlif sahələrini: əşya və təbiət aləmi, sosial münasibətlər, bədii, incəsənət aləmini (musiqi, təsviri və tətbiqi incəsənət, bədii ədəbiyyat və s.) açmalıdır.

Məzmun fəaliyyətin müxtəlif sahələrini əks etdirdiyi kimi , həm də uşaq fəaliyyətinin növləri (oyun, təsviri fəaliyyət, dramlaşdırma, quraşdırma və s.) kimi təqdim olunmalıdır. İlk növbədə uşaqların oyununda təşəbbüsü xüsusi yer tutmalıdır. Tələblərdə təlimin həcmi ilə müəyyənləşdirilmiş hər bir fəaliyyət

istiqamətinin uyğunluğu dəqiq müəyyən edilməlidir: məsələn, həftə ərzində keçirilən nitq inkişafı və riyaziyyat məşğələsində oyunun, fəal hərəkətliliyin, rəsmin, musiqinin, quraşdırmanın və s. təşkili vacibdir. Başqa sözlə, məktəbə hazırlıqla əlaqədar savad təlimi və riyaziyyatla məşğul olmaq üstünlük təşkil etməməli, onların nəticələri uşağın ümumi inkişafı (fonematik esitmənin inkişafı, məntiqi düşüncənin başlanğıcı və s.) olmalıdır. Təlim məşğələləri inteqrativ təşkil edilməlidir.

Məktəbə hazırlığının bazis məzmunu aşağıdakılara uyğun olmalıdır:

1) *Uşağın 5 yaşdan, yoxsa bütün məktəbəqədər yaş dövründə uşaq bağçasına getməsi.* "Ev uşağı" adlanan 5-6 yaşlı uşaqlar üçün proqram sosial istiqamətləndirilmə ilə (davranış normaları, ünsiyyət vasitələri, yaşıdları arasında komfort hissi, böyüklər və uşaqlarla ünsiyyət, müstəqillik), gücləndirilməli, eyni zamanda uşaqların ümumi iş ritminə və sürətinə uyğunlaşdırılması təmin olunmalıdır;

2) *Uşağın məktəbəqədər müəssisədə neçə saat olması.* Qısamüddətli qruplar həftədə 3-4 dəfə 3 saatdan az olmayaraq fəaliyyət göstərməlidirlər;

3) *Uşaqlarin qısamüddətli qruplarda təlimi məktəbdə təşkil olunarsa təkcə təlim üçün* deyil, oyun, hərəki fəallıq və uşaq fəaliyyətinin müxtəlif növləri üçün də şərait yaradılmalıdır.

Bazis məzmununda ifadə olunmuş tələblər (iqlim, müxtəlif milli və mədəni ənənələr və s.) onların həyata keçirilməsində variativlik nəzərə alınmalıdır.

Bundan başqa, uşaqlarla işin növbəti prinsiplərinə pedaqoqların diqqətini yönəldən metodik tövsiyələr işlənməlidir. Tərbiyəçi-pedaqoq öz işində aşağıdakıları nəzərə almalıdır:

- məktəb tipli kəskin reqlamentli təlimdən uzaqlaşmaq;
- uşaqların müxtəlif formalarda hərəki fəallığının təminatı;
- özündə uşaq fəaliyyətinin spesifik növlərini cəmləşdirən təlimin müxtəlif formalarından istifadə olunması;
- uşaqların gündəlik həyatı, müstəqil fəaliyyəti (oyun, bədii yaradıcılıq, quraşdırma və s.) ilə məşğələlərin qarşılıqlı əlaqəsinin təmin olunması;
- uşaq fəaliyyətinin məzmununu funksional modelləşdirən inkişafetdirici mühitin yaradılması;
- təfəkkürü fəallaşdıran, uşağın təxəyyül və axtarıcılıq fəaliyyətini inkişaf etdirən metodlardan istifadə olunması;
- təlimə müxtəlif həll variantları olan, açıqtipli məsələlərin, problem elementlərinin daxil edilməsi;
- oyun priyomlarından, oyuncaqlardan, uşaqlar üçün emosional vəziyyətlərin yaradılmasından geniş istifadə olunması;
- uşağa yaşıdları ilə qarşılıqlı fəaliyyətdə olmaq və onlardan öyrənməyə istiqamətlənmək imkanının yaradılması;

• təlim prosesində böyüklərlə uşaqlar arasında aparıcı ünsiyyətin dialoq formasını uşaqların öz aralarında dialoqla əvəz etməklə onlarda fəallığın təşəbbüskarlığın böyüyə inam və hörmət hissinin formalaşdırılması;

• hər bir uşağın komfort və nailiyyət hissini təmin edən uşaq cəmiyyətinin formalaşdırılması.

5-6 yaşlı uşaqların bazis məzmununa əsaslanan və metodik tövsiyyələri nəzərə alan təhsili aşağıdakı təhsil müəssiələrində həyata keçirilə bilər:

• müxtəlif növ və qısamüddətli qrupları olan məktəbəqədər təhsil müəssisələrində;

• "ibtidai məktəb - uşaq bağçası" tədris kompleksində;

• ümümtəhsil məktəbləri nəzdində məktəbəqədər qruplarda;

• əlavə təhsil müəssisələri sistemində məktəbəqədər tədris qruplarında.

5-6 yaşlı uşaqlarla işləmək üçün müəllimlərin hazırlanması məktəbəqədər təhsilin məzmununa qoyulan tələbləri özündə əks etdirən, məktəbəqədər yaş dövrünün xüsusiyyətlərini, həmçinin, uşaqların tərbiyə və təlim texnologiyasının müasir inkişafını təcəssüm etdirən xüsusi annotasiyalı proqram üzrə aparılmalıdır.

Ədəbiyyat

1. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı, 2010.

2. Kərimov Y.Ş. Uşaq məktəbə gedir.Bakı, 2009.

3. Əfəndiyeva Ü.A. Ünsiyyət və qarşılıqlı münasibətlər məktəbə psixoloji hazırlığın əsası kimi.Bakı, 2007.

4. "Məktəbə hazırlığın təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Qərar. Azərbaycan Respublikası Nazirlər Kabineti, 8 yanvar 2010-cu il.

5. Granowsky, A. (1991). What parents can do to help children succeed in school. "PTA Today," 17(1), 5-6. (EJ 436 757)

**Методические, психологические и дидактические основы подготовки к школе**

Резюме

Готовность ребенка к школьному обучению должна рассматриваться, прежде всего, как общая его готовность, включающая в себя физическую, социальную и интеллектуальную.

Подготовка и переподготовка педагогов для работы с детьми 5-6 лет должна проходить по специально разработанным аннотированным программам, отражающим единые требования к содержанию дошкольного образования, специфику дошкольного возраста, а также современные развивающие технологии обучения и воспитания детей.

**Of the preparation to the school methodological, the psyhological and didaktical bases**

Summary

Readiness of the child for school training should be considered, first of all, as its general readiness including physical, sosial and intellectual.

Preparation and retraining of teachers for work with children of 5-6 years should pass under specially developed annotated programs reflecting uniform requirements to the maintenance of a preschool education, specificity of preschool age, and also modern developing technologies of training and education of children.

## MÜASİR ŞƏRAİTDƏ MƏNƏVİ TƏRBİYƏNİ AKTUALLAŞDIRAN AMİLLƏR

**Əsmər Bədəlova,**
AMİ-nin dosenti



*Açar sözlər:* bağça, qrup, buta, məşğələ, məktəbə hazırlıq qrupu, milli özünüdərk

*Ключевые слова:* детский сад, группа, бута, занятие, подготовительная группа, национальное самосознание.

*Key words*: kindergarten, the group, but exercise, the preparatory group, national identity.

İndi birqütblü dünyanın siyasi, iqtisadi və mənəvi həyatında arzu olunan və arzu olunmayan hadisələr baş verir; dünya yeniləşir. Bəlkə də təfəkkürdən kənar seyrci mövqedən baxanda zahirən belə görünür. Əslində elə hadisələr və mətləblər var ki, daim ağıllı insanların nəzarətində olmalıdır. Bunlardan biri böyüməkdə olan nəsil və onun mənəvi tərbiyəsidir.

Mənəviyyat ən ali insani keyfiyyət olmaqla çoxsaylı ilahi dəyərləri ehtiva edir. Əsrlər boyunca dahi şəxsiyyətlər öz qələmlərinin mürəkkəbini, gözlərinin nurunu mənəviyyata sərf etmişlər. Hətta mənəviyyat yolunda tonqallarda yandırılan,dərisi soyulan, öldürülənlər də, insanların xeyirdən çox şər qüvvəyə itaət etdiyini görüb ümidsizləşərək

“Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm,əyri gördüm,özgə babət görmədim.”

deyənlər də olub. Bununla belə, həyat davam edib,bəşəriyyət yaşayıb və gəlib günümüzə çatıb. Aqil və mənəviyyatlı insanlar tərbiyənin gücünə arxalanaraq nəinki böyüməkdə olan nəsli, hətta gəncləri və yaşlıları da düz yola istiqamətləndirməyə çalışıblar. İstər xalq pedaqogikası, istər yazılı ədəbiyyat, istərsə də elm və təhsil ocaqları insanları dayanmadan mənəviyyata səsləyib.

Sovetlər birliyinin dağıldığı vaxtlarda nüfuzlu yazıçılarımızdan birinin mətbuatda belə fikri getmişdi: “Əgər ədəbiyyat tərbiyə etsəydi, yer üzündə tərbiyəsiz adam qalmazdı”. Hörmətli yazıçının belə bir qənaətə gəlməsi təəccüblüdür. Axı ədəbiyyat, o cümlədən yuxarıda sayılan digər qüvvələr tərbiyə etməsəydi, insanlar yer üzünü məhvərindən çıxarardılar. Günümüzün reallıqları göz qabağında deyilmi? Bu gün mütaliədən üz döndərmiş yeni nəsillə bir neçə il əvvəlki mütaliəli nəslin dünyabaxışı, vətənpərvərliyi, əməyə münasibəti, mərdliyi, halallığı, düzlüyü, doğruçuluğu eynidirmi? Bu gün yaşlı nəslin tövsiyələrinə etina edən varmı? Ümumən, yaşlı kimsə tanımadığı bir uşağa, yeniyetməyə, gəncə irad tutarsa,..

Doğrudur, yeni nəsil içərisində zəngin mənəviyyatlı şəxslər var, amma azdır. Buna səbəb, hər şeydən əvvəl, təlim və tərbiyə işində gərəkli bağlardan biri-məktəb, ailə və ictimaiyyətin əlbir işinin qırılmasıdır.

Bir zamanlar ictimaiyyətin sıravi, savadsız nümayəndəsi böyüyən nəsildə qüsurlu hərəkət görəndə, tanıdı-tanımadı, onu korrektə edirdi. Bir qocanın yanından keçən uşaq salam vermirdisə, qoca onu saxlayıb, kimin övladı olduğunu, müəlliminin kim olduğunu soruşur və başa salırdı ki, salam vermək ədəbdəndir. Yaxud, əgər bir uşaq salam verib keçirdisə, onun salamını alır və yenə də müəlliminin, valideyninin kimliyini soruşurdu.

Məktəbdə dərslər qurtardıqdan sonra küçədə, çəpər dibində bir neçə məktəblinin evə getməyib, söhbət etdiyini, pıçıldadığını görən kənd adamı irad tuturdu:

– Niyə evə getmirsiniz? Bəlkə siqaret çəkmək istəyirsiz? və s.

Bunlar hamısı məktəbin, bütövlükdə cəmiyyətin xeyrinə idi. Bu gün ictimaiyyət çox biganədir; elə qocalar da yoxdur, elə canıyananlıq da. Bununla belə, demək olmaz ki, ictimai mühit böyüməkdə olan nəslə tamamilə laqeyddir. Təsir var, lakin başqa yöndən.

Ailəyə gəlincə, bu gün onları uşaqlarının tərbiyəsinə göstərdiyi diqqət və məktəblə əlaqəsinə görə qruplara ayırmaq olar. Bir qrup valideyn bütün günü kapital ardınca hərəkətdədir. Övladına hər cür şərait yaradıb, amma məktəbə getməyə, müəllimlərlə həmsöhbət olmağa, uşağı ilə bağlı təfərrüatları öyrənməyə, incə məqamları müəllimlə bölüşməyə vaxt tapmır. Başqa bir qrup valideyn bütün günü işləyir. Gün çıxandan batanadək çöldə işləyən valideyn istəsə də məktəblə əlaqə saxlaya bilməz. Əksinə, o, bəzən uşağını məktəbdən ayırıb, öz köməkçisi edir.Nəhayət, məktəblə müntəzəm əlaqə saxlayan valideyn var ki, onlar da ya müəllimlər, ya da həkimlərdir.

Cəmiyyət daxilində mötəbər cəmiyyət olan məktəb özünün iki ən yaxın tərəfdaşını itirib. Bu, yaxşı hal deyil. Bundan da pisi, dözülməz olanı odur ki, indi böyüməkdə olan nəslin tərbiyəsinə məktəbin özündən də güclü təsir edən yeni qüvvə yaranıb: kommersiya ekran-efiri.Bu gün Azərbaycan evlərinə təkcə ekran vasitəsilə gün ərzində 130 saatdan çox veriliş ötürülür. Onun yarıdan çoxu ədəb-ərkandan kənardır.

Az-çox ədəbli sayıla bilənlər isə mənəvi tutumuna görə misal gətirdiyimiz qocanın bircə iradı qədər təsiredici deyil. Böyüməkdə olan nəslin daxili dünyası yüngül ab-havaya- şouya o qədər vərdiş edib ki, artıq sanballı, dəyərli, klassik sayılan nə varsa, onun üçün köhnəlik əlamətidir və qəbulolunmazdır. Ümumən, ekran və efirin mənəvi tərbiyə baxımından yaratdığı fəsadlar ölçüyəgəlməzdir və saymağa lüzum da yoxdur.

Buraya ifrat azadlıq məsələsini də daxil etmək yerinə düşər. Azadlıq-insanın özünü cəmiyyət daxilində rahat hiss etməsi, sözünü deyə bilməsi, istədiyi kimi yaşaya bilməsidir. Bəs görək insan nə istəyir? Onun istəyini həmişəmi xeyir mələkləri müşayiət edir? Hələ bərkiməmiş, cəmiyyət deyilən toplumun ehtiva

etdiyi insanların sayı qədər sifətlərindən bixəbər məktəblini istənilən mühitdə və istənilən şəraitdə azad və sərbəst buraxmaq olarmı? Qətiyyən yox! Uşağa mədəni, mənəviyyatlı mühitdə, məsələn, məktəbdə, normal ailədə, normal birliklərdə müəllimin, valideynin, hansısa məsul şəxsin nəzarəti varsa istədiyi azadlığı vermək olar; Bu, diktatura deyil, despotluq deyil, canıyananlıqdır, azərbaycançılıq.

Məktəb təcrübəsini müşahidə və ixtisasartırma kurslarına gələn müəllimlərlə sorğunun nəticələri göstərir ki, pedaqoji kollektivlərdə tərbiyəvi işlər sarıdan sözün böyük mənasında "azadlıqdır". Uşaqarın asudə vaxtı əlavə hazırliğa gedir. 20 Yanvar, Xocalı soyqırımı və Novruz bayramı deyilsə, növbənöv sinifdənxaric işlərdən heç birinə müraciət olunmur. Rəngarənglik olmadığından uşaqlar adı çəkilən tədbirlərə də artıq protokol qaydası kimi baxırlar. Halbuki, oxucu konfranslarının, müzakirələrin, disputların, görüşlərin ədəbi-bədii axşamların, viktorinaların, müsabiqələrin, sərgilərin, söhbətlərin, dərnək məşğələlərinin, gəzintilərin, ekskursiyaların, səhərciklərin müstəsna tərbiyəvi əhəmiyyəti var. Onların arxasında kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsinə kömək edən işlər çoxdur. Təəssüf ki, hamısı unudulub.

Bütün bunlar mənəvi tərbiyə işinin aktual problemləri olsa da, daha kəskin və qarşısıalınmaz problem qloballaşmadır. Fürsət tapıb ekrana çıxmış bəzi adamlar pafosla bəyan edirlər ki, bu gün biz qloballaşırıq... Görünür, onlar məsələnin mahiyyətini bir qədər üzdən başa düşürlər. Qloballaşma – milli dəyərlərin itirilməsi, milli özünəməxsusluğun, milli duyğuların, milli mənəviyyatın puç olub getməsi, vahid dünya evi və dünya adamının yaranması deməkdir. Bunun nəyi tərifəlayiqdir? Bu yalnız o dövlət üçün məqbuldur ki, onun zəngin tarixi, milləti yoxdur.

Məktəbəqədər yaşdan üzü yuxarı təhsilin bütün mərhələlərində milli-mənəvi tərbiyəni gücləndirməliyik. Böyüməkdə olan nəslin bu yönə istiqamətlənməsində böyük zəhmət çəkməyə qabil sinif müəllimləri bütün imkanlardan səmərəli istifadə etməli, sinifdənxaric oxuya üstünlük verməli, milli-mənəvi ruhlu sinifdənxaric tədbirlər keçirməli, onları təlim materialları ilə əlaqələndirməli, bu yolla ekran və efirlərdən, cəmiyyətin ziyanlı ünsürlərindən gələn təsirləri zərərsizləşdirməlidirlər.

Valideyn və cəmiyyətlə ünsiyyət bağları zəifləmişsə də, uşaq özünü meydanda tək hiss etməməlidir. Düz yolla gedənləri himayə edən böyük qüvvə var və onun elçisi demişdir: "Kiçik yaşlarda öyrənilənlər daş üzərinə həkk edilən yazıya bənzər..." Qoy uşaqlarımıza kiçik yaşlardan möhkəm,daş üzərinə yazılmış kimi silinməz saf mənəviyyat bəxş edək. Bu bizim borcumuz, onların haqqı, millətin müqəddəratıdır.

Ədəbiyyat


1. Azərbaycanın təhsil siyasəti (1998 – 2004). I hissə, Bakı, «Çaşıoğlu», 2005.
2. Həsənov A. "Məktəbəqədər pedaqogika". Bakı, «Maarif», 2000.
3. R.Əliyev. "Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları". Bakı, 2000

4. Y.Talıbov və başqaları. "Məktəblilərin milli mentalitet əsasında tərbiyə edilməsi". Bakı, 2004

**О воспитании у детей национального самосознания в дошкольном возрасте**
Резюме
В статье говорится о воспитании у детей национального самосознания при учереждениях дошкольного образования.

**On the education of children of national identity in pre-school age**
Summary
The article deals with national self – cognition education of the children at pre – school educational institutions.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏTRAF ALƏMLƏ TANIŞ EDİLMƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

**Təranə Sadıqova,**
ADPU-nun müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru;
**Adilə Məmmədova,**
RTPİ-nin böyük elmi işçisi





Məktəbəqədər yaş dövrünün sonuna yaxın uşaqlar müəyyən bilik ehtiyatına yiyələnirlər. Bu, əsasən ətraf aləm haqqında ilkin təsəvvürlər olur. Məktəbəqədər yaş dövründə uşaqlara sistem şəklində verilən biliklər onlarda təfəkkürün formlaşması üçün zəruri şərtdir.

Biliklərin müvafiq ehtiyatı uşaq şəxsiyyətinin, onun davranışının, təlim fəaliyyəti üçün lazım olan keyfiyyətlərin (diqqətli olmaq, dinləmək və tapşırığı yerinə yetirmək, özünün və yoldaşının işinin nəticəsini qiymətləndirmək) formalaşmasına təsir göstərir. Beləliklə, məktəbə hazırlıq zamanı yalnız savad təlimi və sayla əlaqədar biliklərin verilməsi ilə kifayətlənmək düzgün deyil. Uşaq ətraf aləm haqqında sistemli biliklər almalıdır. Prof.Y.Ş.Kərimov haqlı olaraq yazır: «Məktəbəqədər yaşlı uşaqların ətraf aləmdə gördükləri əşyaların adlarını yadda saxlamaları ilə kifayətlənmək olmaz. Onlar həmçinin əşyalar və

hadisələr arasında müxtəlif əlaqələri müəyyənləşdirməyi də bacarmalıdırlar. Bu dövrdə uşaqlar sadə, bioloji, fiziki, ictimai hadisələrin mahiyyətini dərk etməlidirlər. Ona görə də uşaqları canlı və cansız aləmin müxtəlif sahələrinə daxil etmək lazımdır. Məktəbəqədər dövrün vəzifəsi bir tərəfdən uşağı məktəb proqramına yaxınlaşdırmaq, digər tərəfdən onun öz maraq dairəsinə, ehtiyacına uyğun proqram yaratmasına imkan verməkdir». (Kərimov Y.Ş. Uşaq məktəbə gedir. "Nağıl evi", Bakı, 2002, səh.70-71.)

Uşaqlarda ətraf aləm haqqında təsəvvürlər formalaşdırarkən bəzi pedaqoji tələblərə əməl olunmalıdır. Müvafiq mövzu ilə bağlı uşaqların böyük qrupda aldıqları biliklər, məktəbəhazırlıq qrupunda zənginləşdirilməli və möhkəmləndirilməlidir. Uşaqlar orta və böyük qruplarda şəhərin görməli yerləri ilə tanış olurlar. Məktəbəhazırlıq qrupunda bu təsəvvürləri möhkəmləndirmək və ümumiləşdirmək üçün avtobusla ekskursiya təşkil etmək olar.

Yadda saxlamaq lazımdır ki, ictimai həyatla bağlı olan mövzular - «Vətənimiz», «Bakı vətənimizin paytaxtıdır», «Yaşlıların əməyi», «Milli Ordumuz», «Milli Qəhrəmanlarımız», «Şəhidlər» və s. bir-biri ilə sıx əlaqədardır.

Hər mövzunu keçərkən diqqət əsas məsələyə yönəldilməlidir. K.D.Uşinski obrazlı şəkildə demişdir ki, ağıl – yaxşı təşkil olunmuş bilikdir. Məktəbəqədər yaş dövründə uşaqlar böyük hissi təcrübə toplayırlar və onlarda yalnız yeni təsəvvürlər formalaşdırmaqla kifayətlənmək olmaz. Hər mövzuda bir neçə əsas məsələni ayırd etmək lazımdır. Belə ki, «Milli Ordumuz», «Milli Qəhrəmanlarımız», «Şəhidlər» mövzularını keçərkən əsas diqqət vətənə məhəbbət, Milli Orduya və Milli Qəhrəmanlara, şəhidlərə hörmət və qəhrəman olmaq arzusunun formalaşdırılmasına yönəldilməlidir.

Tərbiyəçilərə kömək məqsədilə bir məşğələ nümunəsi təqdim edirik.

**Mövzu: «Şəhidlər»**

**Proqram məzmunu:** Uşaqlarda torpaqlarımızı zəbt etmiş, xalqımıza qarşı dəfələrlə soyqırımı törətmiş erməni faşistlərinə nifrət hissi oyatmaq, onların 20 Yanvar hadisələri, şəhidlər haqqında bildiklərini möhkəmləndirmək, vətən uğrunda canlarını qurban verən şəhidlərə hörmət və məhəbbət tərbiyə etmək.

**Fənlərarası əlaqə:** nitq inkişafı, təsviri incəsənət, musiqinin imkanlarından istifadə etmək.

**Metod və priyomlar:** uşaqlarla ünsiyyəti dialoq formasında aparmaq, əqli hücum və söz assosiasiyalarından, oyun metodlarından istifadə etmək. Uşaqların fəaliyyətini pedaqoji əməkdaşlıq əsasında təşkil etmək.

**Əyani vəsait:** şəhidlər haqqında albom.

**Fərdi yanaşma:** qabiliyyətli uşaqları müşahidə etmək, çətinlik çəkən uşaqlara kömək göstərmək.

**Qiymətləndirmə:** məşğələni sərbəst təhlil etmək bacarığını öyrətmək, əldə edilən nəticələri müqayisəli qiymətləndirmək bacarığı yaratmaq.

**Məşğələnin gedişi**

Məşğələdən əvvıl tərbiyəçi Şəhidlər Xiyabanına ekskursiya təşkil edir, uşaqları 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş komplekslə tanış edir, «Xocalı», «Qarabağ» və s. sənədli və bədii filmlərdən fraqmentlər, diafilmlər göstərir.

Tərbiyəçi həzin musiqi sədaları altında Ə.Naxçıvanlının «Şəhidlər Xiyabanı» şerini söyləyir:

Sinə gərib dünyanın
Payızına, qışına,
Həmişə qərq olubdur
Gül-çiçək yağışına
Şəhidlər Xiyabanı.

Məzarlar doğma, yaxın,
Məzarlar yan-yanadır.
Övladlarına ağı
Deyən müdrik anadır
Şəhidlər Xiyabanı...

Tərbiyəçi uşaqlara aşağıdakı suallarla müraciət edir:

– Uşaqlar, şeirdə nədən bəhs olunur?
– Şəhidlər Xiyabanına ziyarətə gedərkən siz orada nə gördünüz?
– Onlar kimin məzarlarıdır?
– Onlara nə üçün şəhid deyirlər?
– Şəhidlərdən hansıların adlarını bilirsiniz?
– Xalqımız nə üçün oranı müqəddəs yer hesab edir?

Tərbiyəçi bu qayda ilə uşaqlara suallar verir, mövzu ətrafında diskussiya aparır.

Tərbiyəçinin təklifi ilə uşaqlar şəhidlər haqqında şeir söyləyirlər:

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

İnsan insan olur öz hünərilə,
Millət millət olur xeyir-şərilə.
Torpağın bağrına cəsədlərilə,
Azadlıq toxumu əkdi şəhidlər.

B.Vahabzadə

Tərbiyəçi:

– Uşaqlar, Azərbaycan Respublikası öz müstəqilliyini və azadlığını qanı bahasına əldə etmişdir. Xalqımız işğal olunmuş torpaqlarımızı erməni qəsbkarlarından azad etmək uğrunda mübarizə aparır.

1990- cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu xalqımızın qəlbinə dağ çəkdi. 20 Yanvar günü Azərbaycan xalqının yaddaşında zorakılıq, güllələrin uçuşu, körpələrin, gənclərin, qocaların tanklar altında məhv olması günü kimi qalmışdır. Bu gün Azərbaycan xalqının ayılan, özünü yenidən dərk edən günüdür. Silahsız gənclərimiz sovet əsgərlərinin

qarşısını kəsərək öz ölümləri ilə onlara qalib gəldilər. Həmin gecə Azərbaycan şəhid qanı ilə dünyada tanındı.

Şəhidlər Vətənin azadlığı uğrunda özlərini qurban verdilər. Bakının küçələri qırmızı qərənfillərlə dolmuşdu. Sanki qərənfillər də şəhidlər üçün ağlayırdı.

Cavanlara qıydılar,
Tanklar altda qoydular.
Qanın içib doydular,
Ağla, qərənfil ağla!

Bu günahsız qanlara,
Bu didilmiş canlara,
Bu cansız cavanlara,
Ağla, qərənfil, ağla!

O gündən xalqımız həmin günü – 20 Yanvarı matəm kimi qeyd edir. Azərbaycan xalqı isə şəhərin ən uca yerində Şəhidlər Xiyabanı yaratdı.

Ermənilərlə müharibədə xalqımız çoxlu şəhid verib. İndi Bakıda və rayonların hamısında Şəhidlər Xiyabanı var. Ən böyük Şəhidlər Xiyabanı isə Bakıdadır. Xalqımız heç zaman şəhidlərimizi unutmayacaq.

Tərbiyəçi Məhəmməd Peyğəmbərin «Ölümlərin ən şərəflisi şəhid ölümüdür» kəlamını uşaqlara çatdıraraq şəhidliyin müqəddəsliyini onlara izah edir. Tərbiyəçinin təklifi ilə uşaqlar «Şəhidlər», «20 Yanvar» mövzusunda şəkillər çəkir, bir-birlərinin rəsmlərinə münasibət bildirirlər. Məşğələ uşaqlarla birlikdə qiymətləndirilir və yekunlaşdırılır.

Uşaqlara yeni biliklər verilərkən onların təcrübələrini və təəssüratlarını nəzərə alaraq işi düzgün təşkil etmək çox vacibdir. Hər mövzu ilə əlaqədar tərbiyəçi bir- neçə ekskursiya, müşahidə təşkil etməlidir ki, uşaqlarda ictimai həyat hadisələri haqqında tam təsəvvür yaransın.

Uşaqlara hər şeyi ekskursiya, gündəlik müşahidələr zamanı göstərmək mümkün olmadığından onların təsəvvürlərini şəkillər, diafilmlər, slaydlar vasitəsilə də zənginləşdirmək olar.

Uşaqların əldə etdikləri biliklər onların fəaliyyəti ilə əlaqələndirilməlidir. Bunun üçün tərbiyəçi məşğələyə əvvəlcədən ciddi hazırlaşmalı, uşaqların yaddaşında daha əhəmiyyətli olan məsələləri möhkəmləndirməlidir.

Məktəbəhazırlıq qrupunda ekskursiyalar zamanı müşahidələr tapşırıqlarla növbələşdirilməlidir. Fəallığın müxtəlif formaları materialın yaxşı mənimsənilməsinə kömək edir. Uşaqlar müşahidə zamanı gördüklərini rəsm, gil işi prosesində əks etdirirlər. Məqsədli gəzintilər, ekskursiyalar, əmək fəaliyyəti, gündəlik müşahidələr zamanı toplanan bilik və təəssüratlar, əxlaqi söhbətlər məşğələ prosesində ümumiləşdirilir və sistemləşdirilir.

Ədəbiyyat

1. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. "Nağıl evi", Bakı, 2002.
2. Usova A.P. Obuçenie v detskom sadu, "Prosvehenie", M.,1981.
3.Sadıqova T.B. Məktəbəhazırlıq qrupunda ətraf aləmlə tanışlıq üzrə məşğələlər. Bakı, 2008.

**Система работы по ознакомлению детей дошкольного возраста с окружающим миром**

Резюме

В статье отмечается важность периодического ознакомления детей дошкольного возраста с окружающим миром. Отмечаются некоторые педагогические требования в связи с формированием у дошкольников представлений об окружающем мире. В помощь воспитателям приводится образец урока, содержание которого связано с данным вопросом. Так же указывается на постановку вопроса в группах подготовки к школе.

**The system works to educate pre-school children with the outside world**

Summary

The article notes the importance of periodic review of preschool children with the outside world. There have been some pedagogical requirements in connection with the formation of representations in preschool children about the world. To help educators give a sample lesson, the content of which is connected with the matter. Also points to raise the question of the preparatory group for school.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏXLAQ TƏRBİYƏSİNDƏ NAĞILLARDAN İSTİFADƏ

**Könül Gülməmmədova,**

Sumqayıt şəhəri, 3 nömrəli orta məktəbin müəllimi



Məktəbəqədər yaşlı uşaqlarda əxlaq tərbiyəsinin təməlinin qoyulması üçün ilkin psixoloji,sosial-pedaqoji, etik-fəlsəfi şərtlərin kəsişmə nöqtəsi düzgün qiymətləndirilməlidir. Müxtəlif folklor nümunələrinin uşaqlara oxunması, onlara öz «mən»ini müəyyənləşdirməyə və təsdiq etməyə imkan verir. Uşaqlarla işin məzmunu və yolları (əsərlərin ucadan oxunması, xalq yaradıcılığı nümunələrinin səhnələşdirilməsi, məşğələlərdə onlardan istifadə və s.) tədqiqat predmetinin spesifikliyi ilə müəyyənləşir.

Tərbiyəçi və müəllimlər xalq yaradıcılığı nümunələrini uşaq şəxsiyyətinin hərtərəfli tərbiyə olunma vasitəsi və forması kimi görürlər.

Xalq yaradıcılığı tərbiyə sahəsində əsrlər boyu əldə edilmiş təcrübəni, fikir və ideyaları özündə cəmləşdirən mənəvi sərvətdir. Kiçik və böyüklüyündən asılı olmayaraq hər bir xalq özünün yüksək maddi və mənəvi mədəniyyətini yaradır və dünya xalqları mədəniyyətinin inkişafına öz töhvəsini bəxş

edir. Tərbiyə məsələləri üzrə ayrı-ayrı xalqların irəli sürdükləri qiymətli ideyalar arasında son dərəcə yaxınlıq, oxşarlıq vardır.

Folklorumuzda yalnız tərbiyə ideyaları deyil, xalq həyatının digər cəhətləri – tarixi, adət-ənənəsi, etnoqrafiyası, pedaqogikası və s. əks olunduğundan xalq yaradıcılığı nümunələrinin araşdırılması və dərindən öyrənilməsi elm üçün qiymətli faktlar verir.

Azərbaycan şifahi xalq yaradıcılığı nümunələrindən biri olan nağıllar kəmiyyət etibarilə coxluq təşkil etdiyi kimi, mövzu cəhətdən də rəngarəngdir.Nağılların əsas qayəsi uşaqlarda qorxmazlığı, ağıl və təfəkkürü, fantaziyanı, ədaləti, mehribanlığı, səmimiliyi, iradəliliyi tərbiyə etməkdir. «Şəngülüm, Şüngülüm, Məngülüm», «Cırtdan», «Məlikməmməd», «Qoca canavar», «Göyçək Fatma» və digər nağılları buna misal göstərmək olar.

Nağıllarda Azərbaycan xalqının fəlsəfi-mifik təfəkkürünə əsaslanan iki qüvvə, iki dünyagörüşü – xeyir və şər qarşılaşır. İnsanlar həmişə bu iki qüvvə arasında inkişaf edir, yaxud məhv olurlar. Xeyirxah insanlar, günəş, işıq, su, süd verən heyvanlar, barlı ağaclar xeyir allahı Hörmüzə, bədxah, paxıl insanlar, qaranlıq, tufan, qara buludlar şər allahı Əhrimənə qulluq edir. Xalqımızın yaratdığı nağıllarda,əfsanələrdə xeyir həmişə şərə üstün gəlir. Bu fikir böyüyən nəsli xeyirxahlığa, insani və bəşəri keyfiyyətlərə sövq edir.

Nağıllarda cərəyan edən hadisələr, xeyirin şər, işığın qaranlıq üzərində qələbəsi uşaqlarda optimist əhvali-ruhiyyə yaradır. Nağıl qəhrəmanlarının göstərdikləri qoçaqlıq, şücaət, mərdlik və digər müsbət keyfiyyətlər məktəbəqədər yaşlı uşaqların yaddaşında dərin iz buraxır. Bu nağılları uşaqlara sadəcə nəql etməklə kifayətlənmək olmaz, eyni zamanda bu nümunələrdən məşğələ, gəzinti, əyləncə və səhərciklərdə istifadə etmək, onlardakı personajların rəsmlərini çəkmək, gildən, plastilindən fiqurlarını düzəltmək, applikasiyalar kəsmək məqsədə uyğundur. Məktəbəqədər yaşlı uşaqların əxlaqi şüurunun, davranış tərzinin formalaşmasında da folklor nümunələri maraqlı bir məktəbdir.

Sehrli nağıllar çox qədim olub, onlarda insanın təbiət qüvvələrinə inamı, vəhşi heyvanlara qarşı mübarizəsi, bir çox ağacların, meyvələrin müqəddəsliyi təsvir olunur: «Məlikməmməd», «Tapdıq», «Cırtdan», «Ağ atlı oğlan», «Uçan xalça» və başqa nağıllarda hadisələr qeyri-adi, fövqəltəbii şəkildə cərəyan edir. Burada adi insanlarla yanaşı, qeyri-adi vəhşi heyvanlar və ya fantastik obrazlar (div, əjdaha və s.) da təsvir olunur. Bu nağıllarda uçan xalça, qanadlı at, gözə görünməyən papaq, sehrli üzük, bərəkətli süfrə, həyat və ölüm suyu, sehrli quş, insanı cavanlaşdıran alma, xəstəliklərin dərmanı və s. qəhrəmanların şər qüvvələrə qarşı mübarizəsinə və qələbəsinə kömək edir.

Nağıllar, adətən, nəsr ilə yazılır, lakin uşaqlar üçün mənzum nağıllar da var. «Üşüdüm ha,üşüdüm» adı ilə məşhur olan düzgü, əslində, mənzum nağıldır.

Azərbaycan xalqı əmin olmuşdur ki, gənc nəslə çatdırılan xalq yaradıcılığı nümunələri təsirsiz qalmır,uşaq və yeniyetmələr onları həvəslə mənimsəyir, hazırlıqlı və məlumatlı olurlar. Nağıllar uşaqları daha məntiqli danışmağa alışdırır, doğma dilin nə qədər zəngin və maraqlı olduğunu göstərir.

Folklor xalqın mənəvi ehtiyacını ödəyən yeganə sənət növü olduğu zamanlarda ailədə uşaqlara, ən çox danışılan nağıl olmuşdur. Azərbaycan folklorunun elə bir janrı yoxdur ki, orada gənc nəslin mənəvi tərbiyəsinə xüsusi yer verilməsin. Bayatılarda, atalar sözlərində, məsəllərdə, nağıllarda, dastanlarda tərbiyə mövzusu yüksək sənətkarlıqla, xüsusi məhəbbətlə işlənmişdir.

Nağıllarda vətənə, xalqa məhəbbət, pisliyə, xəyanətə, qorxaqlığa nifrət hissləri aşılanır. Uşaqlara düzlük, əməyi sevmək, sənət və elm öyrənmək tövsiyə olunur. Ümumiyyətlə, xalq ədəbiyyatının əsas motivləri maraqlı, nisbətən bəsit kompozisiya, sadə və cəlbedici bir dildə uşaq folkloru nümunələrində də təkrar olunur. Uşaqlar üçün yaradılmış təmsil-nağılların müsbət obrazları ədalət mücəssəməsi kimi təqdim edilir. Onların mübarizə apardıqları şər qüvvələr mütləq ölümə məhkum olurlar. Həyatın inkişafı bu təbəqələri qəbul etmir. Onlar şərin, fənalığın rəmzi olduqlarına görə xeyir, yaxşılıq, günəş onları məğlub edir.

Bu xüsusiyyət uşaq nağıllarının əksəriyyətində («Tülkü,tülkü, tünbəki», «Tülkü baba və Hacıleylək», «Tülkünün kələyi», «Pıspısa xanım və Soluq bəy», «Cırtdan» və s.) özünü göstərir. «Cırtdan» nağılının əsas ideyası qorxmazlıq, uşaqlara çətinlikdən baş çıxarmağı öyrətməkdir. Nağılın qəhrəmanı Cırtdan insanlara qənim kəsilən, onları yeyən qorxunc divə qalib gəlir. Divi çaydan xəlbirlə su gətirməyə göndərir. Nağılın sonunda oxuyuruq: «...Div xəlbiri nə qədər suya salıb qaldırdısa, gördü ki, xəlbirdə su qalmır. Axırda təngə gəlib qayıtmaq istəyəndə çayın o tərəfindən gələn uşaqları gördü...

– Ay uşaqlar, sudan necə keçdiniz ?

Cırtdan tez cavab verdi:

– Get bir dənə dəyirman daşı tapıb, boynuna keçir, özünü suya at, onda keçərsən...»

Beləliklə, Cırtdanın təklifi ilə div çayda boğulub ölür.Uşaqlara balaca bir oğlanın öz ağlı və fərasəti ilə divi necə məğlub etməsi başa salınır.

Nağıllar uşaq aləminə, onun fikir və düşüncələrinə olduqca yaxındır. Nağıllar vasitəsilə uşaqlar ana təbiətin gözəlliyini, heyvanlar aləmini, onların insan üçün faydalı olmasını öyrənirlər. Təbiət gözəlliyinin şairanə təsviri uşaqlara dilimizin bütün incəliklərini öyrədir. Nağıllardakı lirik təsvirlər, dramatizm, satirik boyalar, şirin təhkiyə tərzi uşaqlarda böyük maraq oyadır.

Sehrli nağıllar körpəlikdən uşaqları fantastik aləmlə tanış edir, onların həyatın romantikasını duymalarında əsas bədii vasitəyə çevrilir. Məhz bu keyfiyyətlərinə görə Azərbaycan şifahi xalq ədəbiyyatı tükənməz yaradıcılıq mənbəyi olmuş, xüsusilə uşaq ədəbiyyatının yaranmasında onlara zəngin və rəngarəng mövzular vermişdir.

Uşaqlarımız üçün romantik əsərlər yaradılmasında ən gözəl mənbələr bizim nağıllarımız və əfsanələrimizdir. Müdrük babalarımız, ağbirçək nənələrimiz sözdən çox böyük məharətlə istifadə edərək dərin mənalı, fəlsəfi, psixoloji ümumiləşdirmələri son dərəcə sadə şəkildə və adi sözlərlə ifadə etmişlər. Onların yaratdıqları minlərlə bayatılar, atalar sözləri, məsəllər, atmacalar, lətifələr və s. nəsillərdən-nəsillərə keçib gələrək bu gün də xalqın dilinin əzbəridir. Bütün bu keyfiyyətlər məktəbəqədər yaşlı uşaqlara məhz folklor nümunələri, xüsusilə, nağıllar vasitəsilə aşılanır. Uşaqların bu nümunələrdən qaynaqlanaraq formalaşması sağlam gəncliyə təminatdır.

Ədəbiyyat

1. Azərbaycan nağılları. 2-ci cild. Bakı, Azərbaycan Respublikası EA-nın nəşriyyatı, 1961.
2.Əlizadə Ə.Ə. Azərbaycanda güzəran psixologiyası məsələləri. Bakı, 1994.
3.Ə.Ş.Həşimov, F.B.Sadıqov. Azərbaycan xalq pedaqogikası. Bakı,1993.
4.N.Rzayev. Əcdadların izi ilə. Bakı , 1992.
5. K.Vəliyev. Elin yaddaşı, dilin yaddaşı. Bakı, «Gənclik», 1987.

**Использование образцов народного творчества в нравственном воспитании детей дошкольного возраста.**

Резюме

В статье рассматривается одна из актуальных проблем педагогики–проблема влияние народного творчества на нравственную воспитанию детей дошкольного возраста. Автор обосновывает актуальность данной темы. Указывает пути совершенствования форм и методов дошкольного нравственного воспитания.

**Using samples of folk art in the moral education of preschool children.**

Summary

The article deals with one izaktualnyh problems of pedagogy, the problem of the influence of folk art in the moral education of preschool children. The author substantiates the relevance of the topic. Indicates ways of improving the forms and methods of pre-school moral education.

# OYUN UŞAQ ŞƏXSİYYƏTİNİN İNKİŞAFININ VASİTƏSİ KİMİ

**Kifayət Məmmədova,**
*ARTPİ-nin elmi işçisi*



Uşaqlar böyüdükcə onların ətraf aləmə, insanlara, özlərinə marağı artır və bütün bunlardan çoxlu suallar doğur. Hələ kiçik yaşlardan uşaqların tez-tez işlətdikləri "Nə üçün?" sualı böyüklər tərəfindən cavablandırılır, başa salınır. Böyüklərin izahı ilə bərabər uşaqlar özləri də çox vaxt sərbəst şəkildə əşya və hadisələr arasında baş verən səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyə çalışırlar.

Uşaqların idraki təcrübələrini inkişaf etdirmələri vacib şərtlərdəndir. Bu, əsasən, oyun prosesində həyata keçirilir. Oyunun uşaqların həyatında böyük əhəmiyyəti vardır. Uşaqların təlim və tərbiyəsi, demək olar ki, oyundan başlayır.

Məktəbəqədər yaş dövründə oyun əsas fəaliyyət növü olub, uşağı daha çox cəlb edir. Oyunda xarakter, arzular, ümidlər əks olunur. Oyun uşağa sevinc gətirir. Bunun əsas səbəbi yaradıcılıq sevinci, yaxud oyun zamanı əldə edilən uğurdur. Bütün bu hisslər uşağı çox fərəhləndirir və onun fəallığını artırır.

Düzgün təşkil edilmiş oyun böyüyən nəslin psixi proseslərini formalaşdırıb, fiziki inkişafına şərait yaratmaqla bərabər, həm də uşaqlarda səbirlilik, dözümlülük, qayğıkeşlik, mehribanlıq, dostluq, yoldaşlıq, insanpərvərlik, əməksevərlik və s. kimi nəcib əxlaqi keyfiyyətləri tərbiyə edir. Uşaq oyunlarına rəhbərlik zamanı diqqət yetirmək lazımdır ki, oyun yalnız əylənmə vasitəsi olmasın, uşaq oyunda həyatı öyrənsin, tərbiyə olunsun və psixi cəhətdən inkişaf etsin.

Oyun prosesində uşaqlar öyrənir, inkişaf edir və yetkinləşirlər. Bu səbəbdən məktəbəqədər təhsil müəssisələrində oyunların planlı və sistemli şəkildə həyata keçirilməsi uşaqların şəxsiyyətinin formalaşmasına güclü təkan verir.

Uşaqlar oyunda ictimai əlaqələri əks etdirir, oyunun qaydalarına riayət etmək, məsuliyyətli olmaq və qarşılıqlı əməkdaşlıq etmək məcburiyyətində qalır, ictimai həyata hazırlanırlar.

Eksperimental tədqiqat zamanı müəyyən edilmişdir ki, oyun məktəbəqədər yaşlı uşağın davranışına böyük təsir göstərir, bu prosesdə onun fəal sosiallaşması baş verir. A.V.Zaporojes qeyd edirdi ki, oyun məktəbəqədər yaşlı uşaq üçün ilkin fəaliyyət formasıdır. O, hərəkətlərin yenidən hasil olmasına və təkmilləşməsinə imkan yaradır.

Uşaqların oyununa səthi, barmaqarası baxılmamalı, ciddi yanaşılmalı, yəni oyunla real həyat arasında böyük məsafə olduğu düşünülməməlidir. Oyun əməyə

hazırlıq olub, əməklə əvəz edilir. Biz çox vaxt oyunun əməyə, əməyin isə oyuna necə çevrildiyini hiss etmirik. Oyunla əmək arasındakı bu cür bağlılığın nəticəsidir ki, uşaq oyun prosesində əmək vərdişlərinə yiyələnir və onda əməyə məhəbbət hissi formalaşır.

Görkəmli pedaqoq A.S.Makarenko oyun haqqında yazır: "Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər əhəmiyyətlidir. Uşaq oyunda necədirsə, sonra işdə də bir çox cəhətdən elə olacaqdır. Ona görə də uşağın tərbiyəsi, hər şeydən əvvəl, oyun prosesindən keçir".

İstənilən halda oyun körpəlikdə qazanılan fəaliyyətdir. Dörd aylıq uşaqlar əl-qol ataraq, əlləri ilə oynayır, altı aylığında isə atrıq ətrafda, döşəmədə olan hər şeyə doğru dartınır, onlarla oynamağa çallışır. Bir neçə aydan sonra iməklədiyi üçün onun oyun meydançası da genişlənir. Uşaq oyununun mühüm əlaməti odur ki, o, oyuna daha çox aludə olur. Oyun prosesində uşaq ətrafdakı hər şeyi – yeməyi, yuxunu, səs-küylü real həyatı unudur. Belə anlarda o, sanki başqa aləmdə yaşayır. Bütün bunlar uşaqların emosionallığını artırır. Uşaqları həmin aləmdən ayırdıqda onlar əsəbi gərginlik keçirir, bəzən ağlayırlar. Belə halların yaranması təəccüblü deyil. Onların xəyalən yaratdıqları aləm, obrazlar dağılır. Böyüklər uşağı oyundan ayırdıqda sanki iki aləmin toqquşması baş verir. Böyüklərin nəzərincə, uşaqlar sadəcə oynayırlar, lakin onların fikrincə, indi onlar daha *mühüm* işlərlə məşğuldurlar, məsələn, onlar yemək yeməli, gəzməyə getmək üçün hazırlaşmalıdırlar və s. Uşaqları qəflətən oyundan ayırmaq olmaz. Bunun üçün onlara oyunlarını yekunlaşdırmalarını əvvəlcədən xəbərdar etmək və onların daxili hazırlıqlarına imkan vermək lazımdır ki, bir fəaliyyətdən digərinə sakitcə keçə bilsinlər.

Məktəbəqədər dövrdə oyunları süjetli-rollu, didaktik, hərəkətli, psixo-gimnastik, intellektual və s. növlərə ayırmaq olar. Uşaqlar bu oyunlarda fəal iştirak edirlər. Oyun prosesini müşahidə etdikdə uşaqların yüksək əhvali-ruhiyyəsi bunu deməyə imkan verir ki, ən yaxşı texniki oyuncaqlar belə uşaqların məktəbəqədər yaş dövründə oynadıqları oyunları əvəz edə bilməz.

Məktəbəqədər yaşlı uşaqların əqli fəallığının inkişafı qayğısına qalarkən, ən başlıca vəzifə onlarda qavrayış, obrazlı təfəkkür, təxəyyül və idrakın inkişaf etdirilməsidir. Bütün bunlara rəsm, quraşdırma, yapma məşğələlərində oyunlara bacarıqla rəhbərlik nəticəsində nail olmaq mümkündür.

Valideynlər uşağın inkişafında oyunun əhəmiyyətini nəzərə almadan, sadəcə olaraq, uşaqların oynamalarını xoşlayırlar, çünki uşaqlar oynayarkən valideynlər istirahət edir, ya da öz işləri ilə məşğul olurlar. Bu səbəbdən də onlar uşaqları oyuncaqlarla daha çox təmin edirlər. Valideynlər bilməlidirlər ki, oyuncaqları seçərkən onların yalnız əyləncə xarakteri daşıması deyil, həm də inkişafetdirici xarakteri nəzərə alınmalıdır.

Uşaqların oyunlarında əsas cəhət sosial münasibətləri əks etdirən tapşırıqların tətbiq edilməsidir. Onlar öz oyunlarında ata, ana, bacı, qardaş, yaxud

müxtəlif peşələri və ya eşitdikləri nağılların qəhrəmanlarını əks etdirən rolların ifaçısına çevrilirlər. Əgər uşağa evdə ən əziz adam kimi baxılırsa, onun maraqları digərlərindən üstündürsə , kollektivdə ona kollektivin bir üzvü kimi baxılır. Bu hal valideyn, nənə, baba üçün faciə kimi qəbul olunur. Əslində kollektiv oyunlar uşaqlar üçün həyat məktəbi olub onları müstəqil həyata hazırlayır. Kollektivlə ünsiyyət zamanı uşaq artıq hiss edir ki, evdə olduğu kimi, kollektivdə də birinci deyil. Kollektiv oyunlar uşaqlarda qaydalara tabe olmaq, öz maraqlarını yoldaşları ilə paylaşmaq, təvazökarlıq, başqalarını başa düşmək və s. kimi xüsusiyyətlər formalaşdırır.

Valideynlər çalışmalıdırlar ki, uşaqların oyunlarına yersiz müdaxilə etməsinlər. Əgər uşaqlar oyun zamanı mübahisə edirlərsə, ancaq o zaman onların oyunlarına qarışmaq, mübahisəni düzgün istiqamətləndirmək lazımdır. Belə hallarda uşaqlara başa salmaq lazımdır ki, yersiz mübahisə etsəniz, oynamağa vaxtınız qalmaz. Uşaqlar öz dostları ilə mehriban oynayarkən valideynlər çox rahat olurlar. Bəzən onların özləri də uşaqların inkişafı üçün müəyyən oyunlar təşkil edir və birgə oynayırlar.

Oyun uşaqların rastlaşdıqları bir çox problemlərin həllində səmərəli vasitədir. Sözə qulaq asmayan, çətin idarə olunan uşaqları tez-tez ciddi qaydaları olan oyunlara cəlb etmək lazımdır. Belə oyunlar prosesində çətin xarakterli uşaqlar oyunun ciddi qanunlarına tabe olmağa və bunu öz hərəkətlərində əks etdirməyə çalışır, beləliklə də qanun-qaydaya uyğunlaşırlar.

Bəzən uşaqların məktəbə hazırlıq dövründə oyunlarla çox məşğul olmaları valideynləri narahat edir. Onlar düşünürlər ki, uşaqlar oyundan ayrılıb, məktəbə, yeni mühitdəki qayda-qanunlara çətin uyğunlaşacaqlar. Belə problemlərin yaranmaması üçün uşaqlarla daha çox məktəb mövzusunda oyunlar təşkil etmək lazımdır. Bütün bunlar uşaqlarda məktəbə və müəllimə maraq, məhəbbət hissi tərbiyə etməklə yanaşı, onların gələcək məktəb həyatına hazırlanmalarını da təmin edir.

Elə uşaqlar da var ki, onlar artıq kiçik məktəb yaşı dövründə də oyuna çox vaxt ayırır və ondan uzaqlaşa bilmirlər. Buna səbəb isə valideynlərin uşaqların oyununa düzgün nəzarət etməmələridir. Bu cür problemlərin yaranmaması üçün uşaq oyunlarına rəhbərliklə bağlı valideynlərdən aşağıdakılar tələb olunur:

- valideyn uşağa nəzarəti artırmalı və çalışmalıdır ki, oyun uşağın yeganə məşğuliyyətinə çevrilməsin;
- hər hansı oyun zamanı uşaqda fəaliyyət üçün zəruri psixi və fiziki bacarıqlar tərbiyə olumalıdır.

Deməli, valideynlər uşaqları gün ərzində oyundan başqa digər fəaliyyət növləri ilə də məşğul olmağa istiqamətləndirməli, hər hansı oyunun seçilməsində, yaxud oyun prosesində qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında yaxından kömək etsinlər.

Uşaqların oyununa rəhbərlik zamanı valideynlərin yanlış hərəkətlərinin şahidi oluruq. Belə valideynləri aşağıdakı kimi təsnif etmək olar:

1. Bəzi valideynlər övladlarının oyunları ilə maraqlanmırlar, və oyunun tam məsuliyyəti uşaqların öz üzərinə düşür. Uşaqlar hansı mövzuda, necə oynayacaqlarını özləri müəyyənləşdirir, oyuncaq seçir, oyunu təşkil edirlər.

2. Digər valideynlər uşaqların oyununa daha çox diqqət yetirir və müdaxilə edir, xeyli sayda oyun tapşırıqları verir, çox vaxt tapşırığı yerinə yetirməkdə onlara sərbəstlik vermirlər. Belə mühitdə böyüyən uşaqlarda öz güclərinə inamsızlıq, uğursuzluqdan çəkinmək, xoşagəlməz baş qaldırır.

3. Bəzi valideynlər isə oyun prosesində oyuncaqların miqdarının çoxluğunu əsas götürürlər. Bu cür şəraitdə oynayan uşaq tez-tez oyuncaqlarını dəyişir, həvəssiz oynayır, oyuncaqları sındırır, hər dəfə yenisini tələb edir.

Göründüyü kimi, valideynlərin bu cür səhvlərə yol verməleri oyunun köməyi ilə uşaqların şəxsiyyət kimi formalaşmalarına mənfi təsir göstərir. Ona görə də valideynlər oyunun istiqamətləndirilməsi üçün uşağın oyununa daha düşüncəli şəkildə yanaşmalıdırlar. Böyüklərin rəhbərliyi altında düzgün təşkil olunmuş oyun uşağın şəxsiyyətinin inkişafına və fəaliyyətinin bütün sahələrində onun fəallığının artmasına təsir edən ən güclü vasitəyə çevrilir.

Ədəbiyyat

1. Talıbov Y.R «Uşaqlarımızın səadəti naminə». «Maarif», Bakı, 1988.
2. Qədirov Ə.Ə. «Yaş psixologiyası». «Maarif», Bakı, 2002
3. А.В.Запорожец. Некоторые проблемы развития познавательных и волевых процесов у дошкольников. М., «Просвешение», 1956
4. Makarenko A.S. «Seçilmiş pedaqoji əsərləri». «Azərtədrisnəşr», Bakı, 1950
5. M.Muradxanov. «Məktəbəqədər pedaqoqika». «Azərnəşr», Bakı, 1964.
6. Bayramov Ə.S. «Şəxsiyyətin təşəkkülünün aktual psixoloji məsələləri». «Azərnəşr», Bakı, 1981.
7. Həmzəyev M.Ə. «Ailədə uşaqların oyunlarına rəhbərlik». «Maarif», Bakı, 1965.

**Игра как средство развития личности ребенка**

Резюме

Игра в дошкольном возрасте считается основным видом деятельности. Руководя во время детской игры надо обратить внимание на то чтобы, игры были на только развлекательного характера, но и еще они учили детей к жизни, воспитывала и развивала их психику.

**Playing as a tool for development of the child**

Summary

Play kind of basic activities is considered in pre-school wet time. Administration time is necessary to pay attention to child play let him not be only means of the dallyinq? Let child learn the life in the play? Upbringing should be been and let him develop from the psychical side peculiarity. Play organized with administration of the adults is are powerful means influencing development of the personality of the child and to increasing in all areas of the activities of activity.

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ HƏNDƏSİ ANLAYIŞLARIN FORMALAŞDIRILMASI

**Azadxan Adıgözəlov,**
ADPU-nun riyaziyyat və onun tədrisi metodikası
kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor



*Açar sözlər:* Anlayış, nöqtə, düz xətt, parça, müstəvi, düz xəttə aid olan (olmayan) nöqtələr.

*Ключевые слова:* Понятие, точка, прямой, отрезок, плоскость, точки принадлежащие (не принадлежащие) прямой.

*Key words:* Consept, dot, straight line, piece, plane, dots pertaining (not pertaining) to right line.

Məktəb riyaziyyat kursunun tərkib hissəsini təşkil edən riyaziyyatın ibtidai kursunun öyrənilməsi bu fənnin sonrakı təlimi üçün möhkəm əsas yaradır. O, şagirdlərə proqramda nəzərdə tutulmuş bilik və bacarıqlar aşılamaqla yanaşı, onların riyazi inkişafının zəruri səviyyəsini də təmin edir. İbtidai siniflərdə şagirdlərin şüurunda real modeli əks etdirən materiallaşmış əyani modellər yoxdursa, onların şüurunda aksiomatik yolla bu və ya digər fiqur, həmin fiqurun mühüm xassələri haqqında fikir yarana bilməz. Müəllim, əlbəttə, şagirdlərdə fikirlərin, həm də modelləşdirilən obyektə aid anlayışın ixtiyari şəkildə yaranmasına əsaslanmır. Şagirdlərin qavrayışı və təfəkkürü müəllim tərəfindən əyani təsəvvürlərin köməyi ilə təşkil edilir. Bu isə modelin sadəcə hiss edilməsini deyil, anlayışın modeli üzərində əməliyyat aparılması əsasında yarandığını bildirir.

Belə hallarda, adətən, anlayışın formalaşdırılmasından bəhs olunur. Anlayışın formalaşdırılmasının başlanğıc mərhələsini fərqləndirmək əhəmiyyətlidir. Bu mərhələdə şagirdin təfəkkürü öyrənilən obyektin (modelin) mühüm xassələrini təhlil edir və onları bir çoxluqda birləşdirir. Bu başlanğıc mərhələdə şagirdin təfəkküründə anlayışın əmələ gəlməsi, sonra isə onun formalaşdırılması və inkişafı baş verir.

Anlayışın əmələ gəlməsi onun məzmunun öyrənilməsi və ona yiyələnmə ilə əlaqədardır. Formalaşma prosesi bu anlayışın məntiqi əlaqələrinin mənimsənilməsindən başqa, həm də onun həcminə yiyələnmə ilə xarakterizə olunur. Onu da qeyd edək ki, şagirdin təfəkküründə anlayışın əmələ gəlməsi qısa müddətdə (bir-iki dərsdə) baş verir, formalaşması isə təlimin sonuna qədər, bəzən daha çox davam edir.

Pedaqoji və yaş psixologiyası göstərir ki, anlayışın formalaşması və biliklərin mənimsənilməsi öyrənilən obyektlərin xassələri və əlaqələrinin aşkar edilməsi prosesində baş verir. Formalaşmanın başlanğıc mərhələsi –anlayışın əmələ gəlməsi haqqında danışdıqda bu göstərişin nəzərə alınması xüsusi əhəmiyyətə malikdir.

Görkəmli psixoloq V.V. Davıdovun aşağıdakı fikrini xatırlamaq yerinə düşər: uşaqlar yeni biliklərin əldə edilməsi zərurəti ilə anlayışları onların əmələ gəlməsinin əyani maddi şəraitinin nəzərdən keçirilməsi yolu ilə mənimsəməlidirlər. Anlayışlar, həm də onların tərifləri "hazır bilik" kimi verilməməlidir.

Əyanilik prinsipinin həyata keçirilməsi öyrənilən obyektlər sisteminin didaktik modellərinin seçilməsi deməkdir. Həndəsi anlayışların əmələ gəlməsi və formalaşması müəllim tərəfindən istiqamətləndirilən və məktəblinin tədris fəaliyyətinin məzmununu təşkil edən əşyanın başqa şəklə çevrilməsi əsasında baş verir. Belə fəaliyyət şagirdə anlayışın əmələ gəlməsini görməyə, tərifi (anlayışın təsvirini) ifadə etməyə, digər anlayışlarla əlaqələri müəyyən etməyə imkan verir. Təlimin müəyyən səviyyəsində əşyalar üzərində modellərlə maddi və qrafik əməllər müvafiq əqli və əyani modellər üzərində əməllərə, daha sonra anlayışlar üzərində əməliyyata keçir.

Anlayışların əmələ gəlməsi və formalaşmasında əyanilik, aydındır ki, hazır obyektin nəzərdən keçirilməsinə gətirmir; O, qeyd edildiyi kimi, operativ olmalıdır. Həndəsi fiqurun, həndəsi situasiyanın şagird tərəfindən konstruksiya edilən modelləri məhz bu keyfiyyətə malikdir.

Bu halda model müəyyən alətlərlə qurma məsələsinin həlli nəticəsində alınır.

Məsələnin şərti müəllim tərəfindən elə ifadə olunmalıdır ki, öyrənilən obyekt ilə modelin uyğunluğu təmin olunsun. Modelin konstruksiya edilməsi və tədqiqi şagirdin əvvəlki anlayışlardan istifadəsinə əsaslanır. Ona görə model onu yaradan şagirdin qavraması üçün sadəlik keyfiyyətinə malik olur.

Tədris əyani vəsaiti kimi qrafik model məsələnin verilən tələbləri haqqında şagirdə lazım olan bütün informasiyaları anlamağa imkan verir: məsələn, bərabər parçaların üzərində bərabər sayda işarələr, hansısa münasibətə görə müqayisə olunan fiqurlar üzərində sual işarəsi qoyulur. Ədədi verilənləri çertyojda qeyd etmək faydalıdır. Didaktik modelə verilən sadəlik tələbi ondan ibarətdir ki, çertyoj əlavə verilənlərlə yüklənməməlidir. Bəzən anlayışın və ya təklifin mahiyyətini göstərən bir çertyoj əvəzinə ardıcıl bir neçə çertyojun (kadrlar üzrə sxem) verilməsi faydalıdır. Qarşılıqlı tərs teoremləri bir cüt çertyojla müşayiət etmək əlverişlidir.

Tədris əyani vəsaiti şagirdi fəal tədris fəaliyyətinə təhrik edir, tədris probleminin qoyuluşu və həllində həm müəllimə, həm də şagirdə kömək göstərir. Çertyojun üzərində uyğun simvolika aparılması özlüyündə bu məqsədə xidmət edə bilməz.

Həndəsi obyekt çertyojda, modeldə elə verilməlidir ki, şagird mümkün qədər müstəqil şəkildə bu obyektin mühüm xassələrini görə bilsin. Digər hallarda tədris əyani vəsaiti şagirdi bu və ya digər tədris əməliyyatını yerinə yetirməyə təhrik edir, məlum anlayışa aid modeli çevirməklə daxil edilən anlayışa aid model yaradır. Bununla da şagird obyektin konkret xassələrini aşkara çıxarır, onun mühüm əlaqələrini təhlil edir.

Tədris əyani vəsaiti ayrı-ayrı, asılı olmayan xarakterik xassələrin sintezinə, onların tam halında birləşməsinə də kömək etməldiir. Bu da anlayışın məzmununa yiyələnməyə imkan verir. Sintezləşdirmə məzmunun sözlərlə ifadəsi vasitəsilə müşayiət edilir.

Tərifin məzmunu onun tətbiqi prosesində mənimsənilir, lakin əzbər söylənilməsi tələb olunmur. Əgər anlayışın əmələ gəlməsi artıq göstərilmişdirsə, bu anlayış şagird üçün mücərrəddən konkretə keçmə vasitəsi, tətbiq prosesində onlarla əməliyyat aparılması şagirdin fikri fəaliyyət metodu kimi özünü göstərir. Ona görə də bu növ fəaliyyətin məşqi üçün əyani vəsaitlərin olması zəruridir. Həmin vəsaitlərə öyrənilən anlayışa aid modeli və əks -modeli seçmək üçün təklif olunan plakatlar, diakodopozitivlər, diafilmlər aid edilə bilər. Nümunə üçün düz xətt anlayışının əmələ gəlməsi prosesini nəzərdən keçirək.

1-ci şəkildə düz xətt anlayışının əmələ gəlməsini təsvir edən diafilmdən bir kadr əks olunur. Uşaqlar üç cüt nöqtə qururlar. Əvvəlcə ilk iki nöqtədən ixtiyari, sonra isə alətin köməyi ilə xətt çəkilir. (Yazı taxtasında qurmalar diaproyeksiyada yerinə yetirilir). Düz xəttin birinci xarakterik xassəsi müəyyən edilir: iki nöqtədən yeganə düz xətt keçir.

Şagirdlər tədris fəaliyyəti yolu ilə lazım olan obyekti aşkar edir, onun necə "əmələ gəlməsini" görürlər.




Şəkil 1.

Diafilmin ikinci kadrı (şəkil 2) düz xəttin birinci xassəsini göz önünə gətirməyə, AB simvolunu, ∈-aidlik işarəsini daxil etməyə imkan verir. Kadrın başlıca vəzifəsi düz xəttin ikinci xassəsini aşkar etməyə uşaqları təhrik etməkdir: onun istənilən nöqtəsini qurmaq olarmı?; Düz xəttin "sonsuz çox nöqtələri" var.




Şəkil 2.

Üçüncü kadrla (şəkil 3) işləyərkən şagirdlər başa düşürlər ki, düz xəttin modeli hələ alınmamışdır: xətkeşin sağa və sola hərəkəti ilə qurmanı davam etdirmək lazımdır.

Sual yaranır:

– Belə qurmada nə qədər uzağa getmək olar?

Əməliyyatın əyaniliyi aşağıdakı cavaba təhrik edir:

– Sağa və sola olmaqla istənilən qədər uzağa.




Şəkil 3.

Deməli, düz xətt sonsuzdur. Bu onun ikinci xassəsidir. Dərslikdə deyildiyi kimi: "Düz xəttin istənilən nöqtəsindən hər iki tərəfə istənilən uzunluqda parça ayırmaq olar. Parçadan fərqli olaraq düz xəttin, həmçinin çevrənin başlanğıcı və sonu yoxdur. Bəlkə düz xəttı çevrəyə oxşardır.

İndi də kadrın ikinci sualı ilə məşqul olaq:

– Düz xətt üzrə biri sola, digəri isə sağa hərəkət edən Anar və Babək görüşə bilərlərmi?

Adətən, uşaqlar belə cavab verirlər:

– Xeyr, görüşə bilməzlər, çünki düz xətt çevrə kimi qapalı deyildir.

İkinci cavab da məntiqidir, onun haqqında şagirdlərdə şübhə olmaya bilər.

Əgər düz xəttin qapalı olmaması xassəsi əyani aydınlaşarsa, uşaqlar şüanın necə "alındığını", anlayışın necə əmələ gəldiyini görər və dərk edərlər.




Şəkil 4.

Düz xəttin xassələri haqqında məlumat növbəti kadrda göstərilir (Bu əzbərləmək üçün deyil). Bu kadrı praktikada verilən məzmun anlayışının xassələri haqqında məlumatı yekunlaşdırmaq, sonralar çalışmaların yerinə yetirilməsində nümayiş etdirmək olar. Bu və ya digər xassəyə əsaslanma bacarığı şagirdin təfəkküründə anlayışın əmələ gəldiyini sübut edir.

Sonralar anlayışın formalaşması prosesində uşaqlar dəfələrlə digər obyektlər arasından bu anlayışa aid obyektləri seçəcəklər. Həmin çalışmalar və uyğun modelin qurulması şagirdi anlayışın məzmununu öz sözləri ilə şərh etməyə və tərifi deməyə təhrik edəcəkdir.

Ədəbiyyat

1. Qəhrəmanova N., Əsgərova C. Riyaziyyat. (Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərslik.) Bakı, "Altun-Kitab", 2010.

2. Adıgözəlov A.S. İbtidai siniflərdə riyaziyyatın tədrisinin xüsusi metodikası. Bakı, "Mütərcim", 2001.

3. Həmidov S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası . Bakı, "Nurlan", 2006.

**Формирование геометрических понятий у младших школьников**

Резюме

Статья посвящена формированию геометрические понятие прямой с использованием наглядности в начальных классах. Здесь излагается как формируется понятие прямой в учебной деятельности учащихся.

**Formation of geometric notions in primary school pupils**

Summary

The Article is dedicated to formation of geometric notion of straight line by using geometric visualization in primary classes. It provides how to form the notion of straight line in the academic of teachers.

# ПРИМЕНЕНИЕ ИКТ В НАЧАЛЬНОЙ ШКОЛЕ

**Бела Нуриева,**

учитель школы №23им.Т.Гасанова

Насиминского района г.Баку



*Ключевые слова:* информационно-коммуникационные технологии, качество обучения, електронный журнал, приставка "mimio", интерактивная приставка, визуалные средства, мултимедийные технологии, мотивационный компонент, образовательный еффект.

*Key words:* information and communication technology, quality of training, e-magazine, the prefix "mimio", interactive console, vizualny sredsta, multimediynye technology, motivational component, an educational-effect.

XXI век породил взрыв новой информации. Расширение пространства знаний, объём информации, её многопрофильность сделали очевидным тот факт, что всё знать и уметь–невозможно, однако возможно освоение, овладение, нахождение истины через смежные области, приход к цели только через знания.

Главная задача азербайджанской образовательной политики - обеспечение современного качества образования на основе сохранения его фундаментальности и соответствия актуальным и перспективным потребностям личности, общества, государства.

В настоящее время стала очевидной необходимость модернизации системы образования, так как современному обществу необходим человек творческий и инициативный, готовый и способный нести личную

ответственность, как за собственное благополучие, так и благополучие общества в целом.

В условиях модернизации современной системы образования Азербайджана возрастает роль инновационной деятельности, которая приобретает всё более массовый характер, так как возникает потребность существенного обновления содержания, достижения нового качества образования на основе инновационных инициатив по приоритетным направлениям образовательной деятельности. Отечественная система образования в настоеще время является важным фактором сохранения места Азербайджана в ряду ведущих стран Европы и мира, её международного престижа как страны, обладающей высоким уровнем культуры, науки, образования.

Сегодня ценность является не там, где мир воспринимается по схеме знаю - не знаю, умею - не умею, владею - не владею, а где есть тезис ищу - и нахожу, думаю - и узнаю, тренируюсь – и делаю. На первый план выходит личность ученика, готовность его к самостоятельной деятельности по сбору, обработке, анализу и организации информации, умение принимать решения и доводить их до исполнения.

Иными становятся и задачи учителя–не поучить, а побудить, не оценить, а проанализировать. Учитель по отношению к ученику перестаёт быть источником информации, а становится организатором получения информации, источником духовного и интеллектуального импульса, побуждающего к действию.

Если раньше ученик шёл в школу за знаниями, то сегодня знания перестали быть самоцелью. Знать-ещё не значит быть готовым использовать эти знания. Без усилий воли, без личностного участия камень не сдвинуть, воду не «открыть». В последние годы в обществе сложилось новое понимание главной цели образования: формирование готовности к саморазвитию, обеспечивающей интеграцию личности в национальную и мировую культуру, освоение её прошлого, настоящего и будущего, вхождение в созидание и сотворение.

Создание и развитие современного информационного общества предполагает широкое применение информационно-коммуникационных технологий в образовании, что определяется рядом факторов.

Во-первых, внедрение ИКТ в образование существенным образом ускоряет передачу знаний и накопленного технологического и социального опыта человечества не только от поколения к поколению, но и от одного человека другому.

Во-вторых, современные ИКТ, повышая качество обучения и образования, позволяют человеку успешнее и быстрее адаптироваться к окружающей среде и происходящим социальным изменениям. Это даёт каждому человеку возможность получать необходимые знания как сегодня, так и в будущем.

В-третьих, активное и эффективное внедрение этих технологий в образование является важным фактором создания системы образования, отвечающей требованиям и процессу реформирования традиционной системы образования в свете требований современного общества.

В этом связи «Программа обеспечения информацией и коммуникационными технологиями общеобразовательных школ в Азербайджанской Республике», утверждённая распоряжением Президента Азербайджанской Республики Ильхама Алиева от 21 августа 2004 г., ещё раз подтверждает роль современных технологий в повышении качества образования и развитии подрастающего поколения.

Для повышения эффективности подачи материала на своих уроках я использую интерактивную приставку "mimio". Она позволяет организовать активное взаимодействие всех участников образовательного процесса, формирует своеобразное поле информационного обмена между ними, переводит ученика из положения слушателя, пассивно воспринимающего информацию от учителя, в состояние активного участника процесса обучения. Интерактивная приставка позволяет интегрировать цифровые образовательные ресурсы различных типов, содержит широкий спектр визуальных средств.

Считаю, что современный урок невозможно представить без применения мультимедийных технологий, поэтому всё сложнее вижу себя в образовательном процессе без помощи компьютера.

Начальная школа - фундамент образования. И от того какой она будет зачастую зависит успешность выпускника в современном мире. Урок должен быть максимально приближен к жизни, к тому, с чем ученики встречаются каждый день. Я стремлюсь, чтобы урок заинтересовал детей, что бы им захотелось расширить имеющиеся у них знания, приобщить к творческому поиску, активизировать фантазию и заставить увидеть необычное в привычном. Для реализации названных принципов решения задач урока я большое внимание уделяю отбору методов, приёмов, средств обучения и их разнообразию. На мой взгляд, применение ИКТ на уроках активизируют мыслительную деятельность детей, делают восприятие образным, создают благоприятный эмоциональный фон урока.

Итак, сегодняшний ученик должен стать человеком нового общества и быть готовым ответить на вызовы современного мира. Именно эта его способность и определяет качество образования.

Информационные технологии использую направленно, с целью развития у учащихся мышления, воображения, способности давать самооценку, планировать свои действия и наконец, как мотивационный компонент учебной деятельности.

Научить учиться, развить желание учиться, находить удовлетворение в учении - главная задача, стоящая перед учителем начальных классов.

Использование ИКТ в учебном процессе позволяет мне:

- усилить образовательные эффекты;
- повысить качество усвоения материала;
- построить индивидуальные образовательные траектории учащихся;
- осуществить дифференцированный подход к учащимся с разным уровнем готовности к обучению;
- организовать одновременно детей, обладающих различными способностями и возможностями.

Внедрение ИКТ осуществляется мною по следующим направлениям:

- создание презентаций к урокам;
- работа в интернете;
- использование готовых обучающих программ;
- разработка и использование собственных авторских программ и др.

Доступность и наглядность учебного материала достигается мною посредством:

- динамических схем;
- обобщающих таблиц;
- видео и анимационных фрагментов;
- большого количества иллюстративного материала;
- звуковых реплик и музыкального сопровождения.

Презентации позволяют мне:

- наглядно представлять материал;


















- интенсифицировать процесс объяснения нового материала;
- регулировать объём и скорость выводимой информации посредством анимации;
- повышать познавательную активность обучающихся.

Преимущества использования ИКТ:

- делают обучение более эффективным;
- способствуют индивидуализации обучения;
- повышают мотивацию обучения;
- активизируют познавательную деятельность учащихся;
- обеспечивают оперативность и объективность контроля;
- дают педагогу возможность для построения индивидуальных образовательных траекторий учащихся;
- облегчают деятельность педагога и создают эффективную обратную связь;
- способствуют развитию у учащихся продуктивных функций и психических процессов;
- повышают интерес к изучаемому предмету.










Интерактивные тесты, созданные в программе Excel, являются хорошим помощником для учителя при проверке знаний учащихся. После выполнения теста, выставляется оценка.






Наиболее интересными являются Flash разработки, которые созданы мною в программе Adobe Flash CS4. Это интерактивные ресурсы и по математике, русскому языку, чтению.










Конечно же, создание электронных ресурсов требует знания компьютерных программ, времени. Всё, что мы сегодня сделаем для наших детей, с лихвой окупится уже в самом ближайшем будущем.

Два года существует блог «Весёлый поезд» (http://poezd23.-blogspot.com), созданный мною для моих учеников. Он является как информационной, так и образовательной частью жизни моего класса. Существование блога помогло в реализации проектов «Моя любимая буква», «Семь чудес Азербайджана», «Бакинский метрополитен», «Материки».

В заключении хочется сказать, начальная школа — фундамент качества, от которого зависит дальнейшее обучение ребёнка. И это налагает особую ответственность на учителя – классвода. Его задача не только научить читать, писать, но и заложить основы духовности ребенка, развить его лучшие качества, обучить способам учебной и самостоятельной деятельности.

## ŞAGİRDLƏRİN NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİ PROSESİNDƏ İNTEQRASİYADAN İSTİFADƏ



**Şəhla Cəlilzadə,**
AMİ-nin metodisti

*Açar sözlər:*informasiya-kommunikasiya texnologiyaları, çərçivə kurikulumu, nitq inkişafı, inteqrativ kurikulum, qiraət, lüğət ehtiyatı, şifahi nitq, isim, sifət, fel, orfoqram, şagird təfəkkürü.

*Ключевые слова:* информационно коммуникационные технологии, в рамках курикулума, развитие речи, интегративный курикулум, чтение, словарный запас, устная речь, существительное, прилагателные, глаголь, орфограмм, ученическое мышление.

*Keywords:* informationommunication technology, withinthe curriculu mlanguage development, integrative curriculum, reading, vocabulary, speaking, suschestivitelnoe, prilagatelnye, verb, orfogramm, pupils' thinking.

Azərbaycanda təhsil islahatının həyata keçirilməsi, qazanılmış pedaqoji təcrübələrə arxalanaraq Qərb təhsilinə inteqrasiya prosesi müasir ibtidai sinif müəllimlərindən daha çox məsuliyyət, daha çox öyrənmə və öyrətmə tələb edir. İbtidai siniflərdə nitq inkişafı problemləri istər XX əsrdə, istərsə də qloballaşma dövrü olan XXI əsrdə öz aktuallığını itirməmişdir. İnformasiya bolluğunun, informasiya-kommunikasiya texnologiyaların inkişaf etdiyi XXI əsrdə təhsil sistemindən daha çox nəticəyönümlü fəaliyyət tələb olunur.

Bu nəticəni əldə etmək üçün heç də köhnə metodikanı inkar etmək lazım deyildir. Biz keçmiş sovet dövründə, hətta ondan əvvəlki dövrdə də toplanmış yararlı metodlara arxalanmaqla yanaşı, dünya təcrübəsində özünü doğrultmuş interaktiv metodlara da yiyələnməliyik. Bu məqsədlə respublikamızda sinif müəllimləri üçün qısa və uzun müddətli kurslar təşkil olunur. Təhsil islahatlarının davam etdiyi və Boloniya sisteminə keçid ərəfəsində ibtidai təhsilin səmərəliliyini yüksəltmək üçün kadr hazırlığına xüsusi fikir vermək ən əhəmiyyətli məsələdir. Təəssüf ki, respublikamızda ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı istənilən nəticəni vermir. Magistr pilləsinin isə səviyyəsi çox aşağıdır.

2008-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən "Azərbaycan Respublikasının ali təhsilinin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı üzrə "Çərçivə Kurrikulumu" adlı çox qiymətli hərəkət proqramı hazırlanmışdır. Həmin sənəddə haqlı olaraq göstərilir ki, iş ali məktəbdən, yəni ibtidai siniflər üçün bakalavr hazırlığından başlanmalıdır. Orta ümumtəhsil məktəblərində təhsilin səviyyəsi bünövrənin necə qoyul-

masından asılıdır. Bu prosesin uğurla keçməsi uşaqların nitq mədəniyyətinə necə yiyələnmələri ilə bağlıdır. Hər bir vətəndaş ibtidai siniflərdən başlayaraq mədəni nitq, sərrast danışıq və savadlı yazı vərdişlərinə yiyələnir.

Professor Y.Kərimov yazır: "Nitq insanın əqli fəaliyyətinin yaranmasında bilavasitə iştirak edir və onun əsası olur, şagirdlər mükəmməl nitqin köməyi ilə xarici aləmdəki hadisə və əşyalar haqqında biliklərə yiyələnirlər ...Aparılan müşahidələr göstərir ki, onlar məktəbə gələnədək dilimizin qrammatik quruluşuna yiyələnirlər,...müəyyən söz ehtiyatına malik olur, başqalarının nitqini başa düşür,öz fikrini ifadə etməyi bacarırlar".

İstər ənənəvi, istərsə də müasir inteqrativ metodlar ibtidai sinif müəllimindən tələb edir ki, onlar şagirdlərin hələ məktəbə qədər əldə etdiyi söz ehtiyatını daha da zəngiləşdirsinlər, onların leksikasına daxil olan sözlərin dəqiqləşməsinə fikir versinlər.

"İnteqrativ kurikulum: mahiyyəti və nümunələr" adlı çox qiymətli metodik nəticəyə əsaslanan təlim, həmçinin fənlərarası və fəndaxili inteqrasiyanın perspektivlərinə xüsusi diqqət yetirilir. Amerika alimi Hamfreyzin aşağıdakı fikri yerinə düşür: "İnteqrativ öyrənmə – şagirdlərin ətraf mühitinin müəyyən aspektlərinin müxtəlif fənlərə aid olan biliiklər vasitəsilə geniş araşdırmasıdır." (Firəngiz Kərimova, Mehriban Əhmədova, Əliş Reyli: "İnteqrativ kurrikulum: mahiyyəti və nümunələr", Bakı 2006)

Bu fikirlər bizim görkəmli metodist alimlərimiz A.Abdullayev, Y.Kərimov, H.Balıyevin fikirləri ilə uzlaşır. Həmin vasitədə çoxfənli, fənlərarası, fəndənfənnə keçən inteqrasiya ilə yanaşı, fəndaxili yəni, mövzudan-mövzuya keçən inteqrasiyadan – əlaqədən bəhs olunur.

Bu fikirlər bizim mövzumuzla bağlıdır və "Çərçivə kurikulum"nda, ibtidai siniflərin standartlarında öz əksini tapmışdır. Burada "Öyrənmə standartları" başlığında qeyd olunur ki, ana dili tədrisinin məqsədi şagirdlərə oxumağı öyrətmək, icmasında, onların gələcəki iş yerində, sonrakı təhsilində yüksək səviyyəli ünsiyyət vərdişləri ilə silahlandırmaq, onların cəmiyyətin həyatında savadlı vətəndaş kimi iştirak etmələrini təmin etməkdir. Şagirdlər sinifdən-sinfə keçdikcə fəal və diqqətli dinləyicilər olacaq və ana dilinin mükəmməl bilicilərinə çevriləcəklər. Bunun üçün fəndaxili öyrənmə standartlarının aşağıdakı iş növlərindən istifadə olunur: şifahi nitq, oxu, yazı və tədqiqatlar.

Şifahi nitqdə yaxşı yiyələnmək üçün ibtidai sinif müəllimi əlifba təliminin mərhələlərini əlifba təlimindən sonrakı oxu təlimi metodikası ilə əlaqələndirməyi bacarmalıdır. Əgər müəllim əlifba təlimi dövründə nitq səslərinin tələffüzünü, sözlərdəki vurğunun yerini düzgün mənimsədə bilmişsə, şagirdlər müxtəlif mətnlərin oxunuşunda çətinlik çəkməyəcəklər. Müəllim şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək üçün daha çox şeirlərdən, bədii nəsr parçalarından, tarixə, coğrafiya, həyat bilgisinə aid elmi-kütləvi mətnlərdən də istifadə etməlidir. Yalnız bu şəraitdə şagirdlər ətraf aləmi daha yaxşı dərk edə bilirlər. Professor H.Balıyev yazır:

"Qiraət təlimi yuxarı siniflərdə tədris edilən "Ədəbiyyat" fənninin bünövrəsini təşkil edir. Şagirdlər onun xüsusiyyətləri haqqında ilkin bilik əldə edirlər. Onlar klassik və müasir Azərbaycan uşaq ədəbiyyatı və şifahi xalq ədəbiyyatı nümunələrini öyrənirlər."

Deməli, müəllim hərflər, səslər və bundan sonra oxu vərdişlərinin inkişafı, dilin quruluşu haqqında şagirdlərə ilkin anlayışlar, məlumatlar verir. Şagirdlər səlis və dərkedilən mükəmməl oxu strategiyalarını öyrənir və tətbiq edirlər. Ona görə də şagirdlərin şifahi nitq bacarıqlarına aşağıdakı tələblər verilir:

- aydın və aramla danışmaq;
- sözləri düzgün tələffüz etmək;
- məntiqi vurğudan istifadə etmək;
- inandırıcı danışıq;
- mövzunu elmi cəhətdən əsaslandırmaq, düzgün izah edə bilmək;
- mimikadan və jestlərdən (lazımi səviyyədə) istifadə etmək;
- yorucu olmayan ahənglə danışmaq;
- nitqdə konkretliyə,dəqiqliyə əməl edə bilmək;
- yekunlaşdırma zamanı əsas fikirləri ümumiləşdirmək.

Şagirdlərin lüğət ehtiyatının və şifahi nitqinin zənginləşdirilməsində əlifba və oxu təliminin əhəmiyyəti böyükdür. Prof. Y.Kərimov qeyd edir ki, 1970-ci illərdə apardığı tədqiqatlar yeddiyaşlıların lüğət ehtiyatının təxminən 4080 sözdən ibarət olduğunu göstərmişdir. Bundan da yalnız 2177 söz şagirdin fəal lüğət ehtiyatını təşkil edir. Bu gün elm və texnikanın sürətli inkişafını, informasiya-kommunikasiya texnologiyalarının çoxluğunu nəzərə alsaq, müasir altıyaşlıların lüğət ehtiyatının ən azı iki qat artıqdığını deyə bilərik. Buna baxmayaraq, alim deyir ki, şagirdin söz ehtiyatının əhəmiyyəti onun kəmiyyəti ilə deyil, keyfiyyəti ilə ölçülür. Həmin sözlərin məna incəliklərindən nitq praktikasında necə istifadə edilməsi də nəzərə alınmalıdır.

Şagirdlərdə yazılı nitq vərdişləri onların əlifba təlimi dövründən başlanır. Təhsilin müasir dövründə uşaq bağçalarında da əlifba təlim olunur. Ancaq hər halda, əlifba təlimi ibtidai siniflərdən başlanır. Şagirdlər dil quruluşu haqqında anlayışlarını bir qədər də artırır, mütəmadi olaraq, yazı ünsiyyətinin nəqletmə, inandırma, təsviretmə vərdişlərinə yiyələnir və tətbiq edirlər. Beləliklə, ibtidai sinif şagirdlərində yazılı nitq təşəkkül tapır və formalaşır. Eyni zamanda qrammatik anlayışlar, söz və onun quruluşca növləri haqqında məlumat həm müəllimin, həm də şagirdlərin fəaliyyət dairəsini genişləndirir.

Bu cəhətdən yazılı nitqin inkişafının qrammatikanın müxtəlif bölmələri və mövzuları ilə inteqrativ əlaqəsi maraq doğurur.

İbtidai sinifdə "Sözün tərkibi" bəhsi tədris edilərkən şagirdlər həm konkret olaraq sözlərin səs tərkibi, onların leksik mənaları, kök və şəkilçi haqqında qrammatik biliklər əldə edir, həm də leksik və sintaktik yolla yeni sözlərin əmələ gəlməsini öyrənirlər, onların lüğət ehtiyatı zənginləşir. Şagirdlər

eyniköklü sözləri öyrənərkən dilimizin zənginləşmə qaydaları ilə tanış olur, öz lüğət ehtiyatını artırır, məsələn, *su-sula-sulu-susuz; duz-duzlu-duzsuz-duzla-duzlaq* və s. Sözlərin çoxmənalığı, omonimliyi, sinonim və antonimliyi üzərində aparılan çalışmalar da şagirdin nitq qabiliyyətinin, söz ehtiyatının zənginləşməsinə xidmət edir. Şagirdlər başa düşürlər ki, həm leksik, həm də qrammatik yolla sözlər yaratmaq mümkündür.

Şagirdlərin şifahi və yazılı nitqinin inkişafı morfologiya bəhsinin tədrisi ilə də bağlıdır. Prof. Y.Kərimov yazır: "Söz yaradıcılığı üzrə iş aparılarkən şagirdlər isim, sifət və felin hansı şəkilçilərin köməyi ilə əmələ gəlməsini öyrənir, şəkilçilərin semantik mənasını anlayırlar. Məhz ona görə də sözün tərkibi, söz yaradıcılığı üzrə iş ayrı-ayrı nitq hissələrinin tədrisi prosesində davam etdirilir."

I-IV siniflərdə aparılan iş isim haqqında sadədən mürəkkəbə doğru inkişaf etdirilir. Müəllim, ümumiyyətlə, nitq hissələrini tədris edərkən şagirdin lüğət ehtiyatının zənginləşməsi ilə yanaşı onun dəqiqləşdirilməsi, aydınlaşdırılması üzrə də iş aparmalı olur. Çalışmalar vasitəsilə müəllim isimlərin insan, heyvan, quş, səma cisimləri, çay, göl, və b. bildirmələrini başa salmaqla, şagirdin isim haqqında təsəvvüründə nizam yaradır.

Sifətin tədrisində şagirdlər isim bəhsində tanış olduğu əşyanın müxtəlif əlamət və xassələrini öyrənirlər. Məlum olur ki, əşyalar müxtəlif əlamətləri ilə bir-birindən seçilirlər. Müəllim çalışmalarla isimdən əvvəl dəqiq olaraq hansı sifətin işlənməsi qaydalarını öyrədir. Məsələn: *yekə qardaş* yox, *böyük qardaş, yüksək bina* yox, *uca bina* və s. Bu yolla şagirdlər həm sifətin qrammatik vəzifəsini öyrənir, həm də onların nitqi dəqiqlənir və zənginləşir.

«Fel» bəhsinin də nitq inkişafı ilə inteqrasiyası həm müəllimlərin, həm də şagirdlərin işini asanlaşdırır. Əslində fel özünün qrammatik xüsusiyyətləri ilə digər nitq hissələrindən seçilir. Tədqiqatçılar qeyd edirlər ki, uşaqlar hələ əşya və hadisələri dərk edib nəticə çıxarana kimi konkret həyat şəraitində şüurlu fəaliyyət göstərməyi daha çox sevirlər. Onlar həyat bilgiləri əldə etmək üçün böyüklərə suallar verir və bu sualların çoxu fellə ifadə olunur. Deməli,uşağın təfəkkürünün inkişaf mənbəyi məhz praktik həyat fəaliyyətində yerinə yetirdiyi hərəkətlərdir. Fel yalnız hərəkətin adını bildirmir, hərəkəti fəal, canlı bir proses kimi ifadə edir.

Şagirdlər söz yaradıcılığı prosesində yeni sözlərin əmələ gəlməsini felin tədrisində bir daha praktik şəkildə görürlər. Bundan başqa, felin zamanları, təsdiq və inkar olması, onun quruluşca növləri şagirdlərdə dilimizin ehtiyat fondu olmasına inam yaradır. Bizim məqsədimiz heç də nitq hissələrinin tədrisi yollarını deyil, bu prosesdə şagirdlərin nitq inkişafı və onun zənginləşmə yollarını nəzərə çatdırmaqdır.

Nəhayət, nitq inkişafı metodikasının mühüm cəhətlərindən biri də orfoqrafiya təlimi ilə inteqrasiyasıdır. Xüsusən öyrədici və yoxlama imlalar, öyrədici və yaradıcı inşalar şagirdlərin yazılı nitq qabiliyyətinin inkişafında mühüm rol oynayır. Professor H.Balıyev qeyd edir ki, şagirdlərin yazılı nitqinin inkişafında müxtəlif növlü imlalar böyük əhəmiyyətə malikdir, məsələn, üzündənköçürmə

yazılar zamanı şagirdlər həm sözün mənasını mənimsəyir, həm də qoyulan durğu işarələrinə fikir verirlər. Şagirdləri fəallaşdırmaq üçün bəzən durğu işarələri buraxılır, eynimənalı sözləri qruplaşdırmaq tapşırılır.

Şagird təfəkkürünün inkişafı üçün sözlərdə buraxılmış orfoqramları, şəkilçiləri və ya cümlədə buraxılmış sözü artırmaq tələb olunur. Bundan başqa xəbərdarlıqlı, izahlı, görmə, seçmə, lüğət üzrə, yaradıcı, sərbəst və s. imla növləri də vardır ki, bunların hamısının məqsədi şagirdin nitq qabiliyyətini inkişaf etdirməkdir.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, ibtidai siniflərdə şagirdlərin nitqinin inkişafını fəndaxili mövzularla inteqrasiya şəraitində aparmaq olar.

Öyrənmə standartları vasitəsilə şagirdlər müxtəlif mənbələrdən və internetdən informasiyalar əldə edirlər.

Beləliklə, öyrənmə standartları olan şifahi nitq, oxu, yazı və tədqiqatlar ayrı-ayrılıqda inkişaf etdirilir, lakin təlim prosesində onları ayırmaq çətindir, yəni onlar sinifdə inteqrasiya edilir. Bunların hamısı şagirdlərin nitq inkişafına xidmət edir. Əgər şagirdlər digər fənlərin tədrisində də müvəffəqiyyət qazanırlarsa, bu da dolayı yolla ona ana dilinin təliminin nailiyyəti deməkdir. Ana dilində şifahi və yazılı nitq qabiliyyəti inkişaf etmiş uşaqlar digər fənlərdə də mövzuları təhlil edir, təbiət elmləri ilə bağlı təcrübələrini yazır, riyazi məsələlərin həlli strategiyasını izah edirlər.

Ədəbiyyat


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikasında ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazılığı üzrə Çərçivə Kurrikulumu toplusu, Bakı,2008.
2. Y.Kərimov.Ana dilinin tədrisi metodikası, Bakı,2000.
3. S.Quliyev, H.Balıyev, M.Məmmədov. Ana dilinin tədrisi metodikası, APİ-1990.
4. F.Kərimova, M.Əhmədova, Ə.Reyli. İnteraktiv kurikulum, mahiyyəti və nümunələri. Bakı, 2006.


**Пути использования внутрипредметной интеграции в процессе развития речи у школьников**

Резюме


В статье отмечается, что методика развития речевой культуры учащихся в начальных классах наряду с традиционными способами требует также внедрения современных методов обучения. . Отмечается, что развитие речи детей с периода букваря и составляет единство с изучением грамматических понятий в период обучения азербайджанскому языку. В центре внимания должно быть также обогащение сдоварного запаса учащихся.


**Ways to use vnutripredmetnoy integration in the process of speech development in**

Summary


The article notes that the methodology for the development of speech culture of students in the elementary grades, along with the traditional methods also require the introduction of modern teaching methods. . It is noted that the language development of children from the period of the primer and is unity with the study of grammatical concepts in the training period the Azerbaijani language. The focus should also be enriched sdovarnogo reserve students.

# FİZİKİ TƏRBİYƏ ÜZRƏ TƏDRİSİN NƏTİCƏLƏRİNİN REALLAŞDIRILMASININ MÜHÜM MEYARLARI

**Baloğlan Quliyev,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
dosenti, pedaqogika üzrə fəlsəfə doktoru



*Açar sözlər:* meyar, intensiv, real tədris imkanları, vaxt bölgüsü, sərf olunan enerji, tədbirlər sistemi, stimul yaradan variant, qidalanma, tələbat, hərəki fəaliyyət, hərəki qabiliyyət, tənzimlənmə, stimullaşdırma.

*Ключевые слова:* возможности, распределение времени, вариант создавания стимула, питание, требование, двигательное действие, двигательное умение, регулирование, стимулизация.

*Key words:* criteria, intensive, real education opportunities, time division, result, spent power, system of events, stimuls creating variant, feeding, demand, type of activity, regulation, stimulation

Fiziki tərbiyə üzrə tədrisin lazımi səviyyədə təşkili elmi, pedaqoji-metodik proses olmaqla, reallaşması ciddi hazırlığın görülməsini tələb edir. Bu baxımdan fiziki tərbiyə prosesi elə təşkil olunmalıdır ki, təlimin intensivləşdirilməsi üçün vacib olan reallıqlar, onun əlamətləri və ünsürləri öz əksini tapmış olsun. Bu, müasir təhsil sisteminin həyata keçirildiyi bir dövrdə müəllim və şagirdlərin fəaliyyətlərinin tənzimlənməsinin real imkanlarının nəzərə alınmasını və tədris şəraitinin yaradılmasını tələb edir. Bütün bunlar isə müvafiq meyarlara əsaslanmalıdır. Tədris prosesində tətbiq olunan bu meyarlar konkret, sadədən mürəkkəbə doğru prinsipinə uyğun olmalıdır. Yəni müəllimlərin öyrətmə, şagirdlərin öyrənmə qabiliyyətləri, qavrama, dərketmə imkanları nəzərə alınmaqla fiziki tərbiyə üzrə tədris materialları tədricən çətinləşdirilərək *öyrədilməlidir.*

*Təlimdə nailiyyətlər qazanılması tədrisin intensiv təşkilinin meyarlarından* sayıla bilər. Mənimsəmənin ilk baxışda müvəffəq olmasını təlimin başlanğıc dövrü üçün məqbul hesab etmək olar. Təlimin sonrakı mərhələlərində isə fiziki tərbiyə üzrə bilik və bacarıqlara yiyələnmək və bu sahədə lazımi vərdişlərin aşılanması tələbatı nisbətən artırılır, mənimsəmə keyfiyyətinin yüksəldilməsinə diqqət yetirilir. Həmin dövrdən başlayaraq şagirdlər bilik səviyyələrinə görə əla, yaxşı, kafi və qeyri-kafi alanlara bölünürlər. Şagirdlərin müvəffəqiyyəti yalnız bununla tamamlanmır, tədris prosesində şagirdlərin qarşısında daha ciddi və məsuliyyətli tələblər qoyulur. Xüsusən, şagirdlərin tərbiyə olunmaları, fiziki baxımdan inkişaf etdirilmələri mühüm vəzifə kimi qarşıda durur.

Şagirdlərin mənimsəmə müvəffəqiyyətləri, onların tərbiyələndirilməsi və şəxsiyyətyönümlü inkişafı fənn müəllimi, sinif rəhbəri, məktəb direktoru tərəfindən öyrənilir. Şagirdlərin nailiyyətlərinin öyrənilməsi müşahidə, müvafiq sorğular keçirilməsi və s. yollarla aparılır. Onların bədən tərbiyəsi və idman sahəsindəki nailiyyətləri isə kütləvi bədən tərbiyəsi, sağlamlıq tədbirlərinin keçirilməsi, müxtəlif masştablı yarışların, oyunların və əyləncələrin, «Vətənin müdafiəsinə hazıram» bədən tərbiyəsi kompleksinin normativlərinin qəbulu zamanı yoxlanılır, aşkar edilir. Tədris prosesinin intensivliyinin təşkilində real tədris imkanlarının öyrənilməsi, şagirdlərin tərbiyə olunması və inkişafından ötrü müəllimlər tərəfindən sadə və əlverişli formaların seçilməsi və məqsədyönlü tətbiqi həlledici əhəmiyyətə malikdir.

Bütün bunlardan belə bir qənaətə gəlmək olur ki, bədən tərbiyəsi təliminin intensivləşdirilməsinin nəticəsi olan ilk meyar hər bir şagirdin həmin dövr üçün real tədris imkanları əsasında mənimsəmə, tərbiyəolunma, inkişafetmə səviyyəsi hesab edilir. Bu şərtlə ki, şagirdin təlim nəticəsinin səviyyəsi qiymətləndirmə standartından aşağı olmasın, təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələblərinə, normativlərə uyğun gəlsin.

Tədris prosesində şagird və müəllimlərin məqsədəmüvafiq zehni və fiziki yük almaları ümumtəlim nəticələrinin reallaşması üçün stimul yaradan amillərdəndir. Müəyyən vaxt ərzində şagirdlərin həddindən artıq yüklənmələri, yəni tədris yükünün düzgün bölünməməsi tədrisin səmərəliliyinə mənfi təsir göstərəcək, nailiyyətlərin stimulunu xeyli zəiflədəcəkdir.

Bədən tərbiyəsi dərslərinin 3 hissədən ibarət olmaqla təşkili həmin baxımdan xüsusi əhəmiyyət kəsb edir. Dərsin səmərəli keçirilməsi üçün onun hissələri (hazırlıq, əsas, tamamlayıcı) arasında vaxt düzgün bölünməli və buna ciddi riayət olunmalıdır. Burada söhbət yalnız 45 dəqiqəlik vaxtın dərsin 3 hissəsi arasında dəqiq bölünməsindən yox, eyni zamanda həmin hissələr arasında tədris yükünün düzgün paylaşdırılmasından, şagirdlərin real fiziki, zehni imkanlarının nəzərə alınmasından gedir.

Şagirdlərin fiziki inkişafının və hazırlığının artırılmasında mühüm əhəmiyyət kəsb edən sinifdənxaric və məktəbdənkənar tədbirlərə vaxtın və fiziki yükün düzgün ayrılması da optimal nəticələrin alınmasına kömək göstərir. Bu baxımdan şagirdlərin gün rejimində zehni və fiziki hərəkət normalarına düzgün əməl olunması da olduqca mühüm əhəmiyyətə malikdir.

Fiziki tərbiyənin təlim işlərinin istənilən səviyyədə təşkilində ikinci meyar şagird və müəllimlərə tədris və ev tapşırıqlarına sərf etmək üçün ayrılmış, vaxt bölgüsünə düzgün riayət edilməsidir. Həmin tələblərin nəzərə alınması şagird və müəllimlərin normadan artıq yüklənmələrinin qarşısını alır. Fiziki tərbiyənin təlimində bir neçə meyardan eyni vaxtda istifadə etmək mümkündür.

Bir cəhəti də unutmaq olmaz ki, tədris prosesinin həddən artıq intensivləndirilməsi cəhdləri növbəti hərəki mövzuların məzmunun şagirdlər tərəfindən mənimsənilməsini çətinləşdirir. Buna görə də tədris prosesini səmərəli təşkil etmək lazımdır. Bu məqsədlə pedaqoji vasitələrin də tətbiqinə

ehtiyac vardır. Fiziki tərbiyədə o variant müvafiq hesab olunur ki, eyni şəraitdə eyni vaxt sərf etməklə tətbiq olunan təlim-tərbiyə vasitə və priyomları daha yaxşı nəticə vermiş olsun. Burada qüvvənin qənaətlə sərf edilməsi də mühüm şərtdir. Təhsil və tərbiyənin hazırkı tələbatında fiziki tərbiyənin tədrisinin səmərəliliyi onun nəticəsi və sərf olunan vaxtla sıx surətdə bağlıdır, çünki səmərəlilik bədən tərbiyəsi müəllimindən qısa vaxt ərzində az əmək sərf etməklə daha böyük müvəffəqiyyətlər qazanmasını tələb edir. Bu, təlim prosesinin optimallaşdırılması deməkdir. Təlim-tərbiyədə nailiyyətlərin əldə edilməsinin əsasını bədən tərbiyəsi müəlliminin işinin səmərəli qurulması təşkil edir ki, buda tədrisdə buraxılmış nöqsanların aradan qaldırılmasını, çatışmazlıqlara yol verilməməsini və müəllimin boş-boşuna vaxt itirməməsini təmin edir.

Qeyd etməliyik ki, fiziki tərbiyənin təlimi bir neçə mərhələdən keçdikdən sonra yeni, daha təkmil mərhələ başlayır. Bu zaman şagirdlərin inkişafının səviyyəsi təxmini planlaşdırılır. Bundan sonra tədris-tərbiyə sistemi üzrə müvafiq tədbirlər müəyyən olunur. Şagirdlərin xarakterindəki dəyişikliklər də qiymətləndirilir. Nəticə etibarilə sərf olunan vaxt, tədrisin düzgün təşkili imkanları nəzərə alınaraq təlim-tərbiyə sahəsində əldə edilmiş nailiyyətlər digəri ilə müqayisə olunur. Hər yaş dövrü üçün müəyyən olunmuş normalar və tətbiq edilmiş tədbirlər sistemi də nəzərdən keçirilir. Fiziki tərbiyə təliminin təşkilində əvvəlcə bir meyar tətbiq edilirsə, bu, müvəffəqiyyətlə nəticələnirsə ikinci stimul yaradan variantdan da istifadə olunur. Bu da təlimin daha səmərəli təşkilinə təkan verir. Şagirdlərin qüvvələrinin fiziki və zehni cəhətdən diqqətdə olması və bunun gün rejimində (qidalanma, zehni, hərəkətetmə) nəzərə alınması onların normal fəaliyyət göstərmələrini təmin edir.

Ümumtəhsil nəticələrinə müsbət təsir göstərən meyarlardan 3-cüsü məktəbdə müxtəlif növ tədbirlərin təşkili və həyata keçirilməsinə sərf olunan vaxt və enerji ilə əlaqədardır. Çalışmaq lazımdır ki, gün ərzində keçirilən tədbirlər arasında vaxt və qüvvə bölgüsünə əməl olunsun. Fiziki tərbiyə üzrə tədbirlərə çox, digərlərinə isə az qüvvə sərf edilməsin. Burada bədən tərbiyəsi üzrə keçirilən tədbirlərin məzmunu, onlara sərf olunan vaxt, idman və hərəkət növü, onların güc və enerjiyə tələbatı nəzərə alınmalı, öyrədən və öyrənənlərin fəaliyyəti tənzimlənməli və stimullaşdırılmalıdır.

Ədəbiyyat


1.H.M.Kazımov. Məktəb pedaqogikası. Bakı, "Çaşıoğlu", 2002-ci il.

2.Kurikulumların hazırlanması və tətbiqi məsələləri. (Tərtib edənlər: A.Əhmədov, Ə.Abbasov). Bakı, «Kövsər», 2008-ci il.

3.Ю.К.Бабанский. Оптимизация учено-воспитательного процесса. Москва, «Просвещение»,1982-ci il.

4.М.И.Махмутов. Организация проблемного обучения в школе. Москва, «Просвещение», 1977-ci il.

5.М.Н.Скаткин. Совершенствование процесса обучения. Москва, «Педагогика», 1971-ci il.

**Важные критерии по реализации результатов образования физической культуры**

Резюме

В этом статье освещается критерии, реальные возможности и создания условия преподавания в прочесе физического воспитания между деятельности учителя и учащихся. Здесь учитывается: 1 – способности учить и научить; 2 – мышление, усвоения; 3 – постепенность усложнения и учебного материала по физическому воспитанию

В результате наблюдений пришли к следующим выводам. В процессе обучения надо учитывать:

– основы, реальные учебные возможности освоения, воспитания, развития каждого учащегося;

– правильное соблюдение и распределения времени для учебных и домашних заданий;

– экономное использование энергии проведенное в ежедневном физкультурном мероприятии в правильном распределении между ними времени и силы.

**Physical education training for the realization of the important criteria for the results of**

Summary

The same article investigates the criteria of real opportunities of the regulation of teachers' and pupils' activities in the physical education process and creation of education condition in the period of accomplishment of modern education system. Learning 1. teaching and learning skills, 2. understanding, comprehension opportunities and 3. education materials for physical education, gradually complicating them, is considered herein.

Achieving general education results on physical education there is concluded that the following criteria have decisive significance:

1.Each pupil's learning, education and developing level on the basis of real education opportunities for the same process;

2.Correct compliance with the time, time division set to spend for education and home tasks.

3.Saving the power spent for the event held during a day and for the time and power division between them and correct compliance with them.

# UŞAQLAR ÜÇÜN FAYDALI SUALLAR

Bu suallar Amerikanın təhsil üzrə mütəxəssisi, elmlər doktoru Ceyn M.Xili tərəfindən yazılmış «Sən qapını arxanca örtərkən çarpayın yerində durumu?» adlı kitabdan götürülmüşdür. Müəllif bu suallar siyahısını «Danışığın aparılması taktikası » adlandırır.

*Yeni ideyaların təsdiqi və qiymətləndirilməsi*

«Bu, yeni ideyadır…»

«Sən bu haqda həqiqətən belə fikirləşirsən?...»

«Mən başa düşürəm ki,…»

«Çox maraqlıdır…»

«Denis çox maraqlı mövzuya toxundu...»

*Əlavə kommentariya oyatma*

«Əgər sən..., möcüzə (yaxşı) olardı»

«Əgər bilmək istəyirsənsə,...»

«Bu o deməkdirmi ki,...»

«Sən demək istəyirsən ki...»

«Elə səslənir ki, elə bil bunu sən fikirləşirsən...»

«Əgər mən səni düzgün anlayıramsa, sən təklif edirsən ki...»

«Sən fikirləşirsən ki...»

«Beləliklə, ... ilə razılaşmırsan»

*Aydınlıq gətirilməsi*

«Bu, çox maraqlıdır. Onun haqqında çox danış...»

«Nə üçün sən belə danışırsan?...»

«Bu haqda daha çox danışa bilərsənmi?...»

«Biz burada əslində nəyi müzakirə edirik?...»

«Mənə belə gəlir ki, bu, indicə onun dediyinə yaxındır...»

«İcazə ver sənin nə haqda danışdığını daha yaxşı anlayım...»

*Razılaşmaq*

«Sən maraqlı mövzuya toxundun. Sən qərara gəldin ki...»

«Bu fikri mən heç vaxt eşitməmişəm...»

«Sən bunun üzərində çox güclü fikirləşirsən, lakin ola bilərmi ki...»

«Bax, budur ayrı aspekt...»

«Onun haqqında düşündüyüm zaman rastlaşdığım problemlərdən biri...»

*Düşünməyə təhrik edən*

«Maraqlıdır ki, biz.... haqqında düşünürük»

«Əgər bu doğrudursa, doğrudurmu ki...»

«Sən nə üçün belə düşünməyinin səbəbini bizə təqdim edə bilərsənmi...»

*İstiqaməti dəyişmə*

«Cinin dediyinə bunun nə dəxli var...»

«Bunun haqqında başqa vaxt danışa bilərik? Mən hələ də ... ilə maraqlanıram...»

«Maraqlı fikirdir! Geriyə ... yə qayıdaq»

«Çox gözəl mövzudur, lakin biz hələ məsələnin müzakirəsini qurtarmamışıq»

*Genişləndirək*

«Maraqlıdır, görəsən bu barədə nə düşünürlər...».

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARLA PSİXOLOJİ XİDMƏTİN TƏŞKİLİ

**Ramiz Əliyev,**
ARTPİ psixologiya və yaş psixologiyası şöbəsinin müdiri,
psixologiya elmləri doktoru, professor



*Açar sözlər:* kiçikyaşlı məktəbli, əqli inkişaf, fərdin psixi inkişafı, ünsiyyət problemi

*Ключевые слова:* младший школьник, умственное развитие, психические развития индивида, проблемы общения

*Key words:* younger schoolchildren, mental development, individual psychological development, problems of communication

Təlim fəaliyyəti dövründə, ümumiyyətlə, insan həyatında kiçik məktəb yaşı dövrü xüsusi yer tutur. İbtidai siniflərdə yaxşı oxumayan şagirdin sonrakı illərdə müvəffəqiyyətlə təhsil almalarına az rast gəlinir. Bu, ümumi inkişaf, psixi inkişaf və şəxsiyyətin formalaşması baxımından da belədir.

Məktəb psixoloqunun fəaliyyətində də kiçikyaşlı məktəblilərlə işləmək digər yaş dövrləri ilə müqayisədə daha çox yer tutur. Buna görə də biz məktəb psixoloqunun ibtidai sinif şagirdləri ilə fəaliyyəti üzərində ayrıca dayanmalı olduq. Onlarla iş məktəbə qəbuldan başlayır və II-IV siniflərdə davam etdirilir. Uyğun cəhətlərlə yanaşı, biz hər bir sinif üçün spesifik cəhətləri, onlarla iş qaydalarını ayırmaqla II-IV sinifləri bir paraqraf daxilində təqdim etdik.

İkincilər yeni dərs ilinə artıq "təcrübəli" şagirdlər kimi başlayırlar. Məktəbə adaptasiya olunmaq, yoldaşları ilə tanışlıq, yoldaşları və müəllimlə qarşılıqlı münasibətlərin qurulması mərhələsi artıq başa çatmış olur. İndi məktəb həyatı, məktəbdə onu nələr gözlədiyi haqqında geniş təsəvvürə malikdir.

İkincilərin öz gələcək fəaliyyətləri ilə bağlı nələri gözləmələri daha çox I sinifdəki vəziyyətlərindən asılıdır: "I sinifdə yaxşı oxuyurdum. Yəqin bu il də yaxşı oxuyacağam", "I sinifdə o qədər də yaxşı oxumurdum, görək, bu il necə olacaq?". Oxşar mülahizələri onların valideynləri də söyləyirlər.

İkincilərin özlərini belə qiymətləndirmələri onların fəaliyyətinə də təsir göstərir. Özünüqiymətləndirmə insanın özü haqqında bilikləri və özünə münasibətini əks etdirir. İkincilərin özünüqiymətləndirmələri bir tərəfdən təlim fəaliyyətləri, digər tərəfdən isə böyüklərin, xüsusilə müəllimin onlara verdiyi qiymətdən çox asılıdır. İkincilərin təlim fəaliyyəti ilə bağlı özünüqiymət-

ləndirmələri birincilərdən fərqlənir. Birincilər daha eqoistdirlər və özünüqiymətləndirmə onlarda, bir qayda olaraq, daha yüksəkdir.

II sinifdə şagirdlərin təlim fəaliyyəti ilə bağlı özünüqiymətləndirmələri xeyli aşağı düşür. III sinifdə vəziyyət dəyişir, özünüqiymətləndirmə şkalası yenidən yüksəlir. Psixoloji ədəbiyyatda bu vəziyyət "ikinci sinif fenomeni" adlanır.

İkincilərin özünüqiymətləndirməsinin aşağı düşməsi onların özlərinə daha tənqidi yanaşa bilmələri ilə əlaqədardır. Onlar öz təlim fəaliyyətlərini daha obyektiv qiymətləndirə bilirlər, lakin bu qiymətləndirmənin imkanları, təcrübə onlarda hələ məhduddur. Bu isə müəyyən mənada onlarda özünəinamı azaldır.

İkincilər üçün qiymət və qiymətləndirmə vacib şərtlərdəndir. Məlumdur ki, qiymətləndirmə proses, qiymət isə prosesin rəqəmlə ifadəsidir. Fəaliyyətin müsbət və mənfi tərəfləri izah olunur, mühakimə yürüdülür, məsləhətlər verilir və yalnız bundan sonra qiymətləndirilir.

Təcrübə göstərir ki, müəllimlər, əsasən, şagirdin fəaliyyətinə qiymət verir, özünü qiymətləndirmirlər. Başqa sözlə, məktəbli fəaliyyətinin nəticəsinə qiymət verilir, niyə?, nə üçün? sualları isə cavabsız, izahsız qalır. Şagird niyə bu gün "üç" dünən isə "beş" aldığını başa düşə bilmir.

Valideynlər də, bir qayda olaraq, tapşırığın yerinə yetirilməsi ilə qiymət arasındakı əlaqəyə az diqqət yetirirlər. Onlar müəllimin qiyməti ilə razılaşırlar.

Əlbəttə, böyüklərin köməyi olmadan şagird öz fəaliyyətinə tənqidi qiymət verməkdə çətinlik çəkir. Nəticədə tədricən şagird üçün qiymət öz əhəmiyyətini itirir. V.A.Suxomlinskinin bu barədə söylədiyi fikirlər əhəmiyyətlidir: "Məktəb həyatının ilk günündən uşağın qarşısında bir büt dayanır – qiymət. Bəziləri üçün bu büt xeyirxah, mehriban, digərləri üçün qəddar, rəhmsizdir. Belə halda uşaq bütü aldatmaq, qiymət xatirinə oxuyur və bu işdən zövq almağı bacarmır".

Valideynlərin uşağa münasibəti istər-istəməz onların aldıqları qiymətə uyğun şəkildə formalaşır. Uşaqlar qiymətlə münasibət arasındakı bağlılığı asanlıqla tuturlar: "Anamın məndən o qədər də xoşu gəlmir, çünki onun ümidini doğrulda bilmirəm. O istəyir ki, mən "əlaçı" olum, amma mən tez-tez "üç" alıram" və s.

Akademik Ş.A.Amonaşvilinin fikirləri maraqlıdır. O, "beş"i qalib, "dörd"ü ümidverici, "üç"ü laqeyd, "iki"ni məğlub, "bir"i məhvedici adlandırır.

Valideynin uşağa münasibəti də onun aldığı qiymətə adekvat qurulur. Uşaq valideynin ümidlərini doğrultmadıqda, onun gözlədiyi baş vermədikdə valideyn daha aqressiv olur. Nəticədə uşağın özünəinamı itir, təlim marağı azalır.

Psixoloq valideynə başa salmalıdır ki, təlim fəaliyyətində başlıca yeri heç də qiymət yox, yeni biliklər qazanmaq tələbatı, məsuliyyət hissi, əməksevərlik, real bilik və bacarıq tutur. Eyni zamanda izah olunmalıdır ki, təlim müvəffəqiyyəti uşağın uğur qazanmasının yalnız bir cəhətidir. Təlimdə uğur qazanılması özü də bir çox amillərdən asılıdır. Bunların arasında valideynin uşaqda öz gücünə inam yaratması, bu işdə ona yardımçı olması heç də sonuncu yerdə dayanmır.

Məlumdur ki, uşağın təlim müvəffəqiyyətində onun ev tapşırıqlarını necə icra etməsi, dərsə hazırlaşması mühüm yer tutur. Ev tapşırıqlarının hazırlanmasında

valideynin, xüsusilə ananın köməyi, uşaqla əməkdaşlığı da vacib şərtlərdəndir, lakin təcrübə göstərir ki, heç də həmişə belə əməkdaşlıq lazımi effekti vermir.

Əməkdaşlığın səmərəsizliyi bir sıra amillərlə bağlıdır. İlk növbədə nəzərə çarpan isə valideynlə uşağın ətraf mühiti dərketməsindəki ziddiyyətlərdir.

Valideyn hər hansı bir materialı dəfələrlə uşağa izah etsə də, uşaq onu qavraya bilmir. Valideyn üçün asan olan materialın uşaq tərəfindən mənimsənilməməsi və ya çətinliklə mənimsənilməsi təəccüb doğurur. Nəticədə valideyn ya əsəbləşir, yaxud da övladını "küt" adlandırır. Uşaq üçün maraqlı, lakin anlaşılmaz olan suallara valideyn cavab vermək istəmir, çünki onları adi şey hesab edir. İdrak fəaliyyətindəki fərqli yanaşmaları psixoloqlar *koqnitiv dissonans* adlandırırlar.

Aşağıda ana və uşağın koqnitiv üslubunun üst-üstə düşən (və ya düşməyən) parametrlərindən bəzilərini veririk:

- materialın öyrənilməsi yolları: ümumi qanunauyğunluqlardan konkret nümunələrə və ya əksinə, ayrı-ayrı faktlardan ümumi qanunauyğunluğa doğru;
- keçmiş materiallarla yeninin əlaqələndirilməsi, müqayisələr aparılması;
- materialın qavranılma forması;
- bu və ya digər fənnə maraq göstərilməsi;
- emosional uyğunluq.

Koqnitiv münaqişə həm də materiala ümumiləşdirilmiş, yoxsa konkret formada fərqli yanaşma zamanı baş verir. Ümumiyyətlə, tədqiqatlar göstərir ki, qadınlarda (qızlarda) subyektiv, kişilərdə (oğlanlarda) obyektiv təhlil, yanaşma üstünlük təşkil edir. Bu, həyat və fəaliyyətin bütün sahələrində özünü göstərir.

Tədqiqatlar göstərir ki, ana ilə övlad arasındakı koqnitiv münaqişə bir çox hallarda uşağın təlimə neqativ münasibətinə səbəb olur. Bu isə təbii ki, valideyn-övlad münasibətlərinin korlanması ilə nəticələnir.

II sinifdən III sinfə keçməklə şagirdin həyatında bir sıra əsaslı dəyişikliklər baş verir. III sinif kiçik məktəb yaşı dövründə mühüm, həlledici dövr hesab olunur. Tədqiqatlar və təcrübə göstərir ki, şagirdlər məhz III sinifdən başlayaraq təlimə şüurlu münasibət bəsləyir, fəallıq göstərir, bütün əlamət və keyfiyyətlərinə görə məktəb həyatına daxil olurlar. Bunların bir qismi məhz bu yaşda intellektual inkişafın səviyyəsi, fiziki yetkinliyin müəyyən həddi, kollektivin formalaşması, müəllim-şagird münasibətinin, əsasən, müəyyən olunması, şagirdin sinifdə statusunun müəyyənləşməsi ilə bağlıdır.

Təcrübə göstərir ki, məhz II sinfin sonları, III sinfin başlanğıcında intellektual inkişafda sıçrayış baş verir. Məhz bu dövrdə verbal təfəkkür, fikri fəaliyyət formalaşır ki, bu da təlim fəallığının yüksəlməsini təmin edir. Təfəkkür imkanlarının genişlənməsi digər idrak proseslərinin də (qavrayış, hafizə, diqqət və s.) inkişafını sürətləndirir. Görkəmli uşaq psixoloqu D.B.Elkonin kiçikyaşlı məktəblilərin inkişaf xüsusiyyətləri barədə yazırdı: "Bu dövrdə hafizə fikirləşən, düşünən qavrayış rolunu da yerinə yetirir". Yəni idrak prosesləri bir-biri ilə daha sıx çulğalaşır, biri digərinin inkişafında maksimum yardımçı olur.

Bu yaş dövründə şagird öz psixi proseslərini ixtiyari şəkildə idarə etməyi öyrənir. Təbii ki, bu xüsusiyyətlərdən müəllim və psixoloqlar inkişafetdirici təlim prosesində istifadə etməlidirlər. Valideynlərlə söhbətdə psixoloq hökmən bu xüsusiyyətlərə diqqət yetirməli, fəaliyyətlərinin əlbir şəkildə qurulmasının vacibliyini onlara başa salmalıdırlar.

Üçüncülərdə diqqətin inkişafı da sürətlənir, əsasən, ixtiyari diqqət formalaşır. Bu amil kiçik məktəb yaşı dövründən təlim müvəffəqiyyətinə də təsir göstərir. Təcrübə göstərir ki, şagirdin təlim uğurları onun diqqətinin inkişaf səviyyəsi ilə birbaşa əlaqədardır. Psixoloji tədqiqatlarla müəyyənləşdirilmişdir ki, diqqətin xüsusiyyətlərindəki fərqli inkişafa (diqqətin mərkəzləşməsi, davamlılığı, həcmi, paylanması, keçirilməsi) uyğun olaraq ayrı-ayrı fənlərdə şagirdin təlim müvəffəqiyyəti də fərqli olur. Riyaziyyatın mənimsənilməsində diqqətin həcmi, Azərbaycan dilinin mənimsənilməsində diqqətin paylanması, oxu təlimində diqqətin davamlılığı başlıca yer tutur. Beləliklə, diqqətin xüsusiyyətlərini inkişaf etdirməklə şagirdin ayrı-ayrı fənlər üzrə təlim müvəffəqiyyətini yüksəltmək mümkündür, lakin maraqlı burasıdır ki, diqqətin ayrı-ayrı xüsusiyyətlərini eyni dərəcədə və eyni yolla inkişaf etdirmək mümkün deyil. Diqqətin həcmini inkişaf etdirmək digərləri ilə müqayisədə daha çətindir. Kiçik məktəb yaşı dövründə diqqətin həcmi 2,1 dəfə yüksəlməsinə baxmayaraq diqqətin keçirilməsi və paylanmasını müəyyən qədər məşq etməklə xeyli artırmaq mümkündür.

Məktəb psixoloqu da bunları həm öz fəaliyyətində nəzərə almalı, həm də bu barədə sinif müəlliminə, valideynə məsləhət verməlidir. O, müxtəlif oyun, tapşırıq və məşğələlərlə valideyni tanış etməli, ondan istifadə yollarını öyrətməlidir.

Məlumdur ki, kiçikyaşlı məktəblilər dərsin öyrənilməsində mexaniki əzbərçiliyə və təkrarlara istinad edirlər, lakin psixoloji tədqiqatlar göstərir ki, bu, o qədər də səmərəli üsul deyil. Onlar bu üsulla mexaniki yaddasaxlamaya nail olurlar. Əslində mənanın yadda saxlanması, məntiqi hafizə təlim prosesi üçün daha səmərəli üsul hesab olunur. Məntiqi hafizə daha çox təfəkkür prosesi ilə bağlıdır. Bununla əlaqədar L.N.Tolstoyun fikri diqqəti cəlb edir: "Bilik o zaman bilik olur ki, o, yalnız hafizəyə deyil, təfəkkürə əsaslanır".

Məsələnin bu cəhətini məktəb psixoloqu valideynlərə izah etməklə yanaşı, marağı olan valideynlərlə bu mövzuda məşğələlər də aparmalıdır. Bütün bunlarla yanaşı, üçüncülərin fəaliyyətində başlıca yeri oxu tutur. Vaxtilə D.Didro deyirdi: "İnsanlar oxumağa son qoyduqda, fikirləşməkdən də əl çəkmiş olurlar".

III sinifdə şagirdlər müstəqil intellektual məşğələ olan oxumağa fərqli münasibət bəsləyirlər. Məlum olduğu kimi, uşaqların bəziləri çox və həvəslə oxuyur, kitabdan ayrılmır, digərləri isə əksinə, oxumağa, yazmağa meyl göstərmir, yalnız məcburiyyət qarşısında bu işi həvəssiz yerinə yetirirlər.

Aydındır ki, az və həvəssiz oxuyan şagirdlərin oxu texnikası da pisdir. Oxu vərdişinin olmaması təlim müvəffəqiyyətinə də mənfi təsir göstərir. Yəni digər vərdişlər kimi, oxu vərdişi də gərgin səy və iradə tələb edir. Əlbəttə, yalnız məktəbdə, dərs vaxtı belə vərdişi yaratmaq vaxt məhdudluğundan mümkün

deyil. Deməli, şagirddə oxu vərdişinin yaradılması üçün hökmən valideyn bu işə cəlb olunmalıdır.

Psixoloqların fikrincə, oxu vərdişinin yaranmasında uşağın emosional vəziyyəti xüsusi əhəmiyyət kəsb edir. Valideynlər bilməlidirlər ki, uşaq onların köməyini, həvəsləndirməsini çox yaxşı qəbul edir, onda özünəinam hissi artır.

Oxu tələbatı heç də öz-özünə yaranmır, lakin burada güc tətbiq edilməsi də yolverilməzdir. Oxu vərdişi illər uzunu yaranır və valideynin özünün oxumağa marağı, uşaqda da tədricən vərdiş yaratması az əhəmiyyət kəsb etmir.

IV sinif kiçikyaşlı məktəblilərin bu mərhələdə təlim fəaliyyəti ilə məşğul olduqları, uşaqlığın sonuncu ilidir. Dördüncülər ibtidai sinif məzunlarıdır. Bir mərhələnin ən böyük uşaqları, yeni başlayacaq mərhələnin isə ən kiçik üzvləridir. IV sinifdə şagirdlərin əksəriyyətində fərdi təlim üslubu formalaşır. Bu, ev tapşırıqlarının yerinə yetirilməsi prosesində özünü daha bariz şəkildə göstərir. Uşaqların bəziləri məktəbdən gələn kimi ev tapşırıqlarını həll etməyə başlayır, bəziləri isə müəyyən qədər istirahət etdikdən sonra. Kimisi tez və asanlıqla işə başladığı halda, digərlərinin hazırlıq mərhələsinə müəyyən qədər vaxt lazım olur. Bəziləri fəaliyyətə çətin tapşırıqların, dərslərin icrası ilə başladığı halda digərləri asan işləri əvvələ salırlar. Bəziləri cədvəl, diaqram, sxem, qrafik təsvir olan başqaları isə bədii təsvir vasitələri olan materialları daha asan qavrayırlar.

Təlim materiallarının belə fərqli qavranılması və öyrənilməsi şagirdlərin fərdi-tipoloji xüsusiyyətləri, iş qabiliyyətləri, idrak imkanları, informasiyanı qavrama və təhliletmə xüsusiyyətləri, ayrı-ayrı fənlərə maraqları ilə bağlıdır.

Ev tapşırıqlarını yerinə yetirmək, dərsə hazırlaşmaq üslubundan başqa, təlim bacarıqları, vərdişləri və keyfiyyətində də bu fərqlər özünü göstərir, lakin bunlarla yanaşı, təlim müvəffəqiyyəti üçün hamıya aid olan keyfiyyətlər də vacibdir:

- müəllimi dinləmək;
- dərs prosesində başlıca məqsəd və ideyaları tuta bilmək;
- təlim materialının məzmununu sadə və anlaşıqlı dillə çatdırmaq;
- müəllimin suallarına cavab vermək;
- mətnə dair suallar tərtib edə bilmək;
- informasiyaya uyğun olan nəticə çıxarmaq;
- fikirlərini yazılı şəkildə başqalarına çatdırmaq;
- əlavə ədəbiyyat, ensiklopediya, sorğu kitabçaları, lüğətlərdən istifadə etməyi bacarmaq;
- öz işini düzgün qiymətləndirmək.

Bu bacarıqların əksəriyyəti fikri əməliyyat qabiliyyəti hesab olunur: müqayisə etmək, oxşar və fərqli cəhətləri tapmaq, qruplaşdırmaq, təsnif etmək, başlıca olanı ayıra bilmək, ümumiləşdirmək, məntiqi nəticə çıxarmaq.

Bütün bunları hələ ibtidai siniflərdə öyrənmək lazımdır, çünki sonrakı mərhələlərdə təlim yükü xeyli artır və mürəkkəbləşir. V sinifdən başlayaraq bu bacarıqlara əsaslı şəkildə yiyələnmək daha vacib olur, xüsusi əhəmiyyət kəsb

edir. İnformasiya bolluğu, məzmun mürəkkəbliyi şəraitində bu bacarıqları əxz etmək xeyli ağır başa gəlir.

İbtidai siniflərdə dərsliklə düzgün işləməyi bacarmamaq, əzbərçilik etmək üzündən təlimin keyfiyyəti aşağı düşür, şagird tez yorulur, iş qabiliyyəti azalır.

IV sinifdə şagirdlərin çoxunun təlim maraqları differensiallaşır, onlarda müxtəlif fənlərə fərqli münasibət yaranır.

Bu və ya digər fənnə göstərilən maraq şagirdin fərdi qabiliyyətləri, meyilləri ilə bağlıdır. Bəzən elə şagirdlər olur ki, heç bir fənnə maraq göstərmirlər, lakin hər kəsin nəyəsə qabiliyyəti olduğu çoxdan sübut edilib. Sadəcə olaraq, həmin qabiliyyəti üzə çıxarmaq, inkişaf etdirmək lazımdır.

Şagirdin gündəlik həyatı yalnız məktəb divarları arasındakı təlim fəaliyyəti ilə məhdudlaşmır. Şagirdin məktəbdən kənardakı həyatı onun inkişafı, şəxsiyyət kimi formalaşmasında heç də təlim fəaliyyətindən az rol oynamır, bəlkə də əksinə, daha əhəmiyyətli təsirə malik olur.

Biz bu şagirdlərlə bağlı məktəb psixoloqunun görməli olduğu işləri saymağa, konkret göstərməyə zəruri ehtiyac görmədik. Digər problemlərlə bağlı qeyd etdiyimiz işlər bu şagirdlərə də aiddir. Biz sadəcə olaraq, onların təlim fəaliyyəti, psixoloji xüsusiyyətləri ilə bağlı mühüm olanları göstərdik. Bu cəhətlərə isə həm müəllimlər, həm də məktəb psixoloqu əhəmiyyət verməli, onu nəzərə almalıdır.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, "Maarif", 1989.
2. Bağırova L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı, "Nərgiz", 2003.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Ozan", 1998.
4. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, "TS", 2000.
5. Детский практический психолог. Под. ред. О.А.Шаграевой, С.А.Козловой. М., "Академия", 2001.

**Психологические характеристики младших школьников и организация психологической службы с ними**

Резюме

В статье анализируются вопросы связанные с психологическим развитием личности, раскрываются механизмы деятельности обучения и организации психологической службы в младшем школьном возрасте. В статье так же изучаются взаимоотношения учащихся с учителями.

**Psychological characteristics of primary school children and organization ofpsychological services with them**

Summary

The article examines issues related to the psychological development of personality, reveals the mechanisms of leaning and organization of psychological services in primary school age. The article also examines the relationship of students to teachers.

# UŞAQLARA PSİXOLOJİ XİDMƏTİN AKTUAL MƏSƏLƏLƏRİ

**Limunət Əmrahlı**
RTPİ-nin sosioloji tədqiqatlar şöbəsinin müdiri,
psixologiya üzrə fəlsəfə doktoru, dosent



*Açar sözlər:* uşaqlara psixoloji xidmət, şəxsiyyət pozuntuları, psixoloji vəziyyət, affekt, stress, nevroz, frustrasiya, nevrasteniya

*Ключевые слова:* психологическая служба для детей, повреждения личности, психологическое состояние, аффект, стресс, невроз, фрустрация, неврастения

*Key words:* psychological service to children, personality disturbances, psychological state, affect, stress, neurosis

Son onilliklərin təcrübəsi göstərir ki, ictimai-siyasi, sosial şəraitin dərinləşməsi texnogen əsrinə xas olan özünəməxsus əsəb-psixi pozuntular əmələ gətirir. Bunun nəticəsidir ki, uşaqların psixoloji köməyə ehtiyacı gündən-günə artır. Bu problemin qarşısını əvvəlcədən almaq mümkündür. Uşaqlara psixoloji xidmət bir neçə istiqamətdə təşkil olunur: şəxsiyyət, davranış, fəaliyyət və ünsiyyət, onların diaqnostikası və korreksiyası.

Uşaqların şəxsiyyət xüsusiyyətlərini təsvir edən elə sorğular vardır ki, onların köməyi ilə davranış pozuntularını müəyyən etmək mümkündur. Əgər həmin siyahıdakı əksər mülahizələr uşaqların davranışına uyğun gəlirsə, o zaman müvafiq tədbirlərin görülməsi zəruridir. Belə sorğular yaşa görə fərqlənir, məsələn, uşaqlarda aqressiyanın, delikvent (pozulmuş) davranışın, diqqətsizliyin müəyyənləşdirilməsində bu xususiyyətlərin olub-olmaması aydınlaşdırılmalıdır. Şəxsiyyət pozuntuları zamanı uşaqlarda aşağıdakı əlamətlər özünü göstərir.

***Davranışı.*** Özünü qəribə aparır. Yaşlıdan çox asılı olur. Ona görə də fikri dağılır, davranışını təşkil edə bilmir. Bir yerdə otura bilmir, yorulmur, həddən artıq fəal olur. Çox fırlanır, qarışıqlıq salır. Təklikdən şikayətlənir. Tez-tez ağlayır, özündən və başqalarından şikayətlənir. Hərəkətləri pis koordinə olunur, yöndəmsizdir. Başladığı işi sona çatdırmır. Tapşırıq üzərində mərkəzləşə bilmir. Diqqətini əlaqəsi olmayan başqa bir şeyə yönəldir. Qəsdən özünə və başqalarına aid olan kitab-dəftəri cırır, oyuncaqları korlayır.

***Ünsiyyəti.*** Qapalıdır, yoldaşları ilə ünsiyyət qurmur. Özünü yaşına görə daha kiçik uşaq kimi aparır, davranışı yaşına uyğun gəlmir. Bəzən özünü əks cinsdən olan uşaq kimi aparır. Vaxtını ya özündən böyüklərlə, ya da özündən kiçiklərlə keçirməyə üstünlük verir. Başqalarının xoşlamadıqları, qəbul etmədikləri uşaq-

larla birgə olmağa çalışır, onlarla ünsiyyət yaradır. Digər yaşıdlarından, eyni zamanda özündən böyük və kiçiklərdən seçilir. Başqa uşaqlarla yola getmir. Davadalaş salmağa meyillidir. Pis iş gördükdə belə özünü günahkar hiss etmir. Başqa uşaqlar tərəfindən sevilmir.

***Əxlaqı.*** Lovğalıq, həyasızlıq, boşboğazlıq edir, özünü ədəbsiz aparır, donquldanır, dişlərini qıcayır, nəyi isə gəmirir, yersiz mübahisə edir, zəhlətökən fikirlərdən uzaqlaşa bilmir. Özünü sayğısız, qeyri-adi aparır, hoqqabazlıq edir. Başqalarını aldadır, hiyləgərlik, dələduzluq edir, fırıldaqçılıqla məşğul olur, tapşırıqları başqalarından köçürür. Söhbət zamanı, yaxud dərsdə başqalarının sözünü kəsir. Səliqəsizdir, kitab-dəftərləri ləkəli, əzik-üzük olur. Oğurluq edir.

***Özünüqiymətləndirməsi.*** Özünə xüsusi diqqət yetirilməsindən xoşlanır. Hesab edir ki, tələbləri dərhal yerinə yetirilməlidir. Bu baş vermədikdə özündən çıxır, hirslənir. Hesab edir ki, həmişə eyibsizdir. Ona elə gəlir ki, heç kəs tərəfindən sevilmir. Tənqidi ağrılı qəbul edir. Qəddar, qısqanc və qorxaqdır. Başqaları ilə öcəşir, dava salır, qisas alır. Öz üzərinə hansısa işin məsuliyyətini götürmək, cavabdehik daşımaq istəmir. Qayğısına qalan insanların, o cümlədən, valideynlərin zəhmətini qiymətləndirmir.

***Təhsilalmaya münasibəti.*** Məktəbi sevmir. Ev tapşırıqlarını həll etmir. Tapşırıqlara, təlimatlara çətinliklə əməl edir. Bəzən qaydalara, təlimatlara sözsüz tabe olur. Tədris materiallarını mənimsəməkdə çətinlik çəkir. Dərsə gecikir. Diqqəti tez yayınır, dərsi pozur, hay-küy salır. Dərsdə yatır, dərsdən qaçır və ya buna meyilli olur. Apatiyalıdır, heç nə ilə maraqlanmır. Kifayət qədər fəal və enerjili deyil. Öz qabiliyyətlərindən lazımi qədər istifadə etmir.

***Emosional sahəsi.*** Kədərli və qəmgindir Özünü xoşbəxt hiss etmir. Bir sıra situasiyalarda, yerlərdə nə isə pis bir şey edəcəyindən qorxur. Elə zənn edir ki, başqa insanlar ona hücum etmək, yaxud zərər toxundurmaq istəyirlər. Tez-tez və hər şeydən qıcıqlanır. Özündən başqa kimsənin eşitmədiyi səslər, siqnallar eşidir. Başqalarının görmədiyi şeylər görür.

Narahatlığa, həyəcanlanmağa meyilldir, ağlayıb-sızlayır. Utancaqdır, halı tez qarışır. Tənhalığa daha çox üstünlük verir. Çox qorxaq, narahat və həyəcanlıdır. Hər şeydə özünü günahkar bilir. Əhval-ruhiyyəsi gözlənilmədən dəyişir. Başqalarından şübhələnir. Səhv etməkdən qorxur. Fantaziyaya meyillidir, çox şeyi özündən uydurur. Qeyri-adi fikirlər, ideyalar irəli sürür. Özünü öldürəcəyi ilə hədələyir, buna meyilli olur.

***Fiziki aqressiya.*** Özünü ələ ala bilmir: impulsivdir, düşünmədən hərəkət edir. Burnunu qurdalayır, bədənini qaşıyır. Dırnaqlarını gəmirir. Əsəbi, həssas və gərgindir. Tez-tez təkrarlanan hərəkətlər edir: tıqqıltı salır, kipriklərini tez-tez qırpır, dodaqlarını gəmirir, ayaqlarını yerə, döşəməyə, digər yerlərə döyəcləyir. Eyni hərəkətləri dəfələrlə təkrarlayır: məsələn, düyməni didişdirir, qapıların bağlı olub-olmadığını yoxlayır. Danışmaqdan imtina edir. Sirrini kimsəyə açmaq istəmir. Tez-tez zədələr, fiziki travmalar alır.

***Nitq və verbal aqressiya.*** Nitqində çətinliklər olur. Sözləri uzada-uzada danışır. Çox danışır. Hay-küylə, ucadan danışır. Adamları hədələyir. Ədəbsiz sözlər işlədir. Dalaşqandır. Başqalarına sataşır, söyür, hövsələdən çıxarır. Həmişə çalışır ki, nəyə isə yaradığını sübut etsin.

***Səhhəti.*** Səhhətində tibbi mənşəyi aydın olmayan müxtəlif xarakterli problemlər olur: baş və bədən ağrıları, nəfəs darıxması, kefsizlik, əzginlik, gözlərdə, dəridə səpgi, qaşınma və s. Qarın nahiyəsində ağrı və sancılar, gəyirmə və digər fiziki problemlər baş verir. Çox yorulur. Tez-tez baş gicəllənməsi olur. Çəkisi normadan artıq olur. Lazımsız şeylər yeyib- içir.

Nəticələrə görə uşaqlarda pozuntuların səbəbləri müxtəlif sahələrlə əlaqələndirilir: *somatik problemlər, sosiallaşmanın pozulması, təfəkkürün, diqqətin problemləri, aqressiya, daxili və xarici problemlər.*

Şəxsiyyət pozuntuları müxtəlif amillərin təsiri ilə yaranan psixoloji vəziyyətlərlə daha da dərinləşə bilir: stress, aqressiya, frustrasiya, nevroz və b.

***Stress*** (ingiliscə-*təzyiq, gərginlik*) – insanın müxtəlif obrazlı emosional təsirlər nəticəsində meydana gələn gərgin vəziyyətidir. O, fizioloji, psixoloji və davranış səviyyəsində meydana çıxır. Bu, şəxsiyyətdaxili münaqişələrdə geniş yayılmış reaksiyalardan biri hesab olunur. Nəticədə stress münaqişənin sonrakı inkişafına təkan verir, yaxud yenilərini yaradır.

Stress adı altında xarici və daxili amillərdən yaranan, fizioloji və psixoloji hadisələrlə müşayiət olunan hədələyici vəziyyət başa düşülür. Stress halında insanın xarici aləmə adaptasiyası pozulur, mühit təsirlərinə qarşı cavab reaksiyaları dolaşıq olur, situasiyanı düzgün ayırd edərək özünüistiqamətləndirmə çətinləşir. Fərd üçün asan olan sadə məsələlərin həlli də mümkünsüz kimi görünür. Bu halda həyatın istənilən, ən əhəmiyyətsiz pozuntusu fərd üçün özündə məmnunluq yaratmaq cəhdinə qarşı böyük maneəyə çevrilir. Bütün bunlar şəxsiyyətin böhranlı vəziyyətini əks etdirir.

Normal insanlar belə stress vəziyyətinə düşür, ondan çıxış yolları axtararaq çox zaman buna nail olurlar. Stresslə mübarizə onunla qarşı-qarşıya dayanan ümidin, səbrin psixofizioloji mexanizmi hesabına başa gəlir. Bu mexanizmin təbiətən mövcudluğu stressin psixoloji reallıq kimi mövcudluğunu sübut edir. Əgər səbr olmasaydı uşaq hər dəfə daha dərin böhranla qarşılaşardı.

Subyekt daim özünün mənəvi rahatlığı üçün mübarizə aparır. Bu səbəbdən hər dəfə üzləşdiyi stressi sərbəst şəkildə yox etməyi hələ erkən yaşlardan sınaqdan keçirir. Stressi dəf etmək üçün mövcud motivin əhəmiyyətinin azaldılması; başqa həyati münasibətlərə qoşulma; səbr; ümid kimi mexanizmlər təklif olunur:

***Affekt.*** Stresslə mübarizədə ilk iki mexanizm affektə tabe olur. Onların sərhədləri xaricində münaqişə başlayır. Bu münaqişə şüurun bütün sisteminin tamlığının pozulmasına gətirib çıxarır. Psixoloji sağlamlıqda bundan çətin, başqa bir təhlükəli vəziyyət təsəvvür etmək çətindir.

Affekt halında olan insanda *indidən* kənarda heç nə mövcud deyil. Heç bir *orada* və *sonra* mövcud deyil. Sanki onun həyatı *burada* və *indi* tamamlanır, son

nöqtəsinə yığılıb. Hər şey bu an bitəcək, o artıq *heç vaxt heç bir yerdə* olmayacaq. *İndi deyilsə, heç vaxt, burada yoxsa, heç harda* düşüncələri insanın affekt halındakı düşüncələrinin xronikasından xəbər verir. Aydındır ki, belə vəziyyətin özü artıq böhrandır, psixi sağlamlıq üçün təhlükəlidir. Belə vəziyyətdə insandan sadə, çılğın hərəkətlərdən, nəyi isə sındırmaqdan, kimi isə təhqir etməkdən intihara, cinayətə qədər hər şey gözləmək olar.

Q.Qefdinq affekti davamlı, ehtiraslı, güclü emosiyalar kimi qiymətləndirir. Z.Freyd belə emosiyalar sırasına cinsi emosiyaları da əlavə edir. Emosional gərginlik hər bir insan üçün səciyyəvidir, lakin onun xroniki vəziyyəti ehtiraslara, affektlərə çox yaxındır. Şüur normal intellektual fəaliyyət göstərdikdə emosiyalar üçün müvafiq assosiasiya mexanizmləri yaranır. Bu halda emosiyalar üçün heç bir təhlükə yoxdur. Əksinə, psixoloji halət ehitras vəziyyətində olduqda həm normal emosional, həm də intellektual vəziyyət üçün təhlükə yaranır. İnsanın affekt halında emosiyalarının belə tənzimedici təsiri bədən hərarətində də hiss olunur. Utancaqlıq, qorxu, sevinc kimi emosional halətlər bədəndəki hərarəti dəyişdirir. Bu baxımdan əqli iş zamanı ayrılan enerji ilə müqayisədə emosional fəaliyyət (yaradıcılıq) zamanı ayrılan enerji daha çoxdur. Ona görə də affektin beyin fəaliyyətinə təsiri digər təsirlərdən əhəmiyyətli dərəcədə fərqlənir.

***Frustrasiya*** (latınca-frus, tratio-*pozğunluq, planların dağılması*) məqsədə nailolma, yaxud tapşırığın həlli zamanı meydana çıxan, obyektiv çətinliklərə səbəb olan psixi vəziyyətidir. Frustrasiya uyğunsuzluğun, yaxud həllolunmaz ziddiyyətin ağır təəssüratıdır. Ona psixoloji stressin bir forması kimi də baxılır.

Frustrasiya özü də təbiətinə görə böhranla oxşardır. Bu, onunla izah edilir ki, fərd üçün həyati əhəmiyyət kəsb edən vacib tələb ödənilmədikdə onun mənəviyyatı hədə altında olur və bu psixoloji vəziyyət böhranla eyni gücə malikdir. Elə görünür ki, burada heç bir mürəkkəblik, motivlərin mübarizəsi, nəhayət, heç bir münaqişə də yoxdur, hər şey unudulub. Belə yanaşma psixologiyada birtərəflilik kimi qəbul olunur. Əslində, fərdin qapalı görünən, konkret fəaliyyətə yönəlmiş, konkret impulslarla nizamlanan fəaliyyəti yaxşı təhlil olunarsa, əldə olunan nəticələr xarici aləmlə real münasibətləri aydınlaşdırmağa imkan verər.

Fərdin daxili aləmində mürəkkəblik yarandığı zaman səbəblərini, istiqamətlərini, motivasiyasını aydınlaşdırmadan onun aktuallaşmasına çalışmaq münaqişələrin yaranmasını qaçılmaz edir, hətta frustrasiya yaradır. Frustrasiya vəziyyəti fərd üçün həlli çətin olan, lakin zəruri saydığı arzularını, meyillərini reallaşdırmaq üçün cəhd etdiyi situasiyalarda bu cəhdlərin xarici psixoloji təsirlərlə sıxışdırılması, neytrallaşdırılması prosesində əmələ gəlir.

Bu zaman fərdin daxili narahatlığı digərləri üçün mübahisə mövzusu olmur və heç kəsi maraqlandırmır. Başqaları üçün qəbul olunmayan, özü üçün isə aydın, ideal saydığı material qadağaların təsiri ilə şüuraltına qovulur. Diqqətli insanlar belə frustrativ vəziyyətdə olan insanlarda daxili problemlərin mövcudluğunu hiss edirlər. Davranışda onun simptomları təsadüfi hallarda,

gərkin emosional narahatlıq keçirdiyi zaman müşahidə olunur. Göründüyü kimi, mühitin qadağaları açıq şəkildə daxili problemə çevrilir. Sonda frustrasiya vəziyyəti münaqişə üçün material ola bilir.

***Nevrozlar*** (yunanca *neuron-sinir*). Bu qrup psixogen təbiətə malik, sinir-psixi pozğunluğun daha geniş yayılmış formasıdır. Nevrozun əsasında şəxsiyyət və onun üçün əhəmiyyətli olan gerçək faktorlar arasındakı ziddiyyətlər dayanır. Şəxsiyyətin özünün müsbət və rasional şəkildə həll edə bilmədiyi dərin, şəxsiyyətdaxili münaqişə nevrozların vacib səbəblərindəndir.

Şəxsiyyətdaxili münaqişələrin insanın psixikası və şəxsiyyəti üçün fəsadlar törətməsi şübhəsizdir. Davamlı, yaxud təkrarlanan münaqişələr, hətta orqanik dəyişmələr əmələ gətirir. Bu baxımdan, şəxsiyyətdaxili münaqişələr öz nəticələrinə görə konstruktiv (funksional, produktiv); destruktiv (disfunksional, qeyri- produktiv) ola bilər.

Birinci öz nəticələrinə görə müsbət, ikinci mənfi xarakter daşıyır. Şəxsiyyət meydana gələn situasiyadan çıxa bilmədiyi, daxili struktur vəziyyətini produktiv və vaxtında həll edə bilmədiyi zaman şəxsiyyətdaxili münaqişələr qeyri produktiv istiqamətə yönəlir.

Şəxsiyyətdaxili münaqişələrin ən yüksək həddi olan nevrotik münaqişə istənilən yaş dövründə əmələ gələ bilər, lakin əksər hallarda o, uşaqlıq dövründə əhatə olunan sosial mikromühitlə və ilk növbədə valideynlərlə münasibətlərin pozulması zamanı toplanır. Yaşanmış təəssüratdan çıxış yolu axtarmaq nəticədə şəxsiyyətin pozulmasına, nevrozların əmələ gəlməsinə səbəb olur.

***Təngə gətirən vəziyyət nevrozu.*** Ümumnevrotik simptomlardan fərqli olaraq bu nevroz ağır psixi zədələnmələrdən sonra yaranaraq çox zaman özünü fobiya şəklində büruzə verir.

Nevrotik münaqişələrin və nevrozların ortaya çıxması ilə daxili ziddiyyətli vəziyyətlərlə xarakterizə olunan nevrotik şəxsiyyət formalaşır. Nevrotik şəxsiyyətin normal insandan fərqindən danışarkən K.Xorni bunu vegetativ sinir sistemindəki pozuntularla əlaqələndirir. Belə ki, bu sistem orqanizmdə maddələr mübadiləsinin, daxili orqanların və qan dövranı, tənəffüs, qan-damar və başqa sistemlərin fəaliyyətini tənzimləyir. Şəxsiyyətin münaqişələri mərkəzi sinir sisteminin bir halqası olduğundan psixikaya, psixoloji vegetativ sistemə, o da öz növbəsində digər sistemlərə təsir göstərir.

Nevrotikın başqalarına gərgin münasibəti, tənqidə qarşı xəstə reaksiya, gizli düşmənçilik bu şəxsiyyəti həddən artıq konfliktli edir. Onun başqalarına münasibəti isə daim rəqabət üzərində qurulur. Bununla da, nevrotiklər normal insanlardan fərqlənirlər. K.Xorni nevrotik rəqabəti adi rəqabətdən fərqləndirən üç xüsusiyyəti ayırır: Nevrotik insan lazım olmayan situasiyalarda belə daim özünü başqaları ilə müqayisə edir. O, öz gücünü potensial rəqibi olmayan insanlarla ölçür. Onun həyata münasibətini at yarışındakı jokeyin hissləri ilə müqayisə etmək olar. Yarışda digər jokeylərin sürətini müəyyən etmək onun üçün xüsusi əhəmiyyət kəsb edir.

Nevrotikin rəqabətinin fərqi ondadır ki, bütün münasibətlərdə unikal və qeyri-adi olmağa çalışır. O, bütün sahələrdə yaxşı olmalıdır. Bu da uğur qazanan insanların məmnunluq duya bilməməsinin səbəblərindən biridir. Onun fərqi həm də gizli düşmənçiliyində, ustanovkasındakı ("Məndən başqa heç kim gözəl, qabiliyyətli, uğurlu ola bilməz") fikirləri özündə əks etdirir.

***Nevrasteniya.*** Onun əsas simptomları aşağıdakılardır: yüksək oyanıqlıq, ağlağanlıq, depressiyaya gətirib çıxaran emosiya və əhval-ruhiyyədəki qətiyyətsizlik. Bəzi vəziyyətlərdə həyəcan və qorxu, yuxu pozğunluğu, sinir sisteminin müxtəlif pozuntuları əmələ gəlir.

***İsteriya.*** Nevrozun isterik forması çoxobrazlıdır və tez-tez mextəlif xəstəliklər adı altında maskalanır. Onlardan rast gəlinənləri, əsasən, aşağıdakılardır: hərəki pozğunluq, iflic olma, hərəkət kordinasiyasının pozulması, nitqin pozulması və s.

Bu cəhətləri nəzərə almaqla uşaqları elə tərbiyə etmək lazımdır ki, onlar psixoloji mədəniyyətə sahib olsunlar. Hər bir uşaq həyatı boyu cəmiyyət üçün dəyərli şəxsiyyət olmağa çalışsın. Onun şəxsiyyəti özünün motivasiyası, meyil və maraqları ilə cəmiyyətin sosial normalarına uyğun, ahəngdar inkişaf etsin. Nəticədə şəxsiyyətin mənəvi yönümləri, təhliletmə və müqayisəetmə qabiliyyətləri üzə çıxsın. Ona görə də uşaqların inkişafında psixoloji xidmətə geniş yer verilməlidir.

Ədəbiyyat


1. Əliyev R. I. Tərbiyə psixologiyası. Bakı, "Nurlan", 2006.
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı, ADPU - nun mətbəəsi, 2008.
3. Выготский Л.С. Собрание сочинений. 4 т. Детская психология. М., "Педагогика", 1984.
4. Гардпер Р. Психотерапия детских проблем. СПб., "Речь", 2002.
5. Корнилова Т., Григоренко Е, Смирнов С. Подростки группы риска. СПб., "Питер", 2005.
6. Фрейд А. Детский психоанализ. М.СПб., 2003.


**Актуальные вопросы работы психологической службы детей**

Резюме


Здесь характеризована психологическое состояние личности проблемных детей, численность которых в последнее десятилетие повышена в несколько раз. Впоследствии этого предполагается повышение психологических проблем психики этих детей, таких как: аффект, стресс, невроз, фрустрация, неврастения и др. Одним из путей избежания таких состояний может быть организация своевременного воспитания психологической культуры детей.


**Urgent problems of psychological service to children**

Summary


Here is spoken about the psychological state of children with psychological problems. Their number has increased during the last decade. The result of this problem is considered increasing the psychological problems as: affect, stress, neurosis and so on. The modern organization of children's psychological culture may be the solution of this problem.

# UŞAQLARA VƏTƏNPƏRVƏRLİK HİSSİNİN AŞILANMASINDA MUSİQİ MƏŞĞƏLƏLƏRİNİN ROLU

**Şəfiqə Əliyeva,**
Bakıdakı 272 nömrəli körpələr
evi-uşaq bağçasının müdiri

*Milli vətənpərvərlik, hərbi vətənpərvərlik hər bir vətəndaşın hələ körpəlikdən həyat prinsipi, idealı və nizamnaməsi olmalıdır.*
*H.Əliyev*



Təhsilin ilkin pilləsi olan məktəbəqədər yaş dövrü uşaqlarda əxlaqi keyfiyyətlərin inkişafı üçün əsas dövrdür. Uşaqlarda ilkin vətənpərvərlik hissləri bu dövrdə formalaşmağa başlayır. Azərbaycan Respublikasının müstəqillik yolunda uğurla addımladığı bir dövrdə uşaqların erkən yaşlardan doğma vətənə məhəbbət ruhunda tərbiyə olunması, aktual bir problem kimi qarşımızda durur. Vətənə məhəbbət hissi müqəddəs hissdir. Bu müqəddəs hissin formalaşmasına uşağın anadan olduğu ailədə başlanır, uşaq bağçasında və məktəbdə davam etdirilir. Vətənə məhəbbət anaya, xalqa məhəbbətdir.

Uşaqlar vətəni sevmədən, onun adət-ənənələrinə yiyələnmədən ata və babalarımızın keçdiyi yollara nəzər salmadan, onlardan qəhrəmanlıq nümunələrini öyrənmədən vətənpərvər ola bilməzlər.

Müstəqillik şəraitində böyüməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsi aktuallıq nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini qorumağı, Vətən uğrunda canından keçməyi, onun hər qarış torpağı uğrunda mübariz olmağı uşaqlara öyrətmək vacibdir.

Rəhbərlik etdiyim 272 nömrəli körpələr evi-uşaq bağçasında uşaqların vətənpərvərlik tərbiyəsi ön plandadır. Uşaqlara ətraf aləmlə tanışlıq, nitq inkişafı məşğələlərində, gəzinti və ekskursiyalarda vətənpərvərlik hissləri aşılanır. Musiqi rəhbəri Mehriban Lətifova peşəkar mütəxəssis kimi bu

sahəyə xüsusi diqqət yetirir. O, musiqi vasitəsilə uşaqlarda vətən, vətənpərvərlik haqqında düzgün təsəvvür formalaşdırır. Milli əsgər formasında «Cəngi» marşının sədaları altında əlində üçrəngli bayraq tutub qürurla addımlayan balaca əsgər vətəni Azərbaycanla fəxr edir. Tərbiyəçinin səhnələşdirdiyi «Torpaqdan pay olmaz» səhnəciyində rolları ifa edən uşaqlar əsl döyüşçü kimi çıxış edirlər.

Mehriban Lətifovanın keçirdiyi ictimai-siyasi bayramlar – «18 Oktyabr Milli Müstəqillik günü», «28 May Respublika günü», hər il mayın 10-da keçirilən ümummilli liderimizin, ulu öndərin ad günü və digər tarixi günlər uşaqlarda milli qürur hisslərini formalaşdırır, vətəni sevmək, onu qorumaq kimi əxlaqi keyfiyyətləri inkişaf etdirir. Tərbiyəçinin hərbi vətənpərvərliklə bağlı keçirdiyi «Sərhədçi», «Kəşfiyyatçı», «Təyyarəçi» oyunları uşaqlarda mərdlik, cəsurluq, iğidlik, qorxmazlıq hisslərini inkişaf etdirir. Tərbiyəçinin hazırladığı müxtəlif geyimlər, oyun atributları (qalxan, qılınc, dəbilqə və s.), alətlər uşaqlarda xüsusi maraq doğurur. Hərbi vətənpərvərliklə bağlı keçirdiyi səhnəciklərdə, oyunlarda uşaqlar hərbi işin müxtəlif növləri ilə tanış olurlar.

Mehriban Lətifovanın 20 yanvar – hüzn günü, 26 fevral – Xocalı soyqırımı, 31 mart – soyqırım günü münasibətilə keçirdiyi tədbirlər uşaqlarda düşmənə nifrət hissini gücləndirir, vətənə, onun hər bir qarış torpağına məhəbbət hissini artırır. Tədbirlərə dəvət olunan müharibə veteranları, döyüşçülər uşaqlarda vətəni qorumaq hisslərini formalaşdırırlar. Tərbiyəçi vətən torpağı uğrunda canlarından keçmiş mərd oğul və qızlarımız haqqında da məlumat verir. Ölümündən sonra onlara Milli Qəhrəman kimi ən yüksək fəxri adın verilməsindən söz açır.

Uşaqların vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsində musiqi məşğələlərinin rolu əvəzedilməzdir.

**«18 oktyabr Müstəqillik günü»***nə həsr olunmuş bayram səhərciyi.*

Musiqi zalı bayramsayağı bəzədilmişdir. Səhnədə Heydər Əliyevin portreti asılmış, güllərlə «18 oktyabr» sözləri yazılmış, ətrafı bayraqlar və şarlarla bəzədilmişdir. Uşaqlar Polad Bülbül oğlunun «Şən Azərbaycan» mahnısının sədaları altında zala daxil olurlar. Sonra məktəbə hazırlıq qrupunun uşaqları (əllərində gül və bayraqlarla) zala daxil olur, dairə şəklində dayanırlar.

*I uşaq:* «18 oktyabr, 1991-ci il». Bu sözlər vətənimin tarixinə qızıl hərflərlə yazıldı.

*II uşaq:* Azərbaycan Respublikası müstəqil, azad, demokratik dövlət elan edildi.

*I uşaq:* Vətənimizin üzərində azadlıq günəşi doğdu. 19 ildir ki, Azərbaycan müstəqil bir dövlət kimi yaşayır və inkişaf edir.

*II uşaq:* Mən hamını bu bayram münasibətilə təbrik edir, müstəqilliyimizin əbədiliyini arzulayıram. Bayramınız mübarək! (Alqışlar).

*Aparıcı:*
– Əziz uşaqlar və qonaqlar! Biz xoşbəxtik. Ona görə ki, müstəqil və azad Azərbaycanda yaşayıb yaradır, hüquqlarımızı müdafiə edirik.

Azərbaycan! Qayəsi nur, mayası nur ki,
Hər daşından alov dilli ox ola bilər.
Azərbaycan deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

Hamı ayağa qalxaraq «Dövlət himni»ni ifa edir. Sonra uşaqlar O.Zülfüqarovun «Əziz vətən» mahnısını oxuyurlar.

*I uşaq:* Qolundakı zəncirlərdir qırılan,
Dərdlərimin qollarıdır qırılan.
Uçurulan, ay təzədən qurulan
Azərbaycan, azadlığın mübarək!

*II uşaq:* Qızartmışdır şəhid qanı göyünü,
Açılıbdır taleyinin düyünü.
Bayram elə, şənlik elə bu günü,
Azərbaycan, azadlığın mübarək»!

*III uşaq:* Dünya gəlsin bayramına, toyuna
Əhsən desin millətinə, soyuna.
Düşməyəsən bir də heç vaxt oyuna,
Azərbaycan, azadlığın mübarək!

Qızlar Azərbaycan xalq rəqsi «Novruzgülü»nü ifa edirlər.

*Aparıcı:*
– Əziz balalar, biz müstəqillik bayramını həmişə qürurla, fəxrlə qeyd edirik. Azərbaycan zəngin təbii sərvətləri olan bir ölkədir. Mənfur qonşularımızın torpaqlarımızı işğal etməsinə dözməyən xalqımız bir nəfər kimi ayağa qalxıb, azadlığını tələb etdi. Bu yolda çoxlu şəhidlər verdi yüzlərlə iğidləri canlarını fəda etdikləri üçrəngli bayrağımızı dalğalandıraq. (Əsgər forması geymiş uşaq, əlində bayraqla H.Abdullayevin «Azərbaycan» mahnısının sədaları altında zal boyu addımlayır).

*Aparıcı:*
– Əziz balalar, bizim hər birimizin ürəyində bir nisgil var: Qarabağ nisgili! Torpaqlarımızın 20 faizi düşmən tapdağı altındadır. Elə bir gün gələcək ki, üçrəngli Azərbaycan bayrağı Xankəndində, Şuşada dalğalanacaq.

Əziz balalar, ulu öndərimiz H.Əliyev Azərbaycanı çətin sınaqlardan, bu keçməkeşli yollardan qurtardı. Onun başçılığı ilə Azərbaycan parçalanıb məhv olmaqdan qurtardı. Onun uzaqgörənliyi nəticəsində Azərbaycan inkişaf etdi, gücləndi və öz sözünü deməyi bacaran bir ölkəyə çevrildi. O demişdir: «Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir».

I uşaq: Ədalətin carçısı,
Həqiqətin aynası
Vətənimin dirəyi
Heydər babamdır mənim.

II uşaq:Odur xalqın köməyi,
Həm döyünən ürəyi,
Həyatımın mənası,
Heydər babamdır mənim.

Sonra uşaqlar M.Lətifovanın «Heydər baba» mahnısını ifa edirlər. Oğlanlar əllərində qılıncla «Cəngi» musiqisinin sədaları altında rəqs edirlər.

Oğlan əlində «avtomat»la oynayan qıza yaxınlaşır.

– Günel, yenə mənim avtomatımı götürmüsən? Sənə neçə dəfə demişəm ki, avtomatla qızlar deyil, oğlanlar oynayarlar?

– Bəs mən nə ilə oynayım? Axı avtomatla oynamaq mənim xoşuma gəlir. Özümü iğid, qəhrəman hesab edirəm.

– Gör nə qədər kuklaların var, onlarla oyna.

– Qızla oğlan dalaşır, anaları gəlir.

– Yenə niyə dalaşırsınız? Qoyun rahat işimi görüm.

– Ana, Vüqar mənə deyir ki, tüfənglə yalnız oğlanlar oynayar. Qızlar silah işlətməyi bacarmamalıdırlar.

– Eh, ay bala, vətən darda olanda hamı vətənin əsgəri olmalıdır! Azərbaycanın tarixində neçə-neçə qadın qəhrəmanlar olub. Onlar öz qardaşları, ataları ilə birgə çiyin-çiyinə vuruşublar. Tomris İran hökmdarı Kirin qoşunlarını darmadağın edib.

– Tomris kimdir, ana?

– Gəlin, səhnəciyə baxaq.

Səhnədə taxtda əyləşmiş Tomris hökmdar və yanında dayanmış bir qız.

– Axır vaxtlar sizi yaman fikirli görürəm, hökmdarım.

– İran şahı Kir yavaş-yavaş torpaqlarımızı ələ keçirir. Elçi göndərib, məni sarayına dəvət edir. Bununla, bütün torpaqlarımızı zəbt etmək istəyir.

– Siz ona nə cavab verdiniz?

– Mən onun təklifini rədd etdim. (Bir uşaq gəlib, Tomrisə baş əyir).

– Pis xəbər gətirmişəm, Tomris ana. İran şahı qoşunlarını keçirmək üçün Arazın o tayından bu tayına körpü salmaq istəyir. (Tomris fikirli halda gəzişir).

– Burada bir hiylə işlətmək gərəkdir. Kirə xəbər göndər ki, niyə əziyyət çəkib körpü saldırır. Yol verərik, rahatca keçib gələrlər.

– Kir taxtda əyləşib. Keşikçi Kirə təzim edərək deyir:

– Şahım, Tomris elçi göndərib.

– De gəlsin, görək nə xəbər gətirib? (Elçi gəlir).

– Şahım, Tomris ana dedi ki, daha niyə əziyyət çəkib, körpü saldırır? Biz onlara yol verərik. Rahatca keçib gəlsinlər. ( Kir əli ilə elçiyə «get» deyir, ucadan gülür).

– Tomris elə bilir ki, o, hiyləgərdir. Daha bilmir ki, mən ondan da hiyləgərəm, Arazı azacıq qoşunla keçərəm, orada yaxşı süfrə açaram. Yemək-içmək, çoxlu içki qoyaram, içkiyə dərman qataram. Onlar yeyib-içib yatarlar, mən də hücum edib, hamını qıraram (Gülə-gülə səhnədən gedir).

Tomris:

– Oğul, sən mənim bircə, qəhrəman balamsan. Səni döyüşə göndərirəm, qəfil hücum edərək onları darmadağın et. (Oğlan «baş üstə» deyib gedir. Onlar vuruşur, yeyib-içib yatırlar).

Kir:

– Aha, hiyləmiz baş tutdu. İndi Tomrisin oğlu əlimizdədir. Onu gətirin. (Oğlanın əllərini bağlayıb, Kirin qabağına gətirilər).

– Şahım, Tomris ana xəbər göndərdi ki, oğlunu geri qaytaraq, onun başından bir tük əskik olsa, hamımızı qıracaq.

Oğlan:

– Əllərimi açın, su içmək istəyirəm (Əllərini açırlar). Bizdə kişilər şərəfsiz yaşamaqdansa, ölümü üstün tuturlar. Yaşasın Azərbaycan!
– O, yanındakı döyüşçünün qılıncını götürüb, ürəyinə sancır.

Bir döyüşçü həyəcanla Tomrisin yanına gəlir:

– Tomris ana, oğlunuz özünü öldürdü.

Tomris:

– Ehey, igidlər, döyüşə hazırlaşın! Bu döyüş son döyüş olacaq, ya qalib gələcəyik, ya da məhv olacağıq. (Cəngi çalınır, döyüşçülər vuruşurlar. Tomrisin ordusu qalib gəlir. Kirin başını Tomrisə gətirirlər).

Tomris əmr edir:

– Mənə içi qanla dolu tuluq gətirin. (Gətirirlər)

Tomris Kir başını tuluğun içinə salıb deyir:

– Sənin gözün qandan doymadı, bəlkə indi doyasan. Qana-qan, ölümə-ölüm! Budur bizim düşmənə cavabımız! Ehey, igidlər! Üç tonqal qalayın. Üç tonqal qələbə rəmzidir! Gün gələcək ki, Azərbaycan bütöv, güclü, bir dövlət olacaq. Yaşasın Azərbaycan!

Hamı xorla «Yaşasın Azərbaycan!» deyir, sonra uşaqlar heyratının sədaları altında oxuyurlar:

Qalx ayağa, ey millət!
Boğmasınlar səsimizi.
Azadlıq bayrağının,
Altında birləşdir bizi.

Aparıcı

– Əziz balalar, bu gün də bizim vətən uğrunda, torpaq uğrunda şəhid olmağı şərəf bilən Mübariz İbrahimov kimi igid oğlanlarımız var. Biz Vətənimizin azadlığı üçün, xoşbəxt həyatımız üçün onlara həmişə borcluyuq. Şəhidlərimizin ruhunun şad olması, vətənimizin müstəqilliyinin qorunması üçün onun layiqli vətəndaşı olmalıyıq. Gəlin, əl-ələ verərək vətənimizi daha işıqlı gələcəyə aparaq.

Bununla da 18 oktyabr Müstəqillik gününə həsr olunmuş səhərcik sona çatır. Hamı yallı ifa edir.

Ədəbiyyat


1. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı,2005.
2. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı "Nasir", 2000.
3. Xəlilov V.C. Musiqi əsərləri vasitəsilə şagirdlərin vətənpərvərlik tərbiyəsi. "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 1974, №2.
4. Rəcəbov O, Miriyeva U.M. Musiqi və mənəvi tərbiyə. "Maarif" , Bakı, 1995.


**Роль музыкальных занятий в привитии детям патриотических чувств**

Резюме


В статье речь идет о привитии младшим школьникам патриотических чувств с использованием в этом процессе занятий по музыке. Именно посредством музыки и с использованием разных видов наглядности у учащихся можно сформировать должные патриотические качества.

В указных целях для учащихся разрабатываются сценические эпизоды патриотического характера типа «Земля родная неделима» и пр. По данной проблеме дается содержание некоторых сцен о патриотизме.


**The role of music lessons to children in instilling patriotic feelings**

Summary


The article focuses on instilling patriotic feelings of the younger pupils, using this process, classes in music. It is through music and using different kinds of visibility of students can form a proper patriotic qualities.

In order for students ukaznyh developed stage scenes of the patriotic nature of the "native land is indivisible," etc. In this issue, given the content of some scenes of patriotism

# AZƏRBAYCANDA İBTİDAİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MEYDANA GƏLMƏSİ VƏ İNKİŞAF YOLLARI

**Hüseyn Əhmədov,**
akademik



*Açar sözlər:* ibtidai təhsil, təhsilin məzunu, ibtidai məktəblərin müəllim heyəti, Qori Müəllimlər Seminariyasında müəllim hazırlığı problemi, müəllimlərin elmi-pedaqoji və ictimai fəaliyyəti.

*Ключевые слова:* начальное оброзование, содержание обичения, учимельский состав начальных школ, проблема подготовки учителей в Горийской Учительской Семинарии, научно- педагогической и общественной деятельности учителя.

*Key words:* primary learning conte edu cation nt, teacher of primary schools, the problem of teac hertraining in Gori Teachers Seminary, scientific and pedagogical work of teachers.

Kiçikyaşlı uşaqlara təhsil verən məktəblərin meydana gəlməsi tarixi qədim olduğu qədər də zəngindir. Əsrlər boyu geniş yayılmış bu təhsil ocaqlarının tarixi qədim Şərq mədəniyyəti ilə, ilk növbədə ərəb və fars təhsil sistemləri ilə əlaqədar olmuşdur.

VII əsrdən başlayaraq Azərbaycanda yeganə təhsil ocaqları olan və dini-ruhani təhsillə yanaşı az-çox dünyəvi təhsil elementləri də aşılayan bu məktəblər mahiyyətcə ibtidai təhsil verirdi. Uşaqların təhsili ilə, əsasən, dini təhsil görmüş şəxslər məşğul olurdu. Məscidlərin nəzdində və ondan asılı olan ayrı-ayrı şəxslər tərəfindən açılan bu məktəblərin bəziləri səliqəli binalarda yerləşirdi. Naxçıvan vilayətinə həsr edilmiş mənbələrdən birində Ordubad şəhərindəki məktəb binası belə təsvir edilir: «Məktəb binası xüsusilə gözəldir: bayır görünüşü dördbucaqlıdır. Bişmiş kərpicdən tikilmişdir. Dördkünc həyəti, çarhovuzu və suyun olması üçün daşdan düzəldilmiş arx vardır. Aşağı mərtəbədə molla yaşayır və uşaqları oxudur» (Bax: Статистическое описание Нахичеванский провинции, СПБ, 1833, стр.194).

İbtidai məktəb adlandırdığımız bu tədris ocaqları bütün kənd və şəhərlərdə mövcud idi. Arxiv sənədlərində göstərilən məlumata görə 1858-1859-cu illərdə Şamaxı quberniyasında (4700 nəfər şagirdin təhsil aldığı) 299 məktəb, Nuxa (indiki Şəki – H.Ə.) qəzasında isə (1389 şagirdin təhsil aldığı) 168 məktəb var idi.

1890-cı illərin məlumatına görə Zaqafqaziyada belə məktəblərin ümumi sayı 750 idi ki, burada 10 073 şagird, o cümlədən 883 qız təhsil alırdı.

XIX əsrin 30-cu illərindən Azərbaycanın bir sıra şəhərlərində qəza məktəbi adı altında təhsilin, əsasən, rus dilində verildiyi ibtidai məktəblər təsis edildi.

1830-cu ildə Şuşada, 1831-ci ildə Nuxada, 1832-ci ildə Bakıda, 1833-cü ildə Gəncədə, 1837-ci ildə isə Naxçıvan və Şamaxıda əsası qoyulmuş bu məktəblər

xəzinə hesabına açılırdı. Bu məktəblərin açılması ilə Azərbaycan dili müstəqil bir fənn kimi tədris planına daxil olundu.

XIX əsrin 50-ci illərində Azərbaycan ərazisində ibtidai məktəb adı ilə daha 3 məktəb təşkil olundu. Quba, Ordubad və Lənkəranda, bir qədər sonra isə Zaqatala və Bakıda da belə məktəblərin əsası qoyuldu. Bu məktəblər şagirdin çoxluğu ilə fərqlənirdi. Bütün bunlarla yanaşı, təkcə Azərbaycan ərazisində deyil, Zaqafqaziya vilayətlərində yaşayan azərbaycanlılar arasında, sözün həqiqi mənasında, ibtidai təhsilin yayılması 1876-cı ildə Qori şəhərində əsası qoyulan Zaqafqaziya Müəllimlər Seminariyası ilə bağlı olmuşdur. Seminariyanın nəzdində 1879-cu ildə təsis edilən Azərbaycan şöbəsi bu işdə tarixi rol oynadı.

XIX əsrin 70-ci illərinə qədər Azərbaycanda müəllim kadrları hazırlayan xüsusi bir müəssisə yox idi. Dövlət məktəblərində işləyən müəllimlər, bir qayda olaraq, Rusiyadan dəvət edilirdilər. Azərbaycan dilini isə yerli ziyalılar məsələn, (Gəncədə M.Ş.Vazeh, M.F.Axundov, M.Ə.Elxanov və b.) tədris edirdilər. Tiflis Gimnaziyasında imtahan verərək müəllimlik şəhadətnaməsi alan digər müəllimlər də var idi.

Çarizmin qanunlarına görə müsəlman dininə mənsub olanlara dövlət etibar etmir, yerli dil və şəriət istisna olmaqla, onlara müəllimlik vəzifəsi tapşırılmır və ümumiyyətlə, müsəlmanlardan müəllim kadrları hazırlamaq, orduya xidmətə qəbul etmək zərərli sayılırdı.

1861-ci il fevralın 19-da qəbul edilmiş təhkimçilik hüququnun ləğvi məktəb sahəsinə də təsirsiz qalmadı. Hökumət 60-cı illərin ictimai-maarifçilik hərəkatının güclü təsiri nəticəsində məktəb təhsilinin qeyri-mükəmməl sisteminin bütün sahələrində islahat keçirməyə məcbur oldu. 1864-cü il iyulun 14-də qəbul edilən «İbtidai xalq məktəblərinin əsasnaməsi»ndə hökumət ictimaiyyətin tələblərinə güzəştə getməli oldu.

L.Modzalevski (1837-1896) yazırdı: «Bu dövrdə ölkənin təhsil işində ümumi canlanma o qədər böyük idi ki, Şuşa, Zaqatala və b. yerlərdən Qafqaz canişininin yanına deputatlar heyəti gəlir və ya ərizələr göndərərək yeni məktəblər açmağı tələb edirdilər, hətta kəndli icmaları da bu yüksək faydalı işə qoşulur, onun üçün xeyli ianə toplayırdılar». (Ход учебного дела на Кавказе с 1802 по 1880 гг, Тифлис, 1880, c.50.) Beləliklə, 70-ci illərdən başlayaraq yerli əhalinin rus dilində ümumtəhsil məktəblərinə ehtiyacının artması hökuməti bu məktəblər üçün müəllim hazırlamaq məsələsi ilə daha ciddi məşğul olmağa məcbur etdi. 70-ci illərin ortalarında meydana gələn kənd ümumtəhsil məktəbləri də bu məsələyə xeyli təkan verdi. Qafqaz Təhsil Dairəsinin (QTD) popeçiteli 1875-ci ilə aid hesabatında yazırdı ki, son vaxtlar Zaqafqaziya müsəlmanlarının düzgün təşkil edilmiş ümumtəhsil məktəblərinə daxil olmağa cəhd göstərməsi təbii olaraq bizi müəllim hazırlığı barədə düşünməyə vadar edir. «Əgər gələcək müsəlman məktəblərindən ötrü müəllim hazırlamaq üçün xüsusi pedaqoji müəssisə təsis etmək hələ tezdirsə, Qazan Hərbi Gimnaziyasında təhsil alan Qazan müsəlmanı T.Mamleyevə Salahlıda təşkil etdiyi ilk rus məktəbinə əhalinin rəğbətini hiss etməmək olmaz. Bütün bunlar göstərir ki, müsəlmanlardan müəllim hazırlığı gələcəkdə yerli əhaliyə müsbət təsir göstərər və onları məktəb açmağa həvəsləndirər. Ona görə də hazırda bu sahədə hər hansı addım atmaq tələbini çətin ki, inkar etmək mümkün olsun. (Циркуляр по

управлению КУО, 1876, №9, приложение. Отчет попечителя КУО о состоянии учебных заведений за 1875, с.35)

Məktəb direktorluqları da müəllim kadrlarının çatışmadığını dönə-dönə qeyd etməyə məcbur oldular. Bakı-Dağıstan məktəblər direktoru 1878-ci il fevralın 8-də QTD-nə göndərdiyi raportda yazırdı ki, «1878-ci il iyulun 1-dən nəzərdə tutulan 5 kənd normal məktəbində və yenidən qurulması lazım gələn digər məktəblərdə işləmək üçün müəllimlik hüququ olan şəxslər son dərəcə çatışmır». (Gürcüstan Respublikası MDA, f. 422, s.1, iş №1, 4995, v. 1 arx.)

Bütün bu tədbirlər nəticəlsində XIX əsrin 70-ci illərindən başlayaraq, Rusiyada olduğu kimi, Zaqafqaziyada da kənd məktəbləri üçün müəllim kadrları hazırlayan xüsusi məktəblər – müəllimlər seminariyaları meydana gəldi. Zaqafqaziya və Qafqazda ilk müəllimlər seminariyası 1871-ci ildə Kubanda, 1876-cı ildə isə Qori şəhərində açıldı. Zaqafqaziya Müəllimlər Seminariyası (ZMS) adlanan bu məktəb əvvəlcə üç şöbədən: rus, gürcü və erməni şöbələrindən ibarət idi. Seminariyaya qəbul olunan ilk 50 nəfərin içərisində bir nəfər belə azərbaycanlı yox idi. Bu cəhətə diqqəti yönəldən Qafqaz Tədris Dairəsinin popeçiteli 1876-cı ilə aid hesabatında yazırdı ki, «Mən şəxsən bu cəhəti Şeyxülislamın nəzərinə çatdırdım və o, yerli müsəlmanlardan heç olmazsa, bir nəfərin seminariyada oxuması üçün vəsait ayırmağı vəd etdi».

Bu tələblər hökuməti müəllimlər seminariyaları haqqında olan ümumi qanundan kənara çıxmağa, seminariyaların bəzisində nəinki təkcə «pravoslavların», həm də xristian olmayan digər millətlərin nümayəndələrinin də oxumasına icazə verməyə məcbur etdi. Bütün bunlar onunla nəticələndi ki, 1879-cu il sentyabrın 23-də Qori şəhərindəki ZMS nəzdində Azərbaycan şöbəsi açıldı. Azərbaycanlılardan müəllim kadrları hazırlanmasında tarixi rol həmin şöbənin öhdəsinə düşdü. ZMS-nin Azərbaycan şöbəsi fəaliyyət göstərdiyi 40 il ərzində 250-dən artıq əsl xalq müəllimi hazırlamışdı.

Ömrünü xalq yolunda şam kimi əridən, tarixə xalq müəlliminin nümunəsi kimi daxil olmuş, müəllimlik sənətinin vurğunu olan Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Səfərəli bəy Vəlibəyov, Əliş bəy Tahirov, Mahmudbəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Pənah Qasımov, Hənəfi Terequlov, Əli Hüseynov, Fərhad Ağazadə, Səməd bəy Acalov, Teymur bəy Bayraməlibəyov, Süleyman Sani Axundov, Bədəlbəy Bədəlbəyov, Azad Əmirov, Müseyib İlyasov, Əhmədağa Mustafayev, Yusif Qasımov, Əli Qəmərli, Əhməd Seyidov və onlarca gəncin hər biri bir tarixi şəxsiyyət, sənətkar, ustad kimi formalaşdı.

Azərbaycan şöbəsinin təşkilində, onun tərəqqisində A.O.Çernyayevskinin (1840-1894) çox mühüm xidmətləri olmuşdur. Azərbaycan müəllimlərinin böyük bir dəstəsi A.O.Çernyayevskidən dərs almışdır. A.O.Çernyayevski xalqın təhsilində, maarifin yayılmasında müəllimə böyük əhəmiyyət verirdi. Müəllim və onun hazırlığına aid K.D.Uşinskinin müddəalarını rəhbər tutan A.O.Çernyayevski yazırdı: «İbtidai xalq məktəblərinin canı müəllimdir. Tədris işinin müvəffəqiyəti ondan asılıdır. O, kənd əhalisinin qaranlıqda qalan kütləsi içərisində maarif işinin pioneridir». Bu cəhətdən o, Azərbaycan şöbəsinin məzunlarının rolunu xüsusi qeyd edirdi: «Həqiqətən demək lazımdır ki, tatar (Azərbaycan-H.Ə.) şöbəsi məzunlarının

çoxu avam xalq kütləsi içərisinə təhsil işığı gətirir». (А.О.Черняевский. Мусульманское духовенство и народные школы, газ. «Кавказ» №242, 1893.)

A.O.Çernyayevskidən sonra seminariyanın Azərbaycan şöbəsinə rəhbərlik edən F.Köçərli, R.Əfəndiyev, S.Vəlibəyov, Şeyxülislam Ə.Axundzadə seminaristlərin elmi-pedaqoji və metodik hazırlığında unudulmaz xidmətlər göstərmişlər.

Azərbaycanlılardan müəllim kadrlarının hazırlanmasında İrəvan Müəllimlər Seminariyası da mühüm rol oynamışdır. Azərbaycanın kənd məktəblərində çalışan müəllimlərin bir dəstəsi məhz İrəvan Müəllimlər Seminariyasının yetirmələri idi.

Azərbaycanlılardan müəllim kadrlarının hazırlanması Azərbaycan kəndlərində yeni-yeni məktəblərin açılmasına şərait yaratdı. Beləliklə, keçən əsrin 80-ci illərindən başlayaraq Zaqafqaziyanın başqa yerlərində olduğu kimi, Azərbaycanda da xalq maarifi və məktəbin inkişafı üçün nisbətən əlverişli şərait yarandı. Bir tərəfdən yerlərdə xalq məktəbləri direksiyasının təşkili, digər tərəfdən ZMS nəzdində Azərbaycan şöbəsinin yaradılması ibtidai məktəb şəbəkəsinin tədricən genişlənməsi ilə nəticələndi.

Xalq məktəbləri adlanan ibtidai məktəb şəbəkəsi XIX əsrin son 10 ilində nisbətən sürətlə genişlənirdi. Əgər 30 il ərzində Bakı quberniyasında cəmi 28, Gəncə quberniyasında isə 24 ibtidai məktəb açılmışdısa, tam olmayan məlumata görə, əsrin sonuncu 10 ili ərzində Bakı quberniyasında 53, Gəncə quberniyasında isə 67 ibtidai xalq məktəbi açılmışdı. XX əsrin əvvəllərində bu iki quberniyada 172 ibtidai məktəb (91-i Gəncə, 81-i isə Bakı quberniyasında) fəaliyyət göstərirdi. Bu məktəblərdə təhsil alan 11.410 şagirddən 2473-ü qız idi.

İbtidai məktəblərin genişlənməsinin əhəmiyyəti onda idi ki, azərbaycanlılar rus dilinə və bu dilin köməyi ilə Rusiya və qabaqcıl Avropa mədəniyyətinə yiyələnirdilər. Xalq məktəbləri əhali arasında rus dilini, dünyəvi təhsili yayan yeganə ümumtəhsil məktəbləri idi. Bu məktəblərin meydana gəlməsi Azərbaycan dili və ədəbiyyatının, teatr və incəsənətin bir çox sahələrinin inkişaf etməsində də çox mühüm rol oynadı. Kənd məktəblərinin xalq müəllimləri bu işdə əvəzsiz xidmətlər göstərir, özlərinin çoxsahəli fəaliyyətləri ilə xalq maarifini, məktəb və mədəniyyəti inkişaf etdirirdilər.

Təhsilin məzmunundakı səthiliyə, təlimin, əsasən, rus dilində aparılmasına, onun təşkilindəki qüsurlara baxmayaraq, xalq məktəbləri ictimaiyyət içərisində yeganə ümumtəhsil müəssisəsi olub, əhalinin qabaqcıl dəstəsinin hüsn-rəğbətini qazanırdı. Bir sıra kənd məktəblərinin müdirləri hesabat xarakterli yazılarında və məlumatlarında bu məktəblərin əhəmiyyətini qeyd edirdilər. Qutqaşen (indiki Qəbələ – H.Ə.) kənd məktəbinin müdiri Vaqid bəy Musabəyov 1895-ci ildə yazırdı: «Məktəbin təsis edildiyi 1882-ci ildən bəri kəndlilər arasında 100 nəfərdən çox savadlı adam vardır ki, bu, ancaq məktəbin nəticəsidir». (С-П МДТА, ф.91, с.3, иш №380, в.300.) Ağcabədi kənd məktəbinin müdiri Ə.Muxtarov yazırdı: «Ağcabədinin şəhərdən aralı olması və digər səbəblərə görə burada xalq maarifi çoxdandır ki, ləng inkişaf edirdi. Kəndli öz oğlunun, heç olmazsa ana dilini öyrənməsi üçün kənddə və ya kənarda məktəbə qoymağa çox nadir halda imkan tapırdı, lakin burada məktəb açılması ilə kəndlilər onun faydasını dərk etməyə başlamışdılar. Yeni məktəbin açılması ilə köhnə təhsilin xarakteri dəyişir, köhnə qayda yenisi ilə əvəz edilir, təlimin tezliklə mənimsənilməsinə səbəb olur. Kəndlilərin öz uşaqlarının tərbiyəsinə cəhd etmələri də, ancaq məktəbin təsiri ilə əlaqədardır». Əhali get-gedə

məktəbdə yeni siniflər açılmasını tələb edirdi. İndi birsinifli məktəbdə verilən təhsilin məzmunu kəndliləri təmin etmir və onlar məktəbi, heç olmasa, ikisinifli məktəbə çevirməyi tələb edirdilər (С-П МДТА, ф.91, с.3, иш №381, в.69.). Məktəbin tam kursunu bitirənlər aldıqları təhsil ilə kifayətlənmir, təhsillərini davam etdirmək üçün digər məktəblərdə yer axtarırlar.

Bəzi müdirlərin hesabatlarında kənd məktəblərinin təkcə uşaqların təhsilinə deyil, ümumiyyətlə, əhalinin ümumi mədəni və məişət həyatının yaxşılaşmasına müsbət təsiri göstərilir. Bu cəhətdən Şıxlı məktəb müdirinin qeydləri xarakterikdir. O, yazırdı: «Burada məktəb açılana qədər əhali oğurluq və adam öldürmək kimi cinayətlər törədirdi. Məktəb açılandan sonra bunlar azalıb, məişətdə də yaxşılığa doğru çox dəyişiklik olub. Əhali öz uşağını böyük həvəslə məktəbə qoyur, hətta qızlar üçün xüsusi şöbə açmağı xahiş edirlər». (С-П МДТА, ф.91, с.3, иш №381, в.271.)

Göyçay, Ağdaş, Bərdə, Ağdam, Qutqaşen, Qubadlı, Cəbrayıl qəzalarında təlim-tərbiyə işi daha yaxşı qurulmuşdu. Bu məktəblər öz işləri ilə təkcə Azərbaycanda deyil, bütün Qafqazdakı kənd məktəbləri içərisində fərqlənirdi. İrəvan-Gəncə xalq məktəblərinin direktoru D.Orlov 1895-1896-cı dərs ilində Qazax qəzasının direktorluğunun tabeliyində olan bütün kənd məktəblərini təftiş etməsinə aid hesabatında Dağkəsəmən və Şıxlı kənd məktəblərinin müvəffəqiyyətini xüsusilə qeyd edərək yazırdı: «Kənd normal məktəblərindən Dağkəsəməndəki dövlət və Şıxlıdakı zemstvo məktəbi daha yaxşı vəziyyətdədir. Hər iki məktəbdə tədris işi düzgün və proqram tələblərinə müvafiq aparılır. Müəllimlər öz vəzifələrini ürəklə yerinə yetirirlər. Dağkəsəmən məktəbində 89, Şıxlıda isə 58 şagird oxuyur. Hamısı müsəlmandır». (С-П МДТА, ф.733, с.203, иш №2839, в.11).

Kənd məktəbləri əvvəllər əhalinin ümumtəhsil tələblərini qismən ödəyirdisə də, məzunlarına heç bir təcrübi bilik və bacarıq vermirdi. Bir sözlə, xalqın məişətinə aid zəruri peşələr üzrə bilik və bacarıq vermədiyindən əhali həmin məktəblərə müəyyən qədər laqeyd baxırdı. Vəndam kənd məktəbinin müdiri əhalinin məktəbə böyük qiymət verməsini, öz uşaqlarını böyük həvəslə məktəbə qoymasını qeyd etməklə bərabər yazırdı: «Kəndlilər məktəbin təkcə savad verməsindən narazıdırlar. Onlar sənət şöbəsi açılmasını arzu edirlər. Onlar istəyirlər ki, uşaqları təkcə rus dilini de-yil, həm də hər hansı bir peşə öyrənsinlər». (S-P MDTA, f.91, s.3, iş №271, v.288.).

XIX əsrin 80-cı illərində Bakı və Gəncə quberniyalarında (Bakı qəzasından başqa) ipəkçilik ən çox inkişaf etmiş sahələrdən idi, lakin bu sahədə köhnə üsul tətbiq edilirdi. Əhaliyə kömək etmək və ona yeni üsulları öyrətmək məqsədilə 1888-ci ildə Şamaxı qəzasının Kürdəmir və Göyçay məktəblərində ipəkçilik şöbələri təşkil edildi. Şöbənin məqsədi təkcə orada oxuyan şagirdlərdən gələcək ipəkçilər hazırlamaqla məhdudlaşmayıb, həm də kənd təsərrüfatı sahəsindən daha çox məhsul götürmək işində əhaliyə kömək etmək idi. Çox keçmədən hər iki məktəbdəki ipəkçilik şöbələrinin şöhrəti bütün quberniyaya yayıldı.

İpəkçilik və bostançılığın öyrədilməsində Qutqaşen məktəbi də xeyli müvəffəqiyyət qazanmışdı. Naxçıvan qəzasındakı Cəhri, Şahtaxtı, Baş Noraşen və İmanşanlı, Zaqatala dairəsinin Qax kənd məktəblərində də kənd təsərrüfatı və sənət şöbələri fəaliyyət göstərirdi. Kənd təsərrüfatına aid məşğələlər əhalinin məişət həyatına müsbət təsir göstərirdi. Mənbələrdən birində oxuyuruq: «Qax kəndində... müəllimin şagirdlərlə birgə təşkil etdiyi bostan nəticəsində kəndlilər də tərəvəz

yetişdirməyi öyrəndilər və hal-hazırda Zaqatalaya arabalarla kələm və kartof aparırlar. Halbuki məktəb təsis edilənədək burada belə şeylər heç bir zaman yetişdirilməmişdi».

Göyçayda M.Mahmudbəyov və Kalaşev, Kürdəmirdə Ə.Muradxanov, Qutqaşendə R.Əfəndiyev, Lənkəranda T.Bayraməlibəyov və b. şagirdlərə kənd təsərrüfatına, xüsusilə ipəkçiliyə aid biliklərin verilməsində böyük əmək sərf etmişlər. T.Bayraməlibəyovun «Bakı quberniyasındakı müsəlman kəndlərində ipəkçiliyin vəziyyətinə dair» adlı məqaləsi elmi əhəmiyyətə malik idi.

Azərbaycan kənd müəllimlərinin qabaqcıl dəstəsi öz elmi-pedaqoji biliyini daim artırmağa çalışırdı. Onların böyük bir qrupu 1881-ci ildən nəşrə başlayan «Сборник материалов для описания местностей и племен Кавказа» adlı məcmuənin səhifələrində çıxış etmiş, bir sıra faydalı əsərlər nəşr etdirmişlər.

Xalq müəllimlərinin elmi-pedaqoci biliyini artırmaq işində müəllimlər qurultayları da mühüm rol oynamışdı. XIX əsrin 90-cı illərində keçirilən müəllimlərin sahə qurultaylarında təlim-tərbiyə məsələləri müzakirə olunur, qabaqcıl pedaqoji təcrübə yayılırdı. Gəncə quberniya müəllimlərinin sahə qurultaylarında təlim-tərbiyə məsələləri, ipəkçiliyi inkişaf etdirməyin səmərəli yolları müzakirə olunmuş, məktəblərdə nümunə dərsləri təşkil edilmişdi. Müəllimlərin sahə qurultayları Nuxa qəzasında daha səmərəli keçirilirdi. Bu qurultaylardan biri 1893-cü ilin aprelində Qutqaşen məktəbində keçirilmişdi. Qurultayın məqsədi müəllimləri kənd məktəblərinin tədris-tərbiyə işləri ilə tanış etmək, rus dili və hesab fənlərinin tədrisini yaxşılaşdırmaq yollarını müəyyən etmək idi. Qurultay təlimdə əyaniliyə üstünlük verilməsini tövsiyə etdi. Qurultayın tövsiyə təklifləri Padar məktəbinin müdiri Q.Bağırov tərəfindən hazırlanmışdı.

XIX əsrin 80-cı illərində heca üsulu savad təlimində müvəffəqiyyət qazanmadı və öz yerini tədricən sövti üsula verdi. Bu üsulun Azərbaycanda yayılmasında böyük rus pedaqoqu K.D.Uşinskinin ana dili təlimi ideyası və onun Qafqazdakı ardıcılları olan D.D.Semyonovun, A.O.Çernyayevskinin xüsusi rolu və xidməti olmuşdur. A.O.Çernyayevskinin «Vətən dili» dərsliyi istər höccələmə, istərsə də hərf-heca üsuluna qarşı ilk qüvvətli zərbə idi. F.Köçərlinin yazdığına görə sövti üsulla dərs demək və dərslik tərtib etmək islam aləmində ilk dəfə Azərbaycanda ortaya çıxmışdır. Bu dərsliyin meydana gəlməsi, ana dili təlimində ondan istifadə edilməsi Azərbaycan məktəbi tarixində mühüm pedaqoji hadisə idi. Özünün quruluşu, tərtibi prinsipləri, dilinin sadəliyi, şagirdlərin yaş və bilik səviyyəsinə uyğunluğu etibarilə «Vətən dili» dərsliyi K.D.Uşinskinin eyni adlı dərsliyinə uyğun olmaqla, həm də orijinal idi. Professor M.Mehdizadənin çox haqlı olaraq yazdığı kimi, heç bir mübaliğə etmədən demək olar ki, yalnız bu dərsliyin meydana gəlməsi ilə Azərbaycan dilinin tədrisi müəyyən mənada düzgün metodik istiqamət aldı. Bütün bunlar Azərbaycan dilinin gələcək inkişafına qüvvətli təkan verdi. Yni dərsliklər ana dilimizin saflığını qoruyub saxladı, uşaq ədəbiyyatının inkişafına da güclü təsir göstərdi.

Ədəbiyyat

1. Əhmədov. H. XIX əsr Azərbaycan məktəbi. III nəşr, Bakı, 2006.
2. Naxçıvan əyalətinin statistik təsviri. SPB, 1833 (rusca).
3. Modzalevski. L. Qafqazda 1802-1880-cı illərdə təhsil işinin gedişi. Tiflis, 1880 (rusca).
4. QTD popeçitelinin sərəncamları, Tiflis, 1876, №9 (rusca).
5. Gürcüstan Respublikası MDTA, 422-ci fond.

**К истории возникновения и развития начального образования в Азербайджане**

Резюме

Начальное образование в Азербайджане имеет свою многовековую и богатую историю. До ХЫХ века, система воспитания и обучения детей была связана с Восточной культурой, арабо-фарсидской системой образования. Содержание образования, в основном носило полурелигиозный характер. На высоком уровне преподавалась классическая Восточная литература и другие светские науки.

После аннексии Азербайджана Россией открылись начальные училища, где преподаванне велось в основном на русском языке. Азербайджанский язык изучался как самостоятельный предмет. После открытия азербайджанского отделения при Горийской Учительской Семинарии сеть начальных училищ расширилась, были составлены новые учебники по звуковому методу.

**For the history and development of primary Education in Azerbaijan**

Summary

Primary education in Azerbaijan has its long and rich history. Until hyih century system of education and training of children was associated with Eastern culture, the Arab-Persian system of education. The content of education, mainly bore semi-religious character. At a high level taught classical Eastern literature and other secular sciences.

After the annexation of Azerbaijan, Russia opened a primary school where instruction was mainly in Russian. Azerbaijani language is taught as an independent subject. After the opening of the Azerbaijani branch of the Teachers Seminary in Gori network of elementary schools has expanded, new textbooks were compiled by a sound method.

## ТРАДИЦИИ И СОВРЕМЕННОСТЬ

**Юлия Муханова,**

*учитель начальных классов, заслуженный учитель №160,*

**Фаина Алекперова,**

*директор Классической Гимназии №160, заслуженный учитель*





Мы считаем за честь рассказать о работе нашей гимназии и её начальной школы в этом юбилейном выпуске.

Многим бакинцам хорошо известно старинное здание в центре города по проспекту Азадлыг. В нем с 1943 года расположена наша стошестидесятая бакинская школа, с 2006-2007 учебного года ставшая Классической гимназией №160.

Наша гимназия сильна традициями, имеет свой гимн, девиз, эмблему.

Своей миссией Гимназия считает: формирование образованного, толерантного, всесторонне развитого гражданина Азербайджана, воспитанного на национальных традициях и общечеловеческих ценностях;

качественное, дифференцированное обучение на основе педагогики сотрудничества;

многопрофильное и разноуровневое обучение;

создание атмосферы творчества, духовности и интеллигентности;

соответствие международным стандартам образования.

Классическая гимназия – это учебное заведение с повышенным уровнем образования. Главной её целью мы считаем создание условий для становления и развития творческой высокообразованной интеллигентной личности, способной успешно функционировать в гражданском обществе. Основными задачами нашей гимназии являются ориентированность на универсальное образование, развитие интеллектуальных и творческих способностей учащихся, устойчивой мотивации к учению и самообразованию, включение учащихся в поле интеллектуальной, познавательной и социально значимой деятельности, воспитание лидеров.

Сегодня в 69 классах – комплектах на русском и азербайджанском языках в двух сменах обучается 2300 учащихся 32 национальностей. Из них 28 классов (около тысячи учащихся) – это наша начальная школа. В гимназии 43 предметных кабинета, из них 12 - начальных классов, оборудованные всем необходимым для осуществления качественного образования, в том числе средствами ИКТ, наглядными пособиями, раздаточным материалом.

Из 150 педагогических работников – 4 кандидата наук, 5 Заслуженных учителей Азербайджана (из них 2 – Юлия Муханова и Саадат Азизова – учителя начальных классов), 20 экспертов и авторов тестов Государственной Комиссии по приему студентов, более 20 авторов новых программ, учебников, пособий и методических статей, 25 награждены различными знаками отличия Министерства образования Азербайджана. Ежегодно учителя школы занимают призовые места в педагогических чтениях, конкурсах на лучшего учителя, психолога, руководителя кружка, на лучшие методические рекомендации.

18 учителей разных поколений ( в том числе, 2 учителей начальных классов – Рейхан Рахманова и Юлия Карпухина) - выпускники нашей школы. И это не случайно - любовь к учительской профессии им привили именно в 160-ой. Наши учителя - это «золотой фонд» гимназии!

Коллектив нашей гимназии много лет работал над проблемой “Гуманизация образования. Педагогика сотрудничества”, в этом учебном году начали работать над проблемой «Учить учиться». Гимназия является объектом посещения слушателей курсов повышения квалификации учителей, базой для педагогической практики студентов ряда вузов страны.

У нас в гимназии действуют Школа Молодого Учителя, Школа Передового Опыта, психологическая служба, методический совет. Традиционно проводятся конференции “Опыт лучших – всем!”, “Творческий поиск молодых”, выставка “Творческая лаборатория учителя”. С большим интересом учителя участвуют в интерактивных заседаниях педсовета на темы: «Школа для детей», «Культура школы: психолого- педагогический климат в коллективе», «Учить учиться» и т.п.

В нашей гимназии в качестве гимназического компонента, преподаются основы психологии, риторика, основы мироздания, шахматы, этика и этикет. Наряду с базисными, изучаются такие курсы, как «Здоровый образ жизни», «Введение в экономику», «Мировая художественная культура», «Национально-культурное насле-

дие», второй иностранный язык (в азербайджанском секторе изучаются английский и русский языки, в русском – английский и немецкий языки).

В работе гимназии успешно применяются компьютерные технологии: мы располагаем 2 компьютерными залами с 60 компьютерами, имеется доступ в Интернет, информатика преподается с первого класса. Гимназия является участником проекта **«Электронная школа»,** на уроках по различным предметам, в первую очередь в начальных классах, систематически применяются средства ИКТ, что соответствует требованиям Национального курикулума. Стоит отметить,что учителя начальных классов Улдуз Оджагова и Лейла Кадырова стали общественными консультантами по курикулуму для своих коллег.

Наш коллектив учителей начальной школы представлен учителями разных поколений, имеющие педагогический стаж более 50 лет Юлия Муханова, Светлана Абрамова передают накопленный опыт молодым учителям Лейли Мамедовой, Нигяр Шафиевой, Сабине Мамедовой. Во главе дружного и работоспособного коллектива – хранитель традиций «началки» завуч Сона Карабекова, председатели методических объединений Светлана Абрамова (русский сектор) и Лала Гамидуллазаде (азербайджанский сектор). В центре внимания методобъединений учителей начальных классов - работа по дальнейшему совершенствованию качества обучения, внедрение новых образовательных технологий, поиск эффективных методов обучения и воспитания, выявление и распространение лучшего опыта, наставничество, работа над техникой чтения, развитием кругозора учащихся, проведение предметных олимпиад. Стоит отметить, что учителя начальных классов азербайджанского и русского сектора работают в тесном сотрудничестве.

Методические объединения учителей начальных классов нашей гимназии ставят цель перед каждым учителем – достичь максимального уровня общего развития каждого гимназиста, и этому как нельзя лучше способствуют уроки предметов гимназического компонента.

Развитию математического, логического мышления способствуют уроки с опережением программы по математике Саадат Азизовой. Повышению уровня кругозора учащихся помогают специальные занятия по подготовке к олимпиадам, которые проводят Тамилла Бабаева, Ирина Мустафазаде,Рейхан Рахманова, Сабина Мамедова, Сабина Омарова. Уроки психологии (психологический практикум «Учись учиться»), проводимые в первых классах психологами Валидой Багировой и Айтен Алиевой, способствуют развитию внимания, памяти, мышления учащихся. Уроки внеклассного чтения и риторики, перекликаясь с уроками чтения и родного языка, помогают расширить словарный запас школьников, учат умению четко излагать свою мысль. С большим нетерпением дети начальных классов ждут уроков «познание мира», где узнают много нового, особенно с помощью электронных средств обучения; по предмету «Наследие», на которых они знакомятся с прошлым родной страны, ее легендами и преданиями,

ее героями и традициями. Эти уроки мастерски проводит автор курса «Наследие» поэтесса Солмаз Аманова – обладатель многих международных наград, и подготовленные ею наши учителя (Самира Джафарова, Зинаида Степаненко, Галина Мамедзаде, Аделя Гаибова, Тамара Алекпербекова и др.). Уроки – утренники по наследию «Азербайджанские сказки», «Турадж», «Нереида на Гипокампе» запомнились маленьким гимназистам надолго.

Продолжением темы наследия служат уроки-экскурсии в историко-этнографическом музее под открытым небом «Гала», в Храме огнепоклонников (которые проводят учителя Парвана Мамедова, Ирина Мустафа-заде, Сабина Курбанова, Лейли Мамедова, Фатима Самедова и др.), на которых учащиеся в интерактивном режиме знакомятся с жизнью далеких предков, их бытом и ремеслами, а также с обычаями древних зороастрийцев и их представлениями о мире.

Воспитание гражданина считают своей главной задачей Светлана Абрамова, Мелака Ахмедова, Сарфиназ Амирова, Клавдия Шилова, Гюльяз Бабаева. Ветеран учительского коллектива Светлана Абрамова в целях воспитания патриотизма систематически проводит: интерактивные уроки и беседы «Наша Родина в далеком прошлом », «Ими гордится Родина», «Наш общенациональный лидер», «Наш Президент»; викторины «По страницам истории Азербайджана»; заочные путешествия «По местам, где прошло детство общенационального лидера Гейдара Алиева». В результате всей этой работы дети оформляют визитки «Я – гражданин Азербайджана».

Над формированием культуры терпимости, толерантности человеческих отношений успешно работают Юлия Муханова, Рафига Бахрамова,Татьяна Цигипа. В центре этой работы - наставник молодых учителей Юлия Муханова. Её учащиеся с интересом участвуют в беседах «Дорожи дружбой», «Люби свой класс и свою гимназию», «Относись к людям так, как хотел бы, чтобы относились к тебе». Родительские собрания в её классах часто проходят за чашкой чая, в неформальной обстановке, где обсуждаются проблемы воспитания, будущего их детей, где гимназисты выступают с концертными номерами.

Для учащихся начальных классов необходимы атмосфера успеха, яркие эмоции, и этому прекрасно служат праздники в начальной школе. В течении учебного года каждый начальный класс готовит для всех остальных красочный праздник. Роли получают все ученики класса без исключения. С помощью родителей и учителей шьются костюмы, готовятся декорации, идут репетиции, приглашаются гости. Дети во время праздников преображаются. Тематика таких праздников самая разнообразная: «Край родной Азербайджан», «Праздник Азбуки», «Праздник осени», «Праздник граната», «Салам, Новруз!», «Весна идет по Абшерону», «В гостях у сказки», «Здравствуй, Новый год!», «Праздник чистоты и здоровья», «Праздник космоса» и др. Интересно проходят и классные праздники, на которых главными и благодарными зрителями всегда являются родители.

Необходимо отметить, что большим подспорьем в работе начальной школы служат группы продлённого дня во главе с опытными воспитателями Соной Мехбалиевой и Александрой Дадаевой.

Успешное обучение и воспитание в начальной школе – залог успешного образования в будущем, основа успехов всей школы в целом.

По данным Государственной Комиссии по приему студентов за последние 16 лет Гимназия является одной из лучших по результатам поступления выпускников в ВУЗы Азербайджана. За последние годы 12 выпускников Гимназии за отличные результаты вступительных экзаменов награждены Президентской стипендией. Ежегодно выпускники гимназии также успешно поступают и продолжают образование в вузах России, США, Великобритании, Германии, Турции, Израиля, Украины, Венгрии.

Указом Президента Азербайджанской Республики Ильхама Алиева в 2008 году наша гимназия с высоким рейтингом в числе первой группы награжденных стала победителем конкурса «Лучшая школа года».4 учителя гимназии также стали победителями республиканских конкурсов «Лучший учитель года» (в 2008-2010 г.г.).

Гимназия активно участвует во многих международных образовательных и культурных программах. На протяжении 16 лет, являясь ежегодно победителями конкурсов на лучшее знание английского и немецкого языка, проводимых зарубежными организациями, старшеклассники и учителя выезжают на годичное обучение в США и Германии.

С 2000 года гимназия является ассоциированным членом сети школ ЮНЕСКО, в 2002 году за активное участие в программе «Солидарность» наш коллектив был награжден кубком ЮНЕСКО "Мир в наших руках". Также наша гимназия - член Международной Ассоциации школ с русским языком обучения и коллективный член Республиканского Общества Солидарности Народов Азербайджана «Содружество».

Учителя и ученики нашей гимназии №160 успешно участвуют международных, российских образовательных и культурных программах и проектах.

В 2005 и 2006 годах наша гимназия участвовала в Российских образовательных форумах, в номинации «Лучшая зарубежная русскоязычная школа», на которых дважды получала высокую оценку и дважды завоёвывала диплом лауреата и кубок победителя. Материалы представленных нами выставок, выступления на презентациях вызвали бо́льшой интерес российских и зарубежных коллег.

Налажены партнерские связи со школой №157 с азербайджанским этнокультурным компонентом северного округа Москвы. Регулярно проходят встречи «Школьники Баку и Москвы лицом друг к другу» в обеих столицах.

Делегации 160-ой – активные участники летних школ русского языка в Москве и Подмосковье (в 2004, 2006, 2009 г.г.).

Летом 2010 года наша делегация достойно представила Азербайджан во Всероссийском Детском Центре «Орлёнок» (в Краснодарском крае), за что была награждена дипломами и кубком.

В школе широко отмечалось 65-летие Великой Победы советского народа над фашизмом (2010 г.).

На протяжении многих лет в школе обучаются дети работников ряда зарубежных посольств и компаний, которые потом возвращаются на родину с хорошими знаниями и любовью к Азербайджану. Эксперты Совета Европы по

образованию, представители ЮНЕСКО, посещающие школу, высоко оценивают результаты её деятельности.

В гимназии торжественно отмечаются государственные праздники и памятные даты, регулярно проводятся гуманитарные акции: в поддержку детей азербайджанских беженцев из Армении, вынужденных переселенцев с оккупированных Карабахских земель, а также воинов Национальной Армии. Коллектив школы дружит с учащимися Ходжалинской школы беженцев №2, размещенной в селении Пиршаги, где члены нашего школьного парламента часто бывают с гуманитарным грузом (книгами, школьными принадлежностями, сладостями, одеждой) .

У входа в гимназию расположены мемориальные доски памяти выпускника 1956 года Игоря Плавского и выпускника 1986 года Эльчина Курбанова, являющихся жертвами Карабахского конфликта.

В школе действуют: музей истории школы, школьный парламент, команды КВН и «Что? Где? Когда?», хор, танцевальный ансамбль "Лаляляр" («Маки»), шахматная студия, спортивные секции. Ансамбль «Лаляляр» неоднократно участвовал в международных детских фольклорных фестивалях в Турции (2005, 2006, 2008), в Чехии (2010), где всегда занимал призовые места. Весной 2010 года по приглашению диаспорской организации «Друзья Азербайджана» в Швейцарии (г.Базель) наш танцевальный ансамбль выступил на праздновании Новруз байрамы.

Гимназия бережно сохраняет и приумножает сложившиеся добрые традиции: праздники первого и последнего звонка, выпускной вечер, вечер встречи с выпускниками (31 января), День ученического самоуправления, конкурсы на лучший букет, телеграмму, стенгазету, посвященные Дню Учителя, юбилеи учителей – ветеранов, предметные и тематические недели, красочные утренники и праздники, спортивные соревнования и турниры.

Любовь к Родине начинается с любви к своей школе. В 160-ой учились и учатся династиями. Здесь учились: депутат Милли Меджлиса Азербайжанской Республики созыва 2010 года Севиндж Фаталиева; депутат предыдущих созывов Анар Мамедханов; представитель Азербайджана в Европейском суде Ханлар Гаджиев; Посол Азербайджана в Египте Фаиг Багиров; посол Азербайджана в Грузии Алиев Намик; известный писатель Чингиз Гусейнов; телеведущий Российского телевидения Виталий Вульф; кинематографисты Октай Миркасимов и Яавер Рзаев; лауреат Российской телепремии "Тефи" Гюльшен Аскерова; композиторы Рафик Бабаев и Леонид Вайнштейн; капитан первой Бакинской команды КВН 60-х годов Юлий Гусман; международный шахматный гроссмейстер Теймур Раджабов; 17-кратная чемпионка Аэербайджана по шахматам Эльмира Алиева; половина команды КВН «Парни из Баку» во главе с капитаном; неоднократный чемпион мира по брейн-рингу Роман Аллахяров; председатель фонда Нобеля, доктор политических наук Тогрул Багиров; режиссер, президент Бакинского Клуба авторской песни, директор киностудии документальных фильмов Джавид Имамвердиев; молодая поэтесса Солмаз Сулейманлы; консул Азербайджана в Украине Аббас Мустафаев; консул Азербайджана в Японии Гамид Зейналов; дипломаты Джамиль Казибеков, Тогрул Садыхов, Фарах Аджалова; известный тележурналист Самир Аскерханов; самый

молодой член Союза Художников Ильгар Талыбов; самый молодой член Союза Писателей Гасан Сеидбейли; молодые депутаты районных муниципалитетов Баку Лейла Шарифова и Лейли Алтынбаева; директор школы № 160 Фаина Алекперова - заслуженный учитель Азербайджана и ещё тысячи высококлассных специалистов. Выпускники живут и работают в разных уголках земного шара.

И в заключение хотелось бы привести слова из школьной книги отзывов, написанные выпускником школы Юлием Гусманом в октябре 2005 года:

«Идут года. Стареют, увы, и уходят люди. Но наша любимая 160-я не только не стареет, но стала краше и моложе.

Это, конечно, не загадка природы. Это пример самоотверженной работы энергичного и талантливого коллектива школы. Это замечательный пример мудрой политики Президента Ильхама Алиева и естественно, плоды исторической деятельности великого руководителя нашей Родины незабвенного Гейдара Алиева.

Нашу школу закончили множество талантливых людей. Еще больше, я уверен, выпускников 160-ой прославят её в будущем.

Верность Флагу и Гимну любимой отчизны и любимой «альма-матер» - что может быть достойнее в жизни!»

## *HİKMƏTLİ SÖZLƏR*

*İnsanın mayası ağıldır. Ağıl olmayanın dini də olmaz.*

*H.Muhəmməd*

*Bütün neymətlərin başlanğıcı və son həddi ağıldır.*

*Epikür*

*Ağıl nüfuzdan deyil, nüfuz ağıldan doğur. Ağıldan doğmayan nüfuz gücsüzdür.*

*B.Skott*

*Ağıllı insanlar cəmiyyətin qan damarıdır.*

*D.Defo*

*Ağıllı düşməndən qoxma, ağılsız dostdan qorx.*

*Atalar sözü*

*Ağıllı olmaq şərt deyil, mühüm olan ağıldan istifadə etməkdir.*

*R.Dekart.*

# TƏLİMİN MAHİYYƏTİ VƏ QANUNAUYĞUNLUQLARI

**Ağahüseyn Həsənov,**
pedaqoji elmlər doktoru, professor, əməkdar müəllim



Əmək fəaliyyətinin xüsusi forması olan təlim prosesi həmişə müasirlik tələb edir. Zaman dəyişdikcə təlim prosesinin daha səmərəli təşkil olunması, hansı qanunlar əsasında cərəyan etməsi, kimə nəyi və necə öyrətmək probleminin elmi baxımdan praktik həlli imkanını yaradır. Müasir şəraitdə təlimin qarşısında duran vəzifələri elmi əsaslara söykənmədən həll etmək imkan xaricindədir. Şagirdlər mütəhərrikliyinə görə müxtəlif xarakterə malikdirlər. Bu səbəbdən yaranan problemlərin hamısını əməli fəaliyyət olan təlim zamanı üzə çıxdığı üçün həll etmək imkanı yaranır.

Sosial mahiyyətə malik olan təlim fundamental tarixi anlayış olmaqla cəmiyyətin praktik tələbatından, onun keyfiyyəti bu prosesdə iştirak edən subyektlərin fəaliyyətindən – müəllimin öyrətmək və şagirdin öyrənmək imkanlarından asılıdır.

Öyrənmə insana məxsus olan sosial tələbatdır. Hələ mükəmməl danışmaq qabiliyyətinə malik olmayan uşaq cisim və hadisələrə maraq göstərir, öyrənmək üçün yaşlılara çoxlu suallarla müraciət edir: «Bu nədir? Niyə belədir?» Məhz bu bələdləşmə refleksi uşağı əhatə edən, tanımadığı ətraf mühiti, icitmai hadisələri öyrənməyə təhrik edir. Bu zaman qanunauyğun hal kimi özünəməxsus formada cərəyan edən öyrətmək prosesi meydana gəlir.

Təlimin qanunauyğunluqları birdən-birə yaranmamışdır. Həm Şərq, həm də Qərb mütəfəkkirlərinin dəyərli fikirləri biri-birinə qovuşaraq təlimin qanunauyğunluqlarının elmi-nəzəri anlayışlar formasında yaranmasına səbəb olmuşdur. Orta əsrlərdə Şərq fəlsəfəsinin banisi olan Əl-Fərabi (870-950) təlimin insanın iradə və arzularını müəyyən istiqamətdə, müvafiq vasitə və yollarla idarə edən məqsədyönlü proses olduğunu qeyd etmişdir. Əl-Fərabi təlimdə təhlil-tərkib, elmilik, əyanilik, ardıcıllıq, müvafiqlik, insansevərlik prinsiplərindən istifadə etmişdir. Əbu-Reyhan Biruni isə təlimdə şüurluluq, əyanilik, ardıcıllıq, əsaslılıq (inandırıcılıq), nəzəriyyə ilə təcrübənin vəhdəti prinsiplərinə müraciət etmişdir.

Təbii olaraq, cəmiyyət inkişaf etdikcə təlimin qanunauyğunluqları sahəsində yeni fikirlər də yaranırdı. Bu fikirlər içərisində XVII əsrin əvvəllərində Y.A.Komenskinin (1592-1670) ideyaları daha mühüm yer tuturdu. Y.A.Komenski məktəbi işıq, qayda-qanun, dinclik və sakitlik məbədinə, insanlıq emalatxanasına çevirmək üçün yeni metodlar, hamıya hər şeyi öyrətməyin yollarının tapılmasını zəruri hesab edir və həmin yolları tapmağa nail olur. Bu da onun «Böyük didaktika» əsərinin yaranması ilə nəticələndi. «Didaktika» sözünü ilk dəfə elmi termin kimi işlədən alman pedaqoqu Volfhanq Ratki (1571-1635) olmuşdur. O, öz

mühazirələr kursunu «Didaktikadan qısa hesabat, yaxud Ratkinin təlim sənəti» adlandırmışdır. Məhz bu mənada Y.A.Komenski də «didakatika» terminindən istifadə etməklə «Böyük didaktika» əsərini yaratmışdır.

Əlbəttə, təlimdə yalnız pedaqoji deyil, həm də psixoloji, fizioloji qanunauyğunluqlar özünü göstərir. Misal üçün, idrak münasibəti təlim prosesinin tərkib hissəsidir. Təlimə psixoloji baxımdan yanaşılsa, şagirdin tədris materialına necə münasibət bəsləməsi aparıcı hesab olunur, amma təlimə pedaqoji nəzərlə baxanda, tədris və öyrənmə fəaliyyəti bu fəaliyyət üçün əsas münasibət olacaqdır. İdrak, dərketmə, öyrənmə təlimdən kənarda da baş verir, lakin qarşılıqlı fəaliyyət olan tədris (öyrətmə) və öyrənmə yalnız təlim prosesində baş verir. Onların vəhdəti bütün didaktik münasibətləri və həm də idraki münasibəti müəyyən edir. Təlim prosesində hadisələri real şəkildə öyrənmək üçün müəllim, şagird, tədris materialı arasında mövcud olan qarşılıqlı əlaqə ilə yanaşı, təlimin tərbiyəedici vəzifəsini də nəzərə almaq lazımdır. Təlim prosesində şagird yalnız bilikləri mənimsəyir, eyni zamanda onun bir şəxsiyyət kimi formalaşması, müxtəlif mənəvi keyfiyytələrə, xarakter əlamətlərinə yiyələnməsi təlimin mahiyyətindən irəli gəlir. Bu, təlim prosesinin daxilində mövcud olan qanunlardır. Təbiət və cəmiyyətdə baş verən hadisələrə zərurilik, təkrarolunmaq, ümumilik, sabitlik xasdır. Belə hadisələr qanuna uyğunluq adlanır. Həmin qanunauyğunluqlar əsasında qanunlar müəyyən edilir. Sosial hadisə hesab edilən təlimin qanunları cəmiyyətin qanunlarına uyğun olur. Ona görə də qanuna belə tərif verilir: Qanun hadisələrə zəruriliklə xas olan, təkrarolunan, obyektiv, ümumi, nisbətən sabit əlaqələrin məcmusudur. Qanun real surətdə mövcud əlaqələrdir. Qanun hadisələrin daxili əlaqəsi və bir-biri üçün şərt olması deməkdir. Təlim ictimai münasibətlərlə, maddi istehsalla sıx əlaqədardır. Maddi istehsalın xarakteri təlimin mahiyyətini, məqsədini müəyyən etməyə imkan yaradır. Deməli, təlimin əsas qanunu həyatla, istehsalla sıx bağlı olmasıdır.

Mərhum professor Bəşir Əhmədov qeyd etmşidir ki, obyektiv qanun cisim və hadisələr arasındakı daxili, zəruri, nisbətən sabit əlaqələrdir. Bu əlaqələr bizdən asılı deyil, varlığın öz tələbi ilə bağlıdır. Qanunlar müvafiq şəraitdə fəaliyyət göstərir, müəyyən proseslər şəklində təzahür edir və üzə çıxır. İnsanlar həmin prosesləri (yəni qanun zəminində baş verən hərəkətləri) tədqiq etməklə zəruri əlaqələri araşdırır və öyrənirlər. Üzə çıxarılmış əlaqələr söz vasitəsilə ifadə edilir, elmi əsərlərlə şərh olunur. Beləliklə, obyektiv qanunlar elmi qanunlar formasında nəsildən-nəslə ötürülür, yeni qanunların kəşf olunmasında, praktik fəaliyyətdə mühüm vasitə kimi çıxış edir. İnsanlar öz fəaliyyətlərini elmi qanunların tələbinə uyğun təşkil etmək üçün müvafiq prinsiplərə əməl edirlər.

Deməli, həqiqətən məlum nəzəri qanunauyğunluqlar təlim prosesinin mahiyyətindən irəli gəlir. Y.A.Komenski XVII əsrin əvvəllərində yeni təlim sistemini yaradarkən «Böyük didaktika» əsərində bu prosesin həyata keçirilməsi qaydalarını da müəyyənləşdirmişdir. Beləliklə, yeni təlim prosesinin həyata keçirilməsi qaydalarının ənənəsi yarandı.

Ənənəvi təlim sistemi, əsasən, alman pedaqoqu İ.F.Herbartın adı ilə bağlıdır. İ.Herbart hesab edirdi ki, təlimin məqsədi intellektual bacarıqların, təsəvvürlərin, anlayışların, nəzəri biliklərin formalaşdırılması və tərbiyə ibarət olmalıdır. Təlimin təşkilini, qayda-qanunlarını əxlaqca təmiz olan şəxsiyyətlər formalaşdırmalıdırlar.

Təlim tərbiyəedici xarakter daşımalı, bilikləri hisslərin, iradi hərəkətlərin inkişafı ilə əlaqələndirməlidir. Herbartın bu fikri şəxsiyyətin motivasiya tələbatı adlanır.

Herbart təlim prosesinin dörd mərhələdən ibarət olduğunu bildirirdi:

Aydınlıq mərhələsində şagirdlərə yeni material haqqında məlumat verilir, təlim materialları dəqiq izah edilir.

Assosiasiya mərhələsi yeni materialın köhnə öyrənilmiş materiallarla əlaqəli şərhindən ibarətdir.

Sistem mərhələsində nəticələr çıxarılır, qaydalar irəli sürülür, təriflər, anlayışlar və qanunauyğunluqlar aşkar edilir.

Metod mərhələsində alınmış, mənimsənilmiş biliklər praktikada tətbiq edilir. Bu da psixoloji cəhətdən hərəkətə, didaktik cəhətdən çalışmalara, məntiqi və yaradıcı fikirləşməyə əsaslanır. Müasir dildə desək, təlimin quruluşu şərh etməkdən, ümumiləşdirmədən və tətbiq etmədən ibarətdir. Yəni, təlimin məntiqi materialın verilməsindən izah etməyə, ümumiləşdirməyə (mücərrəd təfəkkürə) və təcrübəyə doğru hərəkəti əks etdirir. Bu sxem müasir təlim prosesində də mövcuddur. Onu təlim prosesindən çıxarmaq mümkün deyil. Ona görə ki, bütün praktik və müstəqil işlərin əvvəlində aydınlıq – izahetmə, başasalma mərhələsi durur. Təcrübə isbat edir ki, praktik və müstəqil işlər o zaman səmərəli nəticə verir ki, şagird qarşıda duran problemin icraetmə qaydasını bilir. Bu məqsədlə əlaqədar hələ XIX əsrin 90-cı illərində Berlin universitetinin professoru F.Paulsen «Pedaqogika» əsərində təlimin metodlarından danışarkən qeyd edirdi ki, təlimdə müvəffəqiyyət iki mühüm şərtlə əldə olunur. Şagird müəyyən təsəvvür və anlayışlara sahib olmalıdır. Şagirddə olan təsəvvür və anlayışlar yeni təsəvvürlərin təsiri ilə hərəkətə gələrək diqqəti oyatmalıdır. Deməli, ilk növbədə şagirdin appersepsiya təsəvvürləri olmalıdır.

XX əsrin əvvəllərində meydana gələn yeni pedosentrik təlim sisteminin nümayəndəsi C.Dyu təlim prosesini uşağın marağı və qabiliyyəti üzərində qurmağı təklif edirdi ki, uşaq günəş, pedaqoji proses planetlərdir. Planetlər günəş ətrafında fırlandığı kimi, pedaqoji proses də uşağın ətrafında dolanmalıdır.

Əlbəttə, bədii baxımdan bu yeni fikir çox gözəl səslənir, lakin pedaqoji qanunauyğunluq baxımından yanlışdır. Niyə? Unutmaq olmaz ki, uşaqdan, şagirddən kənarda pedaqoji proses yoxdur. Pedaqoji proses həmişə şagirdin ətrafında qurulur və bu prosesin mərkəzində bütün hallarda şagird durur, çünki burada məqsəd öyrətmək və inkişaf etdirməkdən ibarətdir. Təlimin məqsədi həmişə uşaqların ümumi və əqli qabiliyyətlərini, müxtəlif bacarıqlarını inkişaf etdirməkdir. Bununla belə, təlimi həmişə şagirdlərin marağı və qabiliyyətləri üzərində qurmaq olmaz. Ona görə ki, sinifdə olan uşaqların hamısının maraq səviyyəsi və qabiliyyətləri eyni deyil. Təlimin məqsədi şəxsiyyətin formalaşması üçün vacib sayılan keyfiyyətləri onda inkişaf etdirməkdir. Bu məqsədlə deyə bilərik ki, təlim prosesində tək şagirdin marağının nəzərə alınması dominant deyil, pedaqoji prosesin maraqlı təşkil olunması əsas götürülməlidir. Yəni təlim prosesi elə anlaşıqlı və maraqlı təşkil olunmalıdır ki, uşağın diqqət və marağını özünə cəlb etsin. Təbii olaraq bu qanunauyğunluq müəllimdən pedaqoji ustalıq tələb edir. İnkişafda olan uşaqdır. Pedaqoji prosesin məqsədi də məhz uşağı inkişaf etdirməkdir.

Təlim prosesi təkcə pedaqoji mahiyyət daşımır, həm də ciddi sosial və ictimai – əxlaqi mahiyyətə malikdir. Ona görə də pedaqoji prosesin gedişində pedaqoji etik normalara ciddi riayət olunmalıdır. Yalnız normal əxlaqi-mənəvi şəraitdə, yüksək

peşəkarlıq səviyyəsində, pedaqoji qanunauyğunluqları özündə real əks etdirən təlim millətin, dövlətin inkişaf dayağına, elmin və mənəviyyatın yüksəliş mənbəyinə çevrilə bilər. Göründüyü kimi, təlim prosesi didaktik, psixoloji, kibernetik, sosioloji, təşkilati komponentlərə malikdir. Bu komponentlər birlikdə pedaqoji prosesin tamlığını təmin edir.

Artıq hamıya məlumdur ki, təlimin təşkili formaları, məzmunu, metod qiymətləndirmə, pedaqoji prosesi idarəetmə məsələlərinə elmi və praktik cəhətdən yenidən baxılır. Milli və bəşəri dəyərlər dəyərləri nəzərdən keçirməklə inteqrativ nəticələr qəbul olunur. Yeniləşmələr təcrübəsində istifadə edilən anlayışlar milli pedaqoji prosesə daxil edilir. Hazırda pedaqoji ədəbiyyatda yeni təlim texnologiyaları, interaktiv metodlar, qruplarla iş, cütlərlə iş, işgüzar səs-küy, rollu oyunlar, inteqrasiya, esse və s. kimi fikirlər qəbul olunur. Əslində bunlar pedaqoji proses üçün yenilik deyil. Belə çıxır ki, güya təlimdə fəal olmayan metodlar da var. Unudulur ki, hər hansı metod şagirdləri fəallaşdırır. Təlimin metodları haqqında müzakirələr XIX əsrin ikinci yarısında keçirilməyə başlamışdır. Pedaqoqlar təlimin metodlarını didaktik məqsədlərinə, vəzifələrinə, bilik mənbəyinə, idrak fəaliyyətinə, tədris-tematik fəaliyyətinə, təlimin başlıca mərhələlərinə görə təsnif etmişlər. Ən geniş yayılmış təsnifat bilik mənbəyinə görə olan təsnifatdır ki, bu da XX əsrin 50-ci illərində D.A.Lordkipanidze, Y.Y.Qolant, M.Ə.Muradxanovun tədqiqatlarında şərh olunmuşdur. Adları qeyd olunan pedaqoqlar bilik mənbəyinə aşağıdakıları daxil edirlər: müəllimin canlı sözü; kitabla iş; təbiət, cəmiyyət və məişət hadisələrinin müşahidəsi; şagidrlərin fəallığını daxil etmişlər. Bu mənbələrə uyğun olaraq təlimin metodları aşağıda qeyd olunan məzmunda təsnif olunmuşdur: söz metodları; kitabla iş; laboratoriya işi; illüstrasiya və demonstrasiya; praktik işlər; çalışmalar. Y.Y.Qolant təlimin metodlarını ümumiləşmiş şəkildə üç böyük qrupa bölmüşdür: söz metodları; əyani metodlar; praktik metodlar.

Təlimin didaktik vəzifələrinə görə metodları M.A.Danilov və B.P.Yesipov iki qrupa bölmüşlər: yeni biliklərin mənimsənilməsini təmin edən metodlar; bilik, bacarıq və vərdişləri möhkəmləndirən və təkmilləşdirən metodlar. Birinci qrupa məlumatverici metodları: müəllimin şifahi şərhi, müsahibə, kitab üzərində iş, təlimdə evristik, axtarış-evristik müsahibə, disput, laboratoriya işi, axtarış daxildir.

İkinci qrupa isə təmrinləri, praktik işləri daxil etmişlər.

XX əsrin 60-cı illərində idrak fəaliyyətinin tiplərinə görə təlimin metodlarının İ.Y.Lerner və M.N.Skatkin təsnif etmişlər: izahlı-illüstrativ; reproduktiv; problemli şərh; qismən axtarış; tədqiqatçılıq.

Akademik Y.K.Babanski təlimin metodlarını tədris-idrak fəaliyyəti vəzifələrinə görə təsnif etmişdir. Akademik M.Mehdizadə təlimin metodlarının həm didaktik vəzifə məqsədin, həm də idrak fəaliyyətinin xarakterinə görə təsnif edilməsini məqsədəmüvafiq hesab etmişdir. Professor N.M.Kazımov təlimin başlıca mərhələlərinə görə metodların təsnifatını irəli sürmüşdür.

Göründüyü kimi, sadalanan metodoloji təsnifatlarda müasir təlim anlayışının qanunauyğunluqları tam aydınlığı ilə öz şərhini tapmışdır. Vacibdir ki, təlim prosesini müasir dövrün tələbləri səviyyəsində qurmaq istəyən hər bir müəllim mövcud olan metodologiyanı yaxşı bilsin.

Fəal təlim metodu anlayışını elmi-pedaqoji baxımdan nəzərdən keçirmək məqsədə uyğun olar. Təlim anlayışı özü fəaliyyət prosesi deməkdir. Xüsusi fəaliyyət

növü olan təlim məqsədyönlü işdir. Bu prosesdə fəaliyyət göstərmədən öyrətmə və öyrənmə mümkün deyil. Bütün hallarda dərs və ya təlimin digər təşkili formaları müəllim və şagirdin qarşılıqlı fəaliyyəti ilə həyata keçirilir.

Dərsdə yeni mövzunun izahı zamanı şagirdin müəllimi diqqətlə dinləməsi məqsədyönlü, şüurlu fəaliyyətdir. Bu qanunauyğunluq «şüurluluq və fəallıq» prinsipi kimi təsbit olunmuşdur. Təlimin mahiyyətindən irəli gələn öyrətmə qanunauyğunluğu uşağın daxili motivlərindən sosial tələbatına çevrilir. Əgər hər hansı şagird təlimdə tələb olunan səviyyədə fəal deyilsə, bunun da səbəbini aradan qaldırmaq müəllimin pedaqoji ustalığından asılıdır. Deməli, təlimdə baş verən fəallaşma bilavasitə müəllimin rəhbərliyi ilə yaradılır. Bu səbəbdən də öyrənmə prosesinin birinci mərhələsini maraqların yaradılması təşkil edir. Maraqlar insan fəaliyyətinin sosial mühərrikidir. Təcrübə və müşahidələr göstərir ki, uşaqların əksəriyyəti məktəbə öyrənmək həvəsi ilə gəlir, lakin sonralar bu arzu onların hamısında qalmır. Maraqsız dərs, müəllimin qeyri-səmimi münasibəti, şagird əməyinin və ləyaqətinin düzgün qiymətləndirilməməsi və s. kimi neqativ hallar onların əksəriyyətində öyrənməyə həvəsi və marağı söndürür. Yenilikçi, işgüzar və peşəsinin ustası olan müəllimlər isə şagirdlərin müsbət motivlərini daha da canlandırırlar.

Əgər müəllim ilk təlim məşğələsində uşaqlarda dərsə maraq oyada bilərsə, həmin fənnin öyrənilməsi uşaqlar üçün heç bir çətinlik törətmir. Hər hansı bir fənnə maraq yarandıqdan sonra şagird heç bir çətinlik çəkmədən təlim materiallarını səylə yerinə yetirir. «Dərs – hər şeyi bilmək və əxlaqi əqidə məşəlini yandıran ilk qığılcımdır». Dərslərdə əldə edilən biliklər şagirdlərin idrak marağının formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Öyrənmə prosesinin ikinci mərhələsi qavrama adlanır. Qavrama idrak prosesində duyğulardan başalyır. Qavrama mərhələsində müəllim şagirdlərin həyat təcrübəsini və hazırlıq səviyyəsini nəzərə alaraq təlim materialını izah etməklə şagirdlərdə təsəvvürlər formalaşdırır. Bu zaman təlim materiallarının şüurlu mənimsənilməsinə xüsusi diqqət yetirilməlidir. Təlim prosesində şagirdlər tədricən təbiət və cəmiyyət hadisələri haqqında müvafiq məlumatları toplayır. Bu mərhələdə ən vacib vəzifələrdən biri şagirdləri yanlış qavrayışlardan qorumaq və onlarda düzgün təsəvvürləri formalaşdırmaqdır.

Öyrənmə prosesinin üçüncü mərhələsi anlamadır. Bu mərhələdə məqsəd təlim materiallarını düzgün, aydın dərk etməkdən ibarətdir. Anlama mərhələsində şagirdlər əşyanın ən zəruri əlamətlərini mənimsəyir, əsas əlamətləri ikinci dərəcəli əlamətlərdən fərqləndirirlər. Bu zaman biliklər anlayışlar şəklində ifadə olunur. Təfəkkür formaları (məfhum, hökm, əqli nəticə), fikri fəallıq priyomları (təhlil, tərkib, müqayisə, ümumiləşdirmə və s.), təfəkkür növləri (əyani-əməli, əyani-obrazlı, mücərrəd, praktik, texniki və s.) işə düşür, əqli nəticə, tənqidi təfəkkür formalaşır.

Öyrənmə prosesinin dördüncü mərhələsini möhkəmləndirmə təşkil edir. Bu mərhələdə şagirdlərin dərsdə öyrəndiyi biliklər möhkəmləndirilir. Müəllim keçirilən təlim materialı ətrafında sual-cavab aparır, qısa məntiqi parçalarla təkrar etdirir, təmrinlər keçirir və məşq etdirir. Beləliklə, şagirdlər tərəfindən qazanılmış biliklər şüurlu formada möhkəmlənir.

Öyrənmə prosesinin beşinci mərhələsi tətbiqetmə adlanır. Təlim materiallarının daha etibarlı mənimsənilməsində tətbiqetmə çox faydalı əhəmiyyət kəsb edir. Bu mərhələdə şagirdlər bilik və bacarıqlarını praktikada müstəqil tətbiq edir və nəticələrin düzgünlüyünü yoxlayırlar.

Təlimin mövcud qanunauyğunluqlarını nəzərdən keçirəndə məlum olur ki, yeni elmi anlayış kimi təqdim olunan metodologiya təlimin indiyə qədər məlum olan qanunauyğunluqlarında öz məzmununu tapmışdır. Təlimdə müasirlik anlayışı bütün dövrlərdə mövcud olmuş, mövcuddur və həmişə də mövcud olacaqdır, çünki təlim həmişə müəyyən ictimai-iqtisadi şəraitdə xalqın, cəmiyyətin, dövlətin və dövrün tələbləri əsasında həyata keçirilir. Bu məqsədlə istər-istəməz müasirlik təlim prosesinin qarşısında mühüm vəzifə kimi durur. Bu qanunauyğunluq təlimin həyatla, əməklə əlaqələndirilməsi prinsipi kimi nəzərdə tutulmuşdur. Bu məqsədlə müəllim pedaqoji və metodik baxımdan həmişə öz üzərində işləməli, dövrün mövcud yeniliklərini öyrənməklə yanaşı, təlimi müasir dövrün tələbləri səviyyəsində qura bilməlidir. Qabaqcıl müəllimlərin iş təcrübəsi sübut edir ki, pedaqoji prosesin təqdim olunan mövcud qanunauyğunluqlara əsasən həyata keçirilməsi şagirdlərdə biliyin şüurluluğunu möhkəmləndirir, müstəqil fəaliyyət, özünənəzarət, imkanlarını inkişaf etdirir və tənqidi təfəkkürün formalaşmasını təmin edir.

Ədəbiyyat


1. Həsənov A., Ağayev Ə. «Pedaqogika», Bakı, 2007.
2. «Pedaqogika». K.Y.Babanskinin redaktəsi ilə. Moskva, 1983.
3. Kazımov N., Haşımov Ə. «Pedaqogika». Bakı, 1996.
4. Paşayev Ə., Rüstəmov F. «Pedaqogika». Bakı, 2007.
5. Подласый И.П. «Педагоэика». Москва, 2002.
6. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə işinin təkmilləşdirilməsi yolları. Bakı, 1983.
7. «Pedaqogika». M.Muradxanovun rəhbərliyi ilə. Bakı, 1964.
8. «Дидактика средних школьников». M.N.Skatkinin redaktəsi ilə. Moskva, 1982.
9. Əhmədov B., Rzayev. «Pedaqogikadan mühazirə konspektləri». Bakı, 1983


**О сущности и положении обучения**


Резюме

Инновация, как вытекающая из сущности обучения закономерность, на всех исторических этапах существовала (выступала, являлась) в качестве принципа связи обучения с жизнью с трудом.


**On the nature and status of teaching**


Summary

İnnovation whijh is a result of the regularity from the essenje of teajhing, was existing as the prinjiple of jonnejtion of the teajhing with life ad labour at all historijal stages

# HƏRFLƏRİN SÖZ ÇƏLƏNGİ

Dünyada nə qədər kitab var belə,
Axdardım, aradım gətirdim ələ.
Oxudum, oxudum, sonra da vardım
Hər gizli xəzinədən bir dürr çıxardım.



Əsərləri yüzilliklərdən bəri sevilə-sevilə oxunub, bu gün də ürəkləri fəth edən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi yaradıcılığına müraciət etməyim əbəs deyil. Həqiqətən Səmagül Əliyevanın «Hərflərin söz çələngi» kitabı da məktəbəqədər yaşlı uşaqlar və kiçik yaşlı məktəblilər üçün gizli bir xəzinədir. Kitabda toplanmış şeirlər poetik nümunələr olmaqla yanaşı,müasir təlim materialları kimi də çox dəyərlidir. Kitabda verilmiş şeirlələrin bir qismi tapmaca xarakterli olduğundan kiçik yaşlı uşaqları düşünməyə, axtarışa sövq edir və onların idrak fəallığına cəlb olunması üçün zəmin yaradır. Bu cür şeirlərdən dərsin motivasiya mərhələsində istifadə etmək çox səmərəli nəticə verir, çünki, dərsin sonrakı mərhələləri motivsiyanın nə dərəcədə düşündürücü və maraqlı olmasından çox asılıdır. Motivasiyanın uğurlu alınması məktəbliləri sanki fəallaşdırır və onların aparmalarına, tapşırıqların yerinə yetirilməsində idrak fəallığı göstərmələrinə stimul verir. Kitabdakı şeirlərin bir qismi məlumat xarakterli olmaqla, uşaqlara həyatda rast gəldikləri varlıqları, baş verən hadisələri dərk etmələri, həyatı düzgün qavramaları üçün əvəzsiz vasitədir. Həmin şeirlər vasitəsilə uşaqlar ilkin biliklər qazanır, şeirdə təsvir edilənlər haqqında nəticə çıxarırlar. Bu qəbildən olan «Elminaz» şeri vasitəsilə müəllim yazın gəlişini, uşaqların təbiətə qayğısını onlara çox sadə şəkildə çatdırır.

El-obaya gəldi yaz,
Çox sevindi Elminaz.
Evdən çıxdı eyvana,
Mesaj yazdı Elmana:
«Köçüb gəldi dürna, qaz,
Elman, etmə etiraz.

Quşlara evcik quraq,
İçinə dən dolduraq».
Aldı mesajı Elman,
Evdən çıxdı həmən an.
Ev qurdular quşalara,
Əhsən belə dostlara.

Kitabdakı bədii nümunələr uşaqlara varlıqların xüsusiyyətlərin aşılanması baxımından çox əhəmiyyətlidir. Həyatda gördükləri və eşitdikləri varlıqlar haqqında uşaqların ilkin təsəvvürləri bədii ədəbiyyat vasitəsilə formalaşır. Bu cür

nümunələrdən həyat bilgisi dərslərində istsifadə edilməsi çox səmərəli nəticə verir. Bədii ədəbiyyatı əbəs yerə çox zaman «həyat dərsliyi» adlandırmırlar.

«Moruq» şerinə nəzər salaq:

Meşə yaman kolluqdur,
Kolda bitən moruqdur.
Xeyirlidir meyvəsi,
Təzəsi, mürəbbəsi.

Yesən, xəstələnməzsən,
Soyuqdan da əsməzsən.
Qoruyar vitamin «Se»,
Nə durmusan, tez ol, ye!

Müəllif kiçik bir şeir parçasında poeziyanın dili ilə çox sadə şəkildə moruğun xüsusiyyətlərini uşaqların dərk edəcəkləri səviyyədə açıqlayır. Bu cür şeir nümunələrindən həm ana dili, həm həyat bilgisi, həm texnologiya, həm də təsviri incəsənət fənlərinin tədrisi zamanı istifadə etmək müəllimin məqsədinə çatmasına yardım göstərir.

Söz sənəti vizual görüntülərlə tamamlananda təsir gücü daha da artır, dərk edilməsi üçün daha əlverişli şərait yaranır. Bu baxımdan şeirlərin həm də CD formasında çap edilməsi xüsusi diqqət çəkir. Elm və texnikanın inkişaf etdiyi bir zamanda, şagirdlərin vizual görüntülərə daha çox meyilli olduğu bir dövrdə bu cür didaktik materialın istifadəyə verilməsinə ehtiyac olduğunu nəzərə alsaq, kitabın ibtidai sinif müəllimləri üçün dəyərli bir hədiyyə olması sübuta yetər, kitabın «Çimnaz» şerinə nəzər salsaq, görərik ki, müəllif sözün, səsin və görüntünün vəhdətindən istifadə edərək uşaqlara göy haqqında məlumatı çox məharətlə çatdırır.

Bu cür şeir nümunələrindən nəinki həyat bilgisi və əlifba təlimi dövründə, həmçinin təsviri incəsənət dərslərində də geniş istifadə etmək öz bəhrəsini verir. Şagirdlər bədii nümunələrdə eşitdiklərini öz təsəvvürlərində canlandırmaqla, eləcə də vizual görüntülərdə rastlaşdıqlarını əks etdirməklə öz bacarıqlarını rəni rənglərin dili ilə tətbiq etməkdə fəallıq göstərirlər.

Şeirlərdə yaxınmənalı, əksmənalı, çoxmənalı, eləcə də əlamət bildirən sözlərdən çox istifadə olunmasını nəzərə alaraq ana dili dərslərinin tədrisində səmərəli istifadə etmək olar. Şeirlər hərflərlə bağlı olduğundan əlifba təlimi dövrünü bütövlükdə əhatə edir. Aşağıdakı nümunələrə nəzər yetirək:

Nəvə Nanə, nənə Nanə,
Dirrikdən yığırlar nanə.
Gördü nar yığır Pərvanə,
Fikirləşdi nəvə Nanə:
– Neynirəm mən yığım nanə?
Yaxud,

... Bənövşə donlu reyhan,
Baxanlar olur heyran.
Tərif deyənlər ona,
Ad qoyur övladına.
... Reyhan reyhanı dərər,
«Bəh-bəh» deyib tez yeyər.

Bu şeirlərə əlifba təlimi və Azərbaycan dili dərslərində «Ad bildirən bəzi sözlərin böyük hərflə yazılışı» mövzusunu keçərək müraciət etmək yerinə düşər.

Demək olar ki, hər bir dərs yaradıcılıq nümunəsidir. Bu baxımdan mənə elə gəlir ki, «Hərflərin söz çələngi» kitabındakı materiallara hər bir müəllim öz peşəkarlıq səviyyəsi və yaradıcılıq qabiliyyəti yönümündən yanaşa, dərsini daha da maraqlı qura bilər. Bütövlükdə kitabda toplanan materiallar və onların CD formasında çap edilməsi gənc nəslin tərbiyəsində duran müəllimləri buna səsləyir.

**Aygün Əsgərova,**
287-nömrəli «Zəkalar» liseyinin sinif müəllimi

## Yeni nəşrlər




**Limunət Əmrahlı,**
**Nurəngiz Rzayeva.** «Uşaq psixologiyası» dərs vəsaiti. Əsərdə uşaq psixologiyası problemlərinə klassik və müasir yanaşmalar əsasında münasibət bildirilir. Kitabda şəxsiyyətyönümlü yanaşmaya üstünlük verilir. Uşaqların psixi inkişafında genetik və mühit amillərinin rolu yeni kontekstdə şərh olunur. Müəlliflər psixoloji inkişafın təbii və sosial mənbəini də işləmiş, uşaqların sosiallaşmasında tərbiyə edənlərin rolunu da əhatə etmişlər.

Elmi redaktor prof. Ə.Əlizadədir.




**Ofelya Şahsuvarova.** «Jest dili» metodik vəsaiti. Kitab xüsusi təhsil müəssisələri və məktəblərdə eşitmə qabiliyyəti zəif, kar, hətta texniki vəsaitlərdən istifadə edən uşaqların jest dilinə, daktil əlifbaya yiyələnmələrini təşkil etməkdə müəllim və tərbiyəçilərin yaxın köməkçisi olacaqdır.

Çalışmalar müəllifin ifasında təqdim olunur.

Elmi redaktor prof. S.Qasımovdur.



**Sədaqət Rəhimova.** «Məktəbəqədər yaşlı uşaqların sosial-mədəni tərbiyəsinin təşkili». Vəsaitdə məktəbəqədər təhsil müəssisələrində uşaqların sosial-mədəni tərbiyəsi üzrə işin məzmunu, qruplar üzrə məşğələlərin təşkili, problemin həlli istiqamətində tərbiyəçilərlə valideynlərin əməkdaşlığı əhatə olunur.

Elmi redaktor dos. L.Cəfərovadır.



**Təranə Sadıqova,**
**Zöhrə Əliyeva.** Kitabda respublikamızda ilk dəfə məktəbəqədər pedaqogikaya dair icmallar və sxemlər verilir. Həmin sxemlər pedaqoji təmayüllü ali və orta ixtisas məktəblərində tələbələrin pedaqoji terminlərin mahiyyətini anlamalarına, qruplaşdırma, təsnifetmə, ümumiləşdirmə qabiliyyətlərinin inkişafına xidmət edəcəkdir. Vəsait təlimində şüurluluğun təmin olunmasına kömək göstərəcəkdir.

Elmi redaktor prof. Y.Ş.Kərimovdur.

**Kəklik Məmmədova,**
Jurnalın əməkdaşı

# DÜNYA ŞÖHRƏTLİ AZƏRBAYCANLI ALİM LÜTFİ ZADƏNİN 90 YAŞI TAMAM OLUR



Nəzəriyyələri ilə dünya elmini zənginləşdirən Lütfi Zadənin dünyaya göz açmasının 90 ili tamam olur. Fərəhlənirik ki, öz elmi kəşfləri ilə hamını heyrətə gətirən planetin bu böyük alimi və fenomeni bizim həmyerlimizdir.

Lütfi Ələskərzadə 1921-ci il fevral ayının 4-də Bakının Asiya küçəsində yerləşən 79 saylı evdə anadan olmuşdur. Atası Rəhim Ələskərzadə 1893-cü ildə İranın Ərdəbil şəhərində, anası Feyga Koriman 1894-cü ildə Odessa şəhərində anadan olmuşdur. 1905-ci ildə Tiflisdə Qızlar Gimnaziyasını bitirmiş, sonralar Bakı ali məktəblərinin birində uşaq həkimi ixtisasına yiyələnmişdir. Rəhim Ələskərzadə isə Azərbaycan Universitetinin "Şərqşünaslıq" fakültəsində təhsil almış, sonralar həm iş adamı, həm də eksport-import mətbuat nümayəndəsi kimi tanınmışdır. Rəhimlə Feyganın bir-biri ilə tanışlığı elə ali məktəblərdə oxuduqları illərdən başlamış və 1919-cu il sentyabrın 29-da ailə həyatı qurmuşlar. 1921-ci ilin fevralın 4-də Lütfi dünyaya gəlir. Lütfi ailənin yeganə övladı olduğundan Rəhim kişi və Feyga oğullarını çox sevir və əllərindən gələni edirdilər ki, onun həyatı qayğısız və xoşbəxt keçsin. Balaca Lütfi tənhalığı çox xoşlayırdı. Həmişə çalışırdı ki, tək olsun, çox oxusun və xəyalən bütün dünyanı gəzib dolaşsın. Bu səbəbdən də Lütfi məşğul olduğu masanın üstünə kağız üzərində iri hərflərlə "Tək" sözü yazılmış bir lövhə olardı. Balaca Lütfi ilə üz-üzə dayanan lövhə ona belə bir psixoloji fikir təlqin edirdi: "Sən bu dünyada tək tənhasan. Lakin həyat mürəkkəb və çətindir. Bu mürəkkəblikdən baş açmaq, çətinliklərdən çıxmaq üçün həm fiziki, həm də əqli gücün olmalıdır. Sən daim özünü buna səfərbər etməlisən. Oxuyub öyrənməkdən, çətinliklərdən keçməkdən usanmamalısan". Lütfi Bakıda 16 nömrəli məktəbə gedir və ömrünün 4 ili bu məktəblə bağlı olur. Lütfinin özünü tanımasında dünyaya göz açdığı Bakı mühiti, eləcə də valideynlərindən əxz etdiyi genlər bilavasitə dahi olmağa ruhlandırmışdır.

1931-ci ildə Sovetlər İran vətəndaşları olan azərbaycanlılarla bağlı yeni fərman imzalayır. Bu fərmana görə onlar ya Sovet Azərbaycanında qalıb buranın vətəndaşlığını qəbul etməli, ya da ölkəni dərhal tərk edib getməli idilər. Ələsgərzadələr ailəsi sovetlərin hakimiyyətə gəlməsindən sonra ətrafda baş verən hadisələrdən narazı olduqarından İrana geri qayıtmaq qərarına gəldilər. Bir çoxları, xüsusilə də yaxın qohumları bu addımın gələcəkdə Lütfi Zadə fenomeninin formalaşmasında böyük rolu

olduğunu qeyd edirdilər, çünki o illərdə sovet hakimiyyəti kibernetika. İnformatika, genetika kimi elmlərə öz mənfi mövqeyi ilə seçilirdi və çətin ki, belə mühitdə Lütfi Zadə öz elmi ilə irəli gedə bilərdi. O, hələ 10 yaşında ikən Ələsgərzadələr ailəsi Bakının tərk edərək Tehrana köçür. Balaca Lütfi o vaxt rusdilli məktəbin III sinfini bitirmişdi. Valideynləri onu Tehranda fəaliyyət göstərən "Albroz" adlı missioner kollecinə yazdırmışdılar. Atası Rəhim biznes sahəsində öz işini davam etdirməyə başladı, anası Feyga isə səhiyyə sahəsində işə düzəlir. Lütfi kolleci bitirdikdən sonra Tehran Universitetinin Elektirik Mühəndisliyi fakültəsinə daxil olur. 1942- ci ildə universiteti bitirib bakalavr dərəcəsi alır və bir müddət atasının yanında işləməli olur. Lütfi Zadə təhsilin davam etdirmək üçün 1944-ci ildə Amerika Birləşmiş ştatlarına getməyə qərar verir. O, Bostonda Massaçusets Texnologiya İnstitutunda oxuyur və 1946-cı ildə oranı bitirərək elektrotexnika üzrə magistr pilləsinə qalxır.

Lütfi Zadə doktorluk dissertasiyasını Kolumbiya Universitetində keçir və 1949-cu ildə doktorluq dissertasiyasını müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsi alır. Kolumbiya Universitetində 10 il işləyən Lütfi əvvəlcə 1950-ci ildə professor köməkçisi, 1957-ci ildə isə professor vəzifələrini tutur. Lütfi Zadə 1950-ci ildə ayrı-ayrı jurnallarda kibernatikanın atası Norbert Vinnerin proqnozlaşdırma nəzəriyyəsini inkişaf etdirən sanballı elmi əsərləri dərc etdirir. Onun 1952-ci ildə nəşr etdirdiyi elmi işi avtomatik idarəetmə sistemində çevirmə nəzəriyyəsinin əsasını qoydu. Daim qərar qəbul edən elektron idarəetmə avtomatın iş prinsipini 1950-ci ildə "ƏGƏR-ONDA" münasibəti əsasında quraraq təsvir edir. 1954-ci ildə Lütfi Zadənin "Sistem nəzəriyyəsi " yarandı. Həmin illərdə dünya şöhrətli alim Norbert Vinner nüfuzlu jurnal səhifələrində Lütfi Zadənin elmi məqalələri ilə tanış olur və onu gələcəyin ən böyük alimi kimi görür. 1957-ci ildə Kaliforniya Elmi mərkəzinin sədri olan Norbert Vinner Zadəyə məktub yazaraq onu Kaliforniyadakı Berkli Universitetinə işləməyə dəvət edir. 1959-cu ildə Lütfi Zadə ailəsi ilə birlikdə Berkli şəhərinə köçür. Lütfi Lütfi Zadə Berkli Universitetində elektrik mühəndisliyi üzrə şöbədə işləməyə başlayır. 1963-cü ildən həmin şöbəyə başçılıq edir və bundan sonra şöbənin adını dəyişdirərək "Elekrtik mühəndisliyi və kompyuter elmləri" kafedrası adlandırır. Berkli Universiteti, "Elekrtik mühəndisliyi və kompyuter elmləri" kafedrası onun bir alim kimi yetişib formalaşmasında və inkişafında böyük rol oynayır.

Lütfi Zadə Berkli Universitetində işlədiyi dövrlərdə diqqətini, əsasən, xətti sistemlər və avtomatlar problemi cəlb etməyə başladı. Burada o, professor Çarlz Desoer ilə birlikdə xətti sistemlərin təhlili üçün vəziyyətlər fəzası yanaşması probleminin araşdırılması ilə məşğul oldu. Beləliklə, "xətti sistemlərin təhlili üçün vəziyyətlər fəzası" adlı müştərək elmi əsəri meydana gəldi. Nəticədə Lütfi Zadə dinamik idarəetmə sistemlərinin əsasını təşkil edən yeni yanaşma metodu təklif etdi. Bu metodun mərkəzində Lütfi Zadənin vəziyyətlər fəzası nəzəriyyəsi dayandı. 1964-cü ildə dünya elmində yeni olan qeyri-səlis çoxluqlar nəzəriyyəsi yarandı. Lütfi Zadə bu nəzəriyyəsini kəşf edəndən sonra onu Riçard Bellmana göstərmək qərarına gəldi. Onun Riçard Bellmanla birlikdə bir neçə elmi işi var idi və R.Bellmanın fikri Lütfi üçün əhəmiyyətli idi. R.Bellmanın Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsinə fikri belə oldu: "Zənnimcə, sizin bu işiniz elmdə inqilaba bərabər bir işdir. Tədricən o, bütün elmlərə yeni baxış formalaşdırıb çox şeyi kökündən dəyişdirəcək. Hətta insan fenomeni barəsində də təsəvvür yaranacaq". Belmanın bu fikirlərinə baxmayaraq, Amerika mühiti Lütfi Zadənin bu elmi konsepsiyasını qəbul etmədi, amma zaman keçdikcə bu fikirlərin

həqiqət olduğu təsdiqləndi və qeyri-səlis çoxluqlar nəzəriyyəsinin bəhrəsi olan beşinci və altıncı nəsr kompyuterlərin meydana çıxması spektiv söz-söhbətlərə son qoydu. 1965-ci ildə Amerika Birləşmiş Ştatlarında yaşayan azərbaycanlı alim Lütfi Zadə tərəfindən tamamilə yeni, çoxqiymətli qeyri-səlis məntiq nəzəriyyəsi yaradıldı. Bununla da dünya elm tarixində. Kompyuter sahəsində böyük kəşflər edildi.

Qeyri-səlis çoxluqlar nəzəriyyəsinin mahiyyəti nədən ibarətdir? Bu suala professor Lütfi Zadənin cavabı birmənalıdır: "... Qeyri-səlis məntiq, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin mahiyyəti odur ki, mütləq heç nə yoxdur. Hər şey riyazi dillə desək 0-1 şkalasında müəyyən həddə dəyişir". Deməli, real dünyanın ümumi mənzərəsi 0 və vahid arasənda olan onlarla, yüzlərlə çalarlardan ibarətdir. Bununla da dünyanın təsvir dili olan riyaziyyat ikiləşdi, nəticədə klassik riyaziyyat, qeyri-səlis riyaziyyat, qeyri-səlis hesab, qeyri-səlis cəbr, qeyri-səlis məntiq, qeyri-səlis topologiya və s.yarandı. Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsi riyaziyyatın, kibernetikanın, informatika və hesablama texnikasının inkişafında yeni bir dövr açdı. Həmin nəzəriyyə bütün dünyada elmə, texnika və texnologiyaya geniş nüfuz etdi. Paltaryuyan maşından tutmuş kosmik cihazlara, kibernetik tərcüməçidən tutmuş avtomat sürücüyə kimi yüzlərlə, minlərlə sistemdə, qurğuda bu nəzəriyyə öz tətbiqini tapdı.

Qeyri-səlis çoxluqlar dedikdə, hər şeydən əvvəl elə çoxluqlar nəzərdə tutulur ki, ona daxil olan elementlərin sayı qeyri-müəyyəndir. Qeyri-səlis çoxluğun ilk və əsas əlaməti onun bütün cəhətlərindən qeyri-müəyyən olmasıdır. Belə ki, qeyri-səlis çoxluğun həm tərkibi, həm quruluşu, həm də sərhədləri qeyri müəyyəndir. Lütfi Zadənin elmə gətirdiyi "qeyri-səlis"lik anlayışına söykənən bütün nəzəri elmi istiqamətlər çox böyük praktik əhəmiyyətə malikdir. Qeyri-səlis çoxluqlar nəzəriyyəsi yarandığı vaxtdan cəmi bir il keçəndən sonra birinci olaraq Yaponiya firmalarında, nəhəng sənaye şirkətlərində öz tətbiqini tapdı. Onlarca elmi-tədqiqat institutları yarandı, bu elm sahəsi Yaponiya universitetlərinin tədqiqat obyektinə çevrildi. Qeyri-səlis məntiq texnologiyası Yaponiyada tətbiq edilərək, böyük iqtisadi səmərəsi aşkarlandı və az müddət ərzində bütün aparıcı şirkətlər, firmalar tərəfindən dəstəkləndi. Yüksək iqtisadi səmərə gətirdiyinə görə 1989-cu ilin iyul ayında Lütfi Zadəyə Yaponiyanın elm sahəsində ən yüksək mükafatı – Honda mükafatı verildi.

Lütfi Zadə müasir riyazi statistikanı, siqnalların optimal süzgəclərini, riyazi linqvistikanın və mürəkkəb sistemlərin nəzəriyyəsini inkişaf etdirməklə dünya elmini xeyli zənginləşdirmişdir. O, ilk dəfə olaraq qeyri-səlis çoxluqlar, qeyri-səlis məntiq və qərar qəbul etmə prosesinin çox səlis nəzəriyyəsini yaratmış, müasir riyaziyyatın və idarəetmənin əsasını qoyanlardan biri kimi tanınmışdır. Bütün bunlarla yanaşı, o, dəqiq humanitar və elm sahələrindəki elmi problemlərin tədqiqinin ümumi intellektual kompyuter metodologiyasını yaratmışdır.

Professor Lütfi Zadənin elmi yaradıcılığı olduqca zəngin və çoxsahəlidir. Bu baxımdan onun "Zamana görə dəyişən şəbəkələrin tezlik sahəsinin inkişafı" (1949). Ç.R. Raqassini ilə birlikdə yazdığı "Vinerin proqnozlaşdırma nəzəriyyəsinin inkişaf etdirilməsi" (1950), Ç.R. Raqassini ilə birlikdə yazdığı "Z-çevirmə üsulunun yaradılması" (1952), "Qeyri-xətti süzgəclər nəzəriyyəsinin yardılması" (1953), "Sistemlərin indentifikasiya problemlərinin formalaşdırılması" (1956), Ç.A.Desoir ilə birlikdə yazdığı "Xətti sistemlərin təhlili üçün vəziyyət fəzası" (1963), R.E.Belman ilə birlikdə yazdığı "Qeyri-səlislik şəraitində qərar qəbul etmək" (1970), "Linqvistik dəyişən və qeyri-səlis "əgər-onda" qaydalarının konsepsiyasının" (1973), "Tibii dilin

işlənilməsi üçün mümkünlük nəzəriyyəsi" (1978), "Təxmini mühakimə nəzəriyyəsi" (1979), "Sağlam düşüncəyə əsaslanan mühakimə nəzəriyyəsi" (1985), "Dispozisiya məntiqi" (1988), "Qeyri-səlis qaydalar, qeyri-səlis qraf və qeyri-səlis ehtimal hesabı, soft computing nəzəriyyəsi" (1991), "Sözlə işləyən kompyuterlər nəzəriyyəsi" (1996), "Qeyri-səlis informasiya qranulyasiya nəzəriyyəsi" (1997), "Təssurat nəzəriyyəsi" (1998) dünya elminin inkişafında mühüm rol oynayır.

Dünya elmində Zadə və Qassini kimi tanınan statistik qeyri-müəyyənlik şəraitində işləyən idarəetmə sistemlərində optimal süzgəclər məsələsinin həlli kimi bu elmi təklif mürəkkəb proqnozlaşdırma sistemlərinin qurulması üçün əsas götürülür. Zadənin bu təklifi məşhur Viner məsələsini xeyli genişləndirmişdir. Lütfi Zadənin dünya idarəetmə elminə verdiyi ən böyük töhfələrdən biri elmi ədəbiyyatda Z-çevirmə üsulu kimi tanınan (Zadə sözünün baş hərfi) diskret və rəqəmli idarəetmə, informasiya və komunikasiya sistemlərinin əsasını qoyan elmi nəzəriyyədir. Alimin elmi xidmətlərindən biri də müasir idarəetmə elminin əsasını təşkil edən vəziyyətlər fəzası, dinamik sistemlərin idarəolunma və müşahidəolunma nəzəriyyələrinin təklif olunmasıdır. Bu gün dünyanın qabaqcıl universitetlərində idarəetmə elmi bu nəzəriyyələr əsasında öyrənilir, elmi - tədqiqat təşkilatları, xüsusilə ABŞ-ın milli kosmik tədqiqat mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələşdirir və tətbiq edir. Son illərdə Lütfi Zadənin nəhəng elmi fikirlərindən biri də Soft Computing nəzəriyyəsinin yaradılmasıdır. Bu, yeni texnologiyaların əsaslarının təşkilidir. Bu nəzəriyyə qeyri-səlis məntiq suni neyron şəbəkələri, genetik alqoritmlər, Xaos nəzəriyyəsi və ehtimal qərarçıxarma paradiqmlərinin intellektual kombinasiyalarını özündə əks etdirir. Soft Computing nəzəriyyəsi bu gün dünya banklarında, iqtisadi və texniki sistemlərdə, incəsənətdə geniş tətbiq olunur. Lütfi Zadənin son dövr təklif etdiyi nəzəriyyə rəqəmlə yox, sözlə işləyən kompyuter nəzəriyyəsidir. Bu çür maşınlarda informasiyanın qranulyasiyası kimi rəqəmlər, kodlar deyil, sözlər, cümlələr istifadə olunur. Bu çür kompyuterlərin ən adekvat modeli təxmini məntiqi qərarçıxarma qabiliyyətinə malik olan və təəssürat əsasında informasiyanı işləyə bilən insan beynidir. Dünya şöhrətli alimin hələlik təklif etdiyi son nəzəriyyə təəssurat nəzəriyyəsidir. Qeyri-səlis məntiq qəbul edilimş qeyri- müəyyən informasiyanın əsasında nəticə çıxarma yollarını verirsə, təəssurat nəzəriyyəsi ətraf aləm haqqında tez, dolğun və dəqiq ölçmə aparmadan informasiya almaq yollarını verir. Bu nəzəriyyənin məqsədi insanda olan oxşar suni təəssurat sistemi yaratmaq prinsipləri və üsulları verməkdir.

Lütfi Zadənin elmi ideyaları tükənib bitmir. Onun elmi nəzəriyyələri: müasir idarəetmə nəzəriyyəsinin təməlini qoymuş vəziyyətlər məkanı; diskret və rəqəmli idarəetmə sisteminin yaradılması üçün baza rolunu oynamış çevirmələr nəzəriyyəsi; insanın dünya haqqında, özü haqqında təsəvvüründə inqilabi dəyişikliklər əmələ gətirmiş qeyri-səlis məntiq və s. artıq gerçəkliyə çevrilmişdir. Bunlar müxtəlif sahələrdə yeni müsir tərzdə təqdim olunmuşlar və hələ də gələcəkdə tətbiq olunaraq sanki həlledilməz olan məsələləri həll edəcəkdir.

Onu da qeyd edək ki, Lütfi Zadə nəzəriyyəsindən bəhrələnən superkompyuterlər qeyri-səlis məntiqdən istifadə edilərək elmin bütün sahələri üçün ekspert sistemləri hazırlanır və müsir kompyuterlərə tətbiq olunur. Bu zaman neyron şəbəkələr əsas götürülür, belə ki, insan beyninin obrazlarını dərk etməklə əməliyyat aparmaq prinsipi kopyuterlərə də şamil olunur. Beşinçi nəsil kompyuterlərdə lazımı qaydada özünü yenidənqurma prinsipindən, öz-özünü proqnozlaşdırmadan və özü təşkil olunan

davranışdan istifadə olunur. Bütün bunlar Lütfi Zadə nəzəriyyəsi əsasında yaradılan texnika və texnologiyaların,qeyri-müəyyən, qeyri-dəqiq obyektlərin öyrənilməsində daha çox tətbiq olunacağını göstərir.

Professor Lütfi Zadə sistem və optimal süzgəclər nəzəriyyəsi sahəsində də fundamental nəticələrə nail olmuşdur. Dünya alimləri onun əldə etdiyi elmi nəticələri müasir riyaziyyat və kibernetika sahəsində yeni bir hadisə kimi qiymətləndirmişlər. Onun nəzəriyyəsini tətbiq edən aparıcı müəssisələr və şirkətlərə Hitaçi, Matsuhiti, Mitsubişi, Toşiba, Soni, Fuji, Orison, Kanon, Rigo, Sanyu, Ninolta, Nissan, Honda, Hek, NTT, Şarp daöildir.

Lütfi Zadənin doğma Bakıya ilk səfəri 1965-ci ildə Qara dənizdə Odessa-Batumi istiqamətində üzən "Admiral Naximov" teploxodunda avtomatik idarəetmə problemlərinə həsr olunmuş beynəlxalq elmi konfransdan sonra olmuşdur. Lütfi Zadə xanımı Faina Zadə ilə birlikdə professor İsmayıl İbrahimovun dəvəti ilə konfransdan birbaşa Bakıya gələrək birgünlük səfərdə olmuşdur. O vaxtlar Respublika Elmlər Akademiyasının prezidenti Zahid Xəlilov və görkəmli alimlərin Lütfi Zadə ilə görüşü oldu və o, alimlər qarşısında özünün qeyri-səlis məntiq nəzəriyyəsi barəsində elmi məruzə ilə çıxış etdi.

43 ildən sonra Lütfi Zadə "Baku Tel" beynəlxalq telekommnikasiya və informasiya texnologiyaları sərgi və konfransında iştirak etmək üçün 2008-ci ilin noyabrın 8-10-da Bakıya ikinci dəfə səfər etmişdir. Səfər zamanı, Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edən dünya şöhrətli alim möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən də qəbul edilmişdir. Görüşdə Lütfi Zadə Bakıya səfərindən və ölkə başçısı ilə görüşündən məmnunluğunun ifadə etmişdir. İlk dəfə 1965-ci ildə Bakıda birgünlük səfərdə olduğunu xatırladan alim budəfəki səfərin onda böyük təəssürat yaratdığını söyləmiş, ötən dövr ərzində ölkəmizin xeyli dəyişdiyini, Bakıda böyük abadlıq və quruculuq işləri ilə yanaşı, elmin və mədəniyyətin inkişafının da yüksək səviyyədə olduğunu vurğulamışdır. Lütfi Zadə əldə olunan bütün bu nailiyyətləri Azərbaycan Prezidenti İlham Əliyevin elmə və mədəniyyətə göstərdiyi qayğı və diqqətin təzahürü kimi dəyərləndirmişdir.

"Baku Tel-2008" beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində və konfrasında iştirak edən alim sərgi ilə tanış olmuş, bu beynəlxalq tədbiri yüksək qiymətləndirmişdir. Daha sonra alim Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində təşkil olunan tədbirdə məruzə etmiş, ona elm qarşısında göstərdiyi xidmətlərə görə AMEA-nın xarici vətəndaşlar üçün fəxri diplomu təqdim olunmuşdur. Səfər çərçivəsində o, həmcinin öz doğma məktəbi – Bakıda yerləşən 16 nömrəli məktəbdə də olmuşdur.

Lütfi Zadə dünyanın 25 ölkəsinin nüfuzlu universitetlərinin fəxri doktoru adına layiq görülüb. O, həmçinin ABŞ Milli Mühəndislik Akademiyasının üzvü, Koreya Elm və Texnoloji Akadeniyasının, Bolgariya Elmlər Akademiyasının, Polşa Elmlər Akademiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri xarici akademiki seçilmişdir.

O, aşağıdakı medallarla təltif olunmuşdur: İEEE Educational Medal (1973), İEEE Centennial Medal (1984); Honda Mükafatı (1989), Berkeley Citation (1991), İEEE Rişard Hamming Medal (1992), Rufus Oldenburger Medal (1993), İEEE Fəxri Medalı (1995), Bolzano Medal (1997), Edvard Feigenbaum Medal (1998), İEEE Milenium

Medal (2000), V.Kaufman Mükafatı və Qızıl Medalı (2004), Egleston Medal (2007), Franklin Medal (2009), "Dostluq" Azərbaycan (2011).

O, 200-dən çox elmi məqalənin tək müəllifi və 70-dən çox elmi jurnalların redaksiya heyyətinin üzvüdür. Onun elmi tədqiqat işi ONR N00014-02-1-0294, Omron Grant, Tekest Grant, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin grantı, Azərbaycan Respublikası Azərbaycan Universitetinin grantı və UC Berkeley Universitetində Soft kompütünq üzrə təşəbbüs (BİSC) proqramı grantları vasitəsilə dəstəklənmişdir.

18-20 mart 2011-ci il tarixində ABŞ-ın Texas ştatının El Paso şəhərində L.Zadənin elmi məqalələrinin 45 illiyinə həsr edilmiş elmi konfransı (North American Fuzzy İnformation Processing Society, 2011), 23-26 May 2011-ci ildə ABŞ-ın Koliforniya ştatında San- Fransisko şəhərində Lütfi Zadənin 90 illiyinə həsr olunmuş Soft Computing üzrə dünya konfransı (Wordl Confranse on Soft Computing) keçiriləcək. Hər iki konfransı Azərbyacan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi dəstəkləyir və Azərbaycandan bir çox alimlər bu konfranslarda iştirak edəcəklər.

Azərbaycan Respublikasının Prezidentinin 7 fevral 2011-ci il tarixli sərəncamına əsasən "Elm və texnologiyaların inkişafına verdiyi töhfələr və mədəniyyətlərarası dialoqun qurulmasında göstərdiyi görkəmli xidmətlərinə görə Lütfi Zadə (Lütfi Rəhim oğlu Ələsgərzadə) dostluq" ordeni ilə təltif edilmişdir.

Bu gün 90 illik yubileyini qeyd edən dünya şöhrətli Azərbaycanlı alim professor Lütfi Zadə fundamental elmin nəticələri, nəzəriyyələri, ixtiraları, yenilikləri ilə xoşbəxt alimlərdəndir. O, şərəfli, ziyalı ömrünün bu müdrik çağında da dünya elminə əvəzsiz töhfələr vermək uğrunda əzmlə çalışır. Bu yolda ona möhkəm can sağlığı, yeni-yeni uğurlar arzulayıram.

**Şahnaz Şahbazova,**
Lütfi Zadə adına Azərbaycan Beynəlxalq
Müasir Elmlər Akademiyasının həqiqi üzvü.

## *OQTAY RƏCƏBOV- 70*



## TANINMIŞ BƏSTƏKAR, GÖRKƏMLİ PEDAQOQ

«Dünyada elə insanlar var ki, onlar gördükləri işlərə, elmi axtarışlara, yaradıcılıqlarına görə təkcə bir xalqa, bir ölkəyə, bir məmləkətə məxsus olmurlar. Bu insanlar öz yaradıcılıqları ilə anadan olduğu məmləkəti, ölkəni, məxsus olduğu xalqı dünya miqaysına çıxara bilirlər. Belə insanlardan biri də bəstəkar Oqtay Rəcəbovdur». Bu sözlər böyük Azərbaycan bəstəkarı Tofiq Quliyevin «Respublika» qəzetinin 25 noyabr 1994-ci il tarixli nömrəsində dərc olunmuş «Oqtay Rəcəbov Azərbaycanın Kabalyevskisidir» adlı məqaləsindən

götürülmüşdür. Həmin məqalənin sonunda onun müəllimi belə yazırdı:

«Oqtay Rəcəbov təkcə Azərbaycanın deyil, həm də bütün Qafqazın Kabalyevskisidir. Onu təkcə Qafqaz üçün deyil, bütün Şərq aləmi üçün qorumaq lazımdır!»

Tanınmış Azərbaycan bəstəkarı, professor Oqtay Rəcəbovun həyat və yaradıcılığını nəzərdən keçirərkən böyük ustadın, musiqi xadiminin uzaqgörənliklə dediyi həmin sözlərin məna tutumunu daha aydın hiss edirsən. Bəstəkar, alim, musiqi pedaqoqu kimi tanınan və hər istiqamətdə geniş yaradıcılıq fəaliyyəti ilə diqqəti cəlb edən O.Rəcəbovu parlaq istedad sahibi adlandırmışdır. Böyük bəstəkarın O.Rəcəbova verdiyi yüksək qiymət onu daha da ruhlandırmış, geniş diapazonda yaradıcılıq fəaliyyəti göstərməyə səfərbər etmişdir. Əlbəttə, bəstəkar haqqında söhbət açarkən istər-istəməz onun yaratdığı əsərlərə, o cümlədən xalqın, müxtəlif nəsillərdən olan dinləyicilərin rəğbətini qazanan mahnılara xüsusi diqqət yetirmək lazım gəlir. O.Rəcəbov məhz bu cəhətdən də öndə gedən, nümunə göstərilən bəstəkarlardandır. «Anam Azərbaycanım» (sözləri Adil Babayevin), «Nəğmələr» (sözləri Bəxtiyar Vahabzadənin), «Necə unudum səni?» (sözləri Zivər Ağayevanın), «Zəfəran» (sözləri Nüsrət Kəsəmənlinin), «Daha nə istəyirsən? (sözləri Famil Mehdinin) və digər onlarca mahnılar bəstəkarın fitri istedadının parlaq hesab olunur. Bu mahnılar görkəmli sənətkarlarımız Zeynəb Xanlarovanın, Şövkət Ələkbərovanın, Mirzə Babayevin, Flora Kərimovanın, İlhamə Quliyevanın, Yalçın Rzazadənin ifasında kütləviləşmiş, dinləyicilərin, tamaşaçıların zövqünü oxşamışdır.

O.Rəcəbov bir bəstəkar kimi yaradıcılığa başladığı vaxtlardan irihəcmli vokal və instrumental əsərlər yaratmağa da xüsusi diqqət yetirmişdir.

Bəstəkar məktəblilər üçün yazdığı əsərlərin təlim-tərbiyə prosesinə tətbiqinə çalışmış, apardığı eksperimentlər və tərtib etdiyi «Musiqi» dərslikləri vasitəsilə məqsədinə nail olmuşdur. Bu istiqamətdə onun görkəmli rus bəstəkarı, Sosialist Əməyi Qəhrəmanı, akademik D.B.Kabalyevski ilə olmuş yaradıcılıq ünsiyyəti, əməkdaşlığı xüsusi qeyd edilməlidir.

O.Rəcəbov yaradıcılığının müxtəlif mərhələlərində D.B.Kabalyevski məktəbi ənənələrini ləyaqətlə davam etdirən musiqi pedaqoqudur. O, böyüməkdə olan nəslin musiqi-estetik tərbiyəsi naminə öz ideyalarını həyata keçirmək üçün ən əlverişli vasitə və yollardan, müxtəlif kanallardan bacarıqla istifadə etmişdir.

O.Rəcəbovun təşəbbüsü ilə yaradılan və 1978-1992-ci illər ərzində Azərbaycan televiziyası ilə yayımlanan «Məktəblilərin musiqi klubu»nun hər məşğələsi yadda qalmış, estetik tərbiyə üzrə bir sıra nəzəri-təcrübi məsələlərin həllinə əhəmiyyətli təsir göstərmişdir.

O.Rəcəbovun 1975-1985-ci illərdə respublika miqyasında musiqi təlimi ilə əlaqədar apardığı eksperimentlərin nəticəsi yüksək qiymətləndirildi. 1985-ci ildə ümumtəhsil məktəblərimiz üçün yeni «Musiqi» proqramı hazırlandı. Həmin proqram müxtəlif illərdə təkmilləşərək bu gün də öz dəyərini itirməmişdir. Daim axtarışda olan bəstəkar-pedaqoq 1992-2001-ci illər ərzində Almaniyanın Bonn şəhərindəki K.Orf adına Uşaq İncəsənət Gimnaziyasından, Vilnüsdəki Çürlöniş adına Uşaq İncəsənət Gimnaziyasından sonra üçüncü sayılan ölkəmizdə Respublika İncəsənət Gimnaziyasını yaratmışdır. 1992-2001-ci illərdə gimnaziyanın 45 şagirdi beynəlxalq müsabiqələrin laureatı diplomantı adına layiq görülmüşdür.

O.Rəcəbov Respublika İncəsənət Gimnaziyasında işlədiyi dövrdə Azərbaycanda ilk dəfə olaraq uşaqlar üçün opera studiyası və kinostudiya yaradılmışdı. Məktəblilərin opera və operetta janrında yazılmış əsərlərdə aktyor, rejissor, operator kimi çıxış etdıkləri həmin studiyalarda qısametrajlı filmlər çəkilmişdir. 1996-2010-cu illərdə onun bilavasitə rəhbərliyi və müəllifliyi ilə ümumtəhsil və musiqi məktəbləri üçün yaradılmış 16 adda tədris vəsaiti («Musiqi», «Musiqi ədəbiyyatı» dərsliyi, «Fortepianoda çalmaq üçün müntəxəbat», «Elementar musiqi nəzəriyyəsi» 1,5 milyon tirajla çap olunmuşdur. O.Rəcəbovun fəal iştirakı ilə son illərdə milli kurikulum əsasında hazırlanan dərsliklər və tədris vəsaitləri də balalarımızın musiqi-estetik tərbiyəsinin ahəngdar şəkildə inkişafına istiqamətləndirilmişdir.

O.Rəcəbovun 1975-2010-cu illər ərzində gördüyü işlər bütöv Azərbaycanı əhatə etmişdir. Məhz buna görə də ustad bəstəkarımız T.Quliyev Oqtay Rəcəbovu «Qafqazın Kabalyevskisi» adlandırmışdır. Əgər O.Rəcəbovun və D. Kabalyevskinin musiqi-estetik tərbiyə sahəsində gördükləri işləri müqayisə etsək, həmyerlimizin daha çox iş gördüyü nəzərə çarpar.

O.Rəcəbov bəstəkarlıq və musiqi pedaqoqu kimi peşələrin sintezini yaratmaq sahəsində də özünəməxsus dəsti-xətti ilə seçilir. 1975-ci ildən indiyədək yaratdığı əsərlər mövzusuna, janrına görə çox böyük maraq doğurur. Onun 400-dən çox mahnısı müğənnilər, uşaq xor kollektivləri tərəfindən ifa olunmuşdur. Bəstəkar 17 filmə musiqi, musiqili Komediya Teatrı üçün 2 operetta bəstələmiş, 5 simfoniya, üç opera, iki oratoriya, kantata, instrumental konsertlər, kapella üçün mürəkkəb xor əsərləri, fortepiano, kamança və skripka üçün sonatina, sonata, pyeslər yazmışdır. Onun musiqi yaradıcılığına diqqət yetirdikdə aydın olur ki, balet janrı istisna olmaqla, musiqinin müxtəlif janrlarında qələmini sınamış və həmişə, hər yerdə uğur qazanmışdır. Etiraf edək ki, belə geniş yaradıcılıq işi üçün bir insan ömrü kifayət etmir.

Elmi-tədqiqat işləri O.Rəcəbovun yaradıcılığında xüsusi bir sahəni təşkil edir. O, prof. Y.Kərimovun elmi rəhbərliyi ilə ümumtəhsil məktəblərində apardığı tədqiqat nəticəsində 1984-cü ildə Moskvada namizədlik, 1992-ci ildə yenə onun məsləhəti ilə doktorluq dissertasiyalarını müdafiə etmiş, professor adına layiq görülmüşdür. Daim yaradıcılıq axtarışlarında olan bəstəkar O.Rəcəbov Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü kimi də yorulmadan fəaliyyət göstərir. Bəstəkarın pedaqoji elmlər sahəsində uğurlu axtarışları bu gün də müvəffəqiyyətlə davam edir.

Məktəblilərin musiqi-estetik tərbiyəsi sahəsində böyük işlərinə, səmərəli pedaqoji fəaliyyətinə görə onun 1982-ci ildə Respublika Lenin Komsomolu Mükafatı Laureatı, 1987-ci ildə isə əməkdar müəllim fəxri adına layiq görülməsi uğurlu axtarışların nəticəsi kimi qiymətləndirilməlidir.

Bu il Oqtay müəllimin, anadan olmasının 70, yaradıcılıq fəaliyyətinin 50 ili tamam olur. Həyatı, fəaliyyəti zəhmətlə yoğrulan, həmkarımıza, dostumuza uzun ömür, möhkəm can sağlığı, ailə səadəti, daha böyük yaradıcılıq uğurları arzulayırıq!...

**Vidadi Xəlilov,**
ARTPİ-nin şöbə müdiri pedaqoji elmlər
doktoru, professor, əməkdar müəllim



*Bakıdakı 111 nömrəli körpələr evi-uşaq bağçasında jurnalın müzakirəsi*




*Bakıdakı 18 nömrəli məktəbdə jurnalın müzakirəsi*



*İlyas Əfəndiyev adına Elitar Gimnaziyada jurnalın müzakirəsi*



*Jurnalın Quba təhsil işçiləri arasında müzakirəsi*